# AZƏRBAYCAN DİLİ

METODİK VƏSAİT

4

dövlət dili



**Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Ümumi təhsil müəssisələrinin **4**-cü sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(dövlət dili)*

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
trm@arti.edu.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

MÜNDƏRİCAT


GİRİŞ ........................................................................................... 3-6

I BÖLMƏ. FƏRD VƏ TOPLUM
1-ci fəsil. Mərhəmət ........................................................................ 8-12
2-ci fəsil. Xeyirxahlıq ...................................................................... 12-17
3-cü fəsil. Ünsiyyət ......................................................................... 17-20
Ümumiləşdirici təkrar ....................................................................... 21
Kiçik summativ qiymətləndirmə ....................................................... 21

II BÖLMƏ. YÜZ MİN "NİYƏ?"
1-ci fəsil. Niyə mütaliə etməliyik? .................................................... 23-27
2-ci fəsil. İlanlar haqqında bilmədiklərimiz ....................................... 28-34
3-cü fəsil. Qaranquşlar necə yuva qurur?.......................................... 34-40
Ümumiləşdirici təkrar ....................................................................... 40-41
Kiçik summativ qiymətləndirmə ....................................................... 41

III BÖLMƏ. İDMAN VƏ İDMANÇILAR
1-ci fəsil. Oyunlar və qaydalar........................................................... 43-48
2-ci fəsil. İradənin gücü...................................................................... 48-53
3-cü fəsil. Çempionlar ....................................................................... 54-57
Ümumiləşdirici təkrar ....................................................................... 58-59
Kiçik summativ qiymətləndirmə ....................................................... 59

IV BÖLMƏ. TƏKƏRDƏN AVTOMOBİLƏ
1-ci fəsil. Təkərin tarixi ..................................................................... 61-64
2-ci fəsil. İki təkər üstə hərəkət ........................................................ 64-69
3-cü fəsil. Avtomobil dünyası ............................................................ 69-73
Ümumiləşdirici təkrar ....................................................................... 74
Kiçik summativ qiymətləndirmə ....................................................... 74

V BÖLMƏ. TƏBİƏTİN SİRLƏRİ
1-ci fəsil. İnsan və təbiət ................................................................... 76-80
2-ci fəsil. Hər canlının öz taleyi var ................................................... 81-86
3-cü fəsil. Memar canlılar ................................................................. 87-90
Ümumiləşdirici təkrar ....................................................................... 90-91
Kiçik summativ qiymətləndirmə ....................................................... 91

VI BÖLMƏ. TARİXDƏ İZ QOYANLAR
1-ci fəsil. Ot kökü üstə bitər ............................................................. 93-99
2-ci fəsil. İlkə imza atan qadın .......................................................... 99-104
3-cü fəsil. Təhsil fədaisi ..................................................................... 104-109
4-cü sinif üzrə ümumiləşdirici təkrar ............................................... 110-111
Kiçik summativ qiymətləndirmə ....................................................... 111

# GİRİŞ

## 1. Dərslik komponentləri

Təqdim olunan dərslik komplekti məzmun standartlarının reallaşdırılması baxımından bir-birini tamamlayan üç kitabdan ibarətdir: dərslik, iş dəftəri və metodik vəsait.

Dil tədrisinin əsas məzmununu təşkil edən informasiya materialı: oxu üçün mətnlər, vizual materiallar, nitq bacarıqlarının inkişafı üçün zəruri dil qaydaları və tapşırıqlar dərslikdə verilir. Digər komponentlər dərsliyin məzmunu ilə bağlıdır.

Metodik vəsait dərslik komplektinin vacib komponentlərindən biridir. Müəllim üçün nəzərdə tutulmuş bu vəsaitdə məzmun standartları açıqlanır, mətnlərin oxunması üçün üsul və strategiyalar təklif olunur, hər bir dərs üzrə təlim nəticələri göstərilir, diferensial təlim yolları, əlavə resurslar və s. haqqında məlumat verilir.

İş dəftəri mənimsədilən bilik və bacarıqların tətbiqi üçün nəzərdə tutulmuş çalışmalardan ibarətdir.

## 2. Dərsliyin strukturu

**Tədris vahidləri.** 4-cü sinifdə Azərbaycan dilinin (dövlət dili kimi) tədrisinin 6 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Hər yarımil üçün 3 bölmə nəzərdə tutulmuşdur.

**Bölmənin strukturu**. Hər bir bölmə üç fəsil və ümumiləşdirici təkrardan ibarətdir. Dərslikdə bölməyə giriş olaraq təqdim olunmuş titul səhifəsində müvafiq bölmənin məzmunu ilə bağlı vizual materiallar və diaqnostik qiymətləndirmə üçün suallar verilir.

Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş nitq bacarıqlarının reallaşdırılması və dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

**Fəslin strukturu**. Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, bir neçə dərsi (2-4) əhatə edir. Fəsildə müəyyən mövzu zəminində müxtəlif nitq bacarıqlarının inkişafı üçün materiallar verilir. Bu materiallar oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır. Ona görə də dərsliyin məzmun kompozisiyası haqqında danışarkən bir dərsin deyil, fəsli təşkil edən bir neçə dərsin mərhələlərindən danışmaq lazım gəlir.

Fəsillərin strukturu aşağıdakı kimidir:




Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın mərhələlərinə uyğun reallaşdırılmasına imkan yaradır:

1) **Oxu.** Şagirdlər mətni oxuyur, mövzu üzrə yeni məlumat əldə edirlər; bu zaman müxtəlif oxu strategiyaları tətbiq olunur: növbəli oxu, istiqamətləndirilmiş oxu, qruplarla oxu və s.

2) **Özünüifadə.** Əldə etdikləri məlumat və ya ideya ətrafında danışır (müzakirə, debat), yazır (təqdimat, esse), dinlədiklərini oxuduqları ilə müqayisə edirlər.

3) **Ədəbi dil normalarına uyğun yazı.** Hər fəsildə ekspressiv yazı bacarığının inkişafı üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydanı yazıda tətbiq edirlər.

## 3. Məzmun vahidlərinin saatlar üzrə bölgüsü

4-cü sinifdə Azərbaycan dilinin tədrisinə 68 saat ayrılır: 34 həftə x 2 saat. Bölmə və fəsillərin saatlar üzrə bölgüsü aşağıdakı kimidir.

| Fəsil | Oxu | Yazı. Dil qaydası | Saat |
|---|---|---|---|
| **1-ci bölmə. FƏRD VƏ TOPLUM** | | | |
| **1. Mərhəmət** | Futbol topu | Sözlərdə bəzi saitlərin yazılışı<br>Birhecalı, yoxsa ikihecalı söz? | 3 |
| **2. Xeyirxahlıq** | Tənha qu quşu | Y, yoxsa yy? M, yoxsa n? | 4 |
| **3. Ünsiyyət** | Görünməz Tonino | Alınma sözlərdə bəzi samitlərin yazılışı | 2 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |

| | | | |
|---|---|---|---|
| **2-ci bölmə. YÜZ MİN "NİYƏ"?** | | | |
| **1. Niyə mütaliə etməliyik?** | Mütaliənin faydaları | Sözün tərkibi: kök və şəkilçi<br>İki və dörd cür yazılan şəkilçilər | 2 |
| **2. İlanlar haqqında bilmədiklərimiz** | İlanlar niyə rəqs edir? | Şəkilçilərin növləri.<br>Leksik və qrammatik şəkilçilər | 3 |
| **3. Qaranquşlar necə yuva qurur?** | Qaranquş və Sərçə | Şəkilçilərin yazılışı | 2 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |

| | | | |
|---|---|---|---|
| **3-cü bölmə. İDMAN VƏ İDMANÇILAR** | | | |
| **1. Oyunlar və qaydalar** | Basketbol | İsmin halları. Mənsubiyyət şəkilçiləri | 3 |
| **2. İradənin gücü** | Xatirələrim | Sifət. Sifətin müqayisə dərəcələri | 2 |
| **3. Çempionlar** | Çempionlarımızı tanıyaq | Zərf | 3 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |

| | | | |
|---|---|---|---|
| **4-cü bölmə. TƏKƏRDƏN AVTOMOBİLƏ** | | | |
| **1. Təkərin tarixi** | Ən mühüm ixtira | Feilin məsdər forması | 2 |
| **2. İki təkər üstə hərəkət** | Kifayətdir? | İşarə əvəzlikləri | 4 |
| **3. Avtomobil dünyası** | Hamı üçün avtomobil | Köməkçi nitq hissələri | 2 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |

| | | | |
|---|---|---|---|
| **5-ci bölmə. TƏBİƏTİN SİRLƏRİ** | | | |
| **1. İnsan və təbiət** | Meşələrin dostluğu | Söz. Söz birləşməsi. Cümlə | 3 |
| **2. Hər canlının öz taleyi var** | Çirkin ördək balası | Cümlə üzvləri. Mübtəda və xəbər | 3 |
| **3. Memar canlılar** | İnşaatçı mühəndislər<br>Hörümçək toru<br>Termitlər<br>Qanadlı memarlar | Xəbərin mübtəda ilə uzlaşması | 3 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |

| | | | |
|---|---|---|---|
| **6-cı bölmə. TARİXDƏ İZ QOYANLAR** | | | |
| **1. Ot kökü üstə bitər** | Brest xatirələrindən | Cümlənin ikinci dərəcəli üzvləri | 3 |
| **2. İlkə imza atan qadın** | İlk azərbaycanlı şəfqət bacısı | Cümlədə söz sırası | 4 |
| **3. Təhsil fədaisi** | Qori Müəllimlər Seminariyası | | 3 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |

## 4. Məzmun standartları və təlim nəticələri

Aşağıda məzmun standartlarının tədris prosesində reallaşdırılması yolları açıqlanır. Hər dərsdə bir və ya bir neçə altstandart reallaşdırılır. Dərslərdə qoyulan təlim məqsədləri – gözlənilən şagird nailiyyətləri məzmun standartlarına doğru aparan addımları və ya standartların reallaşma üsullarını göstərir.

### 1. DİNLƏMƏ

**Şagird:**

**1.1. Təqdim olunan sadə nitq nümunələrini anladığını nümayiş etdirir.**

**1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir.**

• Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır.
• Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir.
• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir.

**1.1.2. Dinlədiyi kiçikhəcmli mətnlərin məzmununu anladığını nümayiş etdirir.**

• Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir.
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir.
• Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir.

### 2. DANIŞMA

**Şagird:**

**2.1. Danışarkən fəal leksikadan və sadə qrammatik konstruksiyalardan istifadə edir.**

**2.1.1.Sözləri tələffüz edərkən orfoepik normalara riayət edir.**

• Sözlərdə saitləri düzgün tələffüz edir.
• Sözlərdə samitləri düzgün tələffüz edir.
• Alınma sözləri orfoepik normalara uyğun tələffüz edir.

**2.1.2. Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir.**

• Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır.
• Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir.
• Fikrini əsaslandırmaqla münasibət bildirir.

**2.2. Verilmiş sadə nitq nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.**

**2.2.1. Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır.**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır.
• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır.
• Əşya və hadisələrə öz münasibətini bildirir.

**2.2.2. Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir.**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır.
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir.
• Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır.

**2.2.3. Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır.**

• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür.
• Sualı cavablandırarkən fikrini əsaslandırır.
• Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur.

### 3. OXU

**Şagird:**

**3.1. Düzgün oxu bacarıqlarını nümayiş etdirir.**

**3.1.1. Kiçikhəcmli mətnləri düzgün və ifadəli oxuyur.**

• Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur.

**3.1.2. Kiçik mətnləri oxuyur və məzmununu şərh edir.**

• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir.
• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.
• Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir.
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir.
• Bədii və informativ mətnlərdə "mövzu", "məzmun" və "ideya" anlayışlarını fərqləndirir.
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir.
• Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir.
• Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir.
• İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır.
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir.

• Mətnə əsasən hekayə xəritəsi tərtib edir.
• Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir.
• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir.
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir.
• Sətiraltı fikir və informasiyanı izah edir.
• Verilmiş fikri arqumentlə əsaslandırır.
• Verilmiş məlumatları mətndəki məlumatlarla müqayisə edir.
• Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir.
• Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir.

**3.1.3. Oxuduğu mətndəki sözlərin mənasını müəyyən edir.**

• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir.
• Yaxınmənalı sözləri müəyyənləşdirir.
• Cümlədə buraxılmış sözü müəyyən edir.
• Yeni sözləri kontekstə uyğun işlədir.
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir.

## 4. YAZI

**Şagird:**

**4.1. Düzgün yazı bacarıqlarını nümayiş etdirir.**

**4.1.1. Sözlərin yazılışında orfoqrafik və qrammatik normalara əməl edir.**

• Əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərini müəyyən edir.
• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir.
• Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir.
• Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir.
• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir.
• Cümlədə köməkçi nitq hissələrini semantik xüsusiyyətlərinə uyğun işlədir.
• Leksik və qrammatik şəkilçiləri fərqləndirir.
• Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir.
• Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır.
• Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir.
• Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir.
• Sözlərin tərkib hissələrini müəyyən edir.

**4.1.2. Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir.**

• Cümlələri quruluşuna görə fərqləndirir.
• Cümlələri məqsəd və intonasiyasına görə fərqləndirir.
• Söz birləşmələri və cümlələrdə qrammatik baxımdan zəruri düzəlişlər edir.
• Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir.
• Söz birləşmələrini söz və cümlədən fərqləndirir.
• Söz birləşmələri qurarkən sözləri uyğun qrammatik formada işlədir.
• Verilmiş şəklə uyğun söz və cümlələr yazır.
• Söz birləşmələri ilə ifadə olunan cümlə üzvlərini müəyyənləşdirir.
• Cümlənin qrammatik əsasını müəyyənləşdirir.
• Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur.
• Mübtəda və xəbəri şəxsə və kəmiyyətə görə uzlaşdırır.
• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir.
• Sual cümlələrində sual əvəzliklərindən yerli-yerində istifadə edir.
• Yazarkən cümlədə söz sırasına əməl edir.
• Cümlə üzvlərinin ifadə vasitələrini müəyyənləşdirir.

**4.1.3. Fakt, hadisə, fikir və duyğularını yazıda əks etdirir.**

• Verilmiş şəklə uyğun söz və cümlələr yazır.
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat) yazır.
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.
• Oxuduğu və ya dinlədiyi mətnin qısa məzmununu yazır.
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır.
• Verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edir.
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır.
• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır.
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır.
• Esse yazarkən fikirlərini arqumentlərlə əsaslandırır.

Bölmə **1**

# FƏRD VƏ TOPLUM

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Mərhəmət** | | | | | |
| 1 | Futbol topu | Oxu | 8-9 | 3 | 8-9 |
| 2 | Futbol topu | Oxu<br>Yazı (məktub) | 10-11 | 4 | 9-11 |
| 3 | Sözlərdə bəzi saitlərin tələffüzü və yazılışı | Yazı (dil qaydaları) | 12 | 5 | 11-12 |
| 2-ci fəsil. **Xeyirxahlıq** | | | | | |
| 4 | Tənha Qu quşu | Oxu | 13-15 | 6 | 12-14 |
| 5 | Aslan və Ağcaqanad | Dinləmə<br>Yazı (mətn) | 15-16 | 7 | 14-16 |
| 6 | Sözlərdə bəzi samitlərin tələffüzü və yazılışı. "Y", yoxsa "yy"? "M", yoxsa "n"? | Yazı (dil qaydaları) | 17 | 8 | 16-17 |
| 3-cü fəsil. **Ünsiyyət** | | | | | |
| 7 | Görünməz Tonino | Oxu | 18-19 | 9 | 17-18 |
| 8 | Görünməz Tonino | Danışma | 20 | 10 | 19-20 |
| 9 | Alınma sözlərdə bəzi samitlərin tələffüzü və yazılışı | Yazı (dil qaydaları) | 21 | 11 | 20 |
| 10 | Ümumiləşdirici təkrar | | 22 | 12-13 | 21 |

# 1-ci fəsil
# MƏRHƏMƏT

## 1-ci DƏRS
## Futbol topu

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
- Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).
- Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin adına və titul səhifəsindəki suallara yönəldir.

**Dərslik, səh. 7**

> **1.** İnsan hansı davranışları ilə cəmiyyətə faydalı ola bilər?
> **2.** Sizcə, hansı xüsusiyyətlər cəmiyyətdə insana hörmət qazandırar?
> **3.** Cəmiyyət – məktəb, ailə, dostlar insan xarakterinin formalaşmasına necə təsir göstərir?

**Danışma**

Müəllim danışmağa həvəsləndirmək üçün yönəldici suallardan istifadə edir.

**Müəllimin nəzərinə!** Şagirdlərin bu mövzuda ilkin biliklərini öyrəndikdən sonra "fərd" və "cəmiyyət" anlayışlarını aşağıdakı kimi izah etmək olar. Cəmiyyət – cəm halında yaşayan, bir-biri ilə ünsiyyətdə olan insanlar. Fərd – cəmiyyətin bir üzvü; insan, şəxsiyyət.

Mövzunu şagirdlərə bir az doğmalaşdırmaq üçün müəllim sual verir:

– Sizin daha çox ünsiyyət qurduğunuz insanlar kimlərdir (məhəllə uşaqları, sinif yoldaşları, dərnək yoldaşları)? Siz bir fərd olaraq onların hörmətini necə qazanmısınız?

**Dərslik, səh. 8**

> **1.** Nə üçün insanlar bir-birinə yardım etməlidirlər? Siz çətin anlarda kimlərə kömək etmişsiniz?

Şagirdlər oxuduqları mətnlərdən və həyatdan nümunələr gətirməklə tapşırıqda qoyulmuş sualı cavablandırırlar.

**Söz ehtiyatı**

**Dərslik, səh. 9. "Söz mücrüsü" rubrikası**

> **Söz mücrüsü**
> dövr • təmir • dirək
> • imtina etmək • hönkürmək
> • kifayət • etibar etmək
> • müdafiəçi • aut • azmaq
> • piştaxta

**Söz mücrüsü.** Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 10**

> **2.** İzahlara əsasən "müdafiəçi" və "qapıçı" sözlərinin mənasını təxmin edib cədvəli tamamlayın. Daha sonra təxminlərinizi lüğət vasitəsilə yoxlayın.

Tapşırıq şagirdlərin diqqətini ***-çı***$^4$ şəkilçisinin yaratdığı mənaya yönəldir. Söz ehtiyatını artırmaqla yanaşı, lüğətdən istifadə bacarığını da inkişaf etdirir.

**Cavab:**

Müdafiəçi – futbol, hokkey və b. oyunlarda müdafiədə oynayan adam.

Qapıçı – futbol, hokkey oyunlarında: qapını müdafiə edən oyunçu.

**Dərslik, səh. 10**

> **3.** Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələn sözləri əlavə edərək cümlələri tamamlayın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər "Söz mücrüsü"ndən uyğun sözləri seçərək cümlələri tamamlayırlar. Bununla da yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 10**

**4.** Mətndə hansı suala cavab yoxdur?

**"Nə anladın?"** rubrikasında verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Cavab:** B

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, şagirdlər tapşırıqda verilmiş digər sualları da cavablandırsınlar. Bununla şagirdlər mətnin məzmununu nə qədər qavradıqlarını nümayiş etdirərlər.

**Dərslik, səh. 10**

**5.** Cümlələri mətnin məzmununa əsasən tamamlayın.

Şagirdlər tapşırıqda verilmiş cümlələri "Futbol topu" mətninin məzmununa əsasən tamamlayırlar. Bu tapşırıq şagirdlərin səbəb-nəticə əlaqələrini necə müəyyənləşdirdiklərini yoxlamağa imkan yaradır.

**İş dəftəri, səh. 3**

**1.** "Futbol topu" mətninə aid hekayə xəritəsini tamamla.

Şagirdlər "Futbol topu" mətninə əsasən hekayə xəritəsini tamamlayırlar. Bu tapşırıq müəllimə şagirdlərin həm mətnin məzmununu necə qavradıqlarını, həm də "məzmun", "ideya" anlayışlarını necə fərqləndirdiklərini yoxlamağa imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Söz tərkibindəki morfemlərin (-çı$^4$) semantik funksiyasından çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. 2 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 3 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 4 (D.) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 5 (D.) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. 1 (İ.D.) |

# 2-ci DƏRS
# Futbol topu

**Təlim nəticələri:**

- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).
- Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).
- Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir (st. 3.1.2).
- Sətiraltı fikir və informasiyanı izah edir (st. 3.1.2).
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
- Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 3.1.2).
- Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat və s.) yazır (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə mətnin məzmununu xatırladır.

**Oxu**

**Dərslik, səh. 11**

**1.** Hadisələrin ardıcıllığını müəyyən edərək "Futbol topu" mətninin qısa məzmununu danışın.

Şagirdlər hadisələrin ardıcıllığını bərpa edərək "Futbol topu" mətninin qısa məzmununu danışırlar. Beləliklə, keçən dərsdə oxunmuş mətnin məzmunu xatırlanır. Bu, sonrakı müzakirə prosesinə kömək edəcək.

**Cavab:** 1 – B; 4 – E;
2 – D; 5 – Ç;
3 – C; 6 – A.

**Dərslik, səh. 11**

**2.** Sizcə, "Futbol topu" mətninin baş qəhrəmanı kimdir? Fikrinizi əsaslandırın.

Şagirdlər **"Düşün və cavab ver"** rubrikasındakı tapşırıqda təqdim edilmiş sualı cavablandırırlar. "Futbol topu" mətninin baş qəhrəmanını müəyyənləşdirir və fikirlərini əsaslandırırlar.

**Dərslik, səh. 11**

> **3.** Sizcə, nə üçün mətnin sonunda saatın beş olduğu vurğulanır?

Şagirdlər mətnin müxtəlif hissələrində verilmiş məlumatlara əsasən sətiraltı informasiyanı müəyyən edirlər.

**Cavab:** Mətnin əvvəlində uşaqlar axşam saat beşdə meydançanın yanında yığışmağı planlaşdırmışdılar. Mətnin sonunda saat beş olduğu vurğulanır. Oxucu uşaqların bu gün üçün planlaşdırdığı futbol oyununun baş tutmayacağını anlayır.

**Dərslik, səh. 11**

> **4.** Mətndə hansı epizodlar Adilə aid aşağıdakı xüsusiyyətləri əks etdirir?

Şagirdlər Adilə aid xüsusiyyətləri müvafiq epizodları seçərək əsaslandırmalıdırlar.

**Cavab:**

Həssas – Adil balaca qızın ağlamağına biganə qalmadı. Səbəbi ilə maraqlandı.

Mərhəmətli – Adil futbol topu üçün topladıqları pulu satıcıya verib qızın anası üçün dərman aldı. O bilirdi ki, bütün yoldaşları futbol oynamaq həvəsi ilə onu gözləyir, lakin mərhəmət hissi hər şeydən üstün idi.

**Danışma**

**Dərslik, səh. 11**

> **5. Müzakirə.** Adilin futbol topu üçün yığılmış pulu başqa məqsədlə xərcləməyə haqqı var idimi?

Müəllim yönəldici suallar vasitəsilə şagirdləri tapşırıqda qoyulmuş sual ətrafında müzakirəyə istiqamətləndirə bilər. Müzakirə zamanı mövzu ilə bağlı zidd fikirlərin səslənəcəyi mümkündür. Bəzi şagirdlər Adili haqlı saydıqları halda, digərləri onun davranışını yoldaşlarına qarşı haqsızlıq kimi qiymətləndirə bilərlər. Bundan sonra eyni fikirdə olan şagirdlər bir qrupda toplaşırlar. Onlara fikirlərini əsaslandırmaq üçün hazırlaşmağa vaxt verilir. Qrup nümayəndələri növbə ilə fikirlərini izah edir, əsaslandırırlar. Bu tapşırıq debat aparmaq, müzakirə etmək, fikir söyləmək, fikrini əsaslandırmaq kimi önəmli bacarıqların inkişafına yönəlib.

**Dərslik, səh. 11**

> **6.** Sizcə, bu mətni bitmiş hesab etmək olarmı? Mətni təxəyyülünüzə uyğun davam etdirin.

Tapşırıq şagirdlərin təxminetmə bacarığının inkişafına yönəlib. Şagirdlər təxminən belə cavab verə bilərlər:

– Mətni bitmiş hesab etmək olmaz. Çünki oxucunu maraqlandıran bir sıra suallar var.

Müəllim şagirdlərdən soruşur:

– Sizi hansı sualların cavabı maraqlandırır?

Şagirdlər təxminən bu sualları səsləndirə bilərlər:

– Futbol topunu almayan Adili yoldaşları necə qarşılayacaq?

– Yoldaşları Adilə haqq verəcəklərmi?

– Onun davranışından kimsə narazı qalacaqmı?

Şagirdlər yönəldici sualların köməyi ilə mətni davam etdirirlər.

**Yazı**

**Dərslik, səh. 11**

> **7.** Adilə məktub yazın. Onun hərəkətlərinə münasibət bildirin.

Şagirdlər aşağı siniflərdən əməli yazı nümunələrindən biri olan məktubla tanış olublar. Müəllim şagirdlərə məktubların məzmun və formaca bir-birindən fərqləndiyini, məktubun strukturunu (salamlaşma, tanışlıq, sağollaşma) xatırladır.

**İş dəftəri, səh. 4**

> **1.** "Futbol topu" mətni ilə bağlı rəy yaz.

Şagirdlər oxuduqları mətnə rəy yazmaqla oxuyub-qavrama və yazı bacarıqlarını inkişaf etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 1 (D.) |
| Əsərdəki obrazları müəyyənləşdirir. | Tap. 2 (D.) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tap. 3 (D.) |

| | |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tap. 4 (D.) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 5 (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. 6 (D.) |
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (rəy) yazır. | Tap. 7 (D.), tap. 1 (İ.D.) |

# 3-cü DƏRS
# Sözlərdə bəzi saitlərin tələffüzü və yazılışı

**Təlim nəticələri:**

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).
• Sözlərdə saitləri düzgün tələffüz edir (st. 2.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 12**

**1.** Sözlərdə nöqtələrin yerinə uyğun gələn hərfləri müəyyən edin.

Şagirdlərin diqqəti yazılışı və tələffüzü fərqlənən sözlərə cəlb olunur. Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Məlumdur ki, orfoqrafiya səhvlərinə daha çox deyilişi və yazılışı fərqlənən sözlərdə rast gəlinir. Buna görə də orfoqrafik normaların tədrisində tətbiq olunan prinsip belədir: "Bu söz bəzən belə tələffüz olunsa da, onun düzgün yazılışı belədir".

**Dərslik, səh. 12**

**2.** Nöqtələrin yerinə uyğun hərfləri yazmaqla sözləri köçürün.

Şagirdlər sözlərin düzgün yazılışını təxmin edirlər. Daha sonra lüğət vasitəsilə dəqiqləşdirirlər.

**Cavab:** üfüq, müxbir, müdir;
nəqərat, həşərat, həyəcan;
münbit, ülvi, mühit.

**Dərslik, səh. 12**

**3.** Hansı cümlədəki fərqləndirilmiş söz düzgün yazılmışdır?

Motivasiya xarakterli bu tapşırıqda "rəsm" sözü ikinci cümlədə düzgün yazılmışdır.

**"Bunları bilməliyik!" rubrikası.** Şagirdlərin diqqəti sonunda iki samit yanaşı gələn sözlərə yönəldilir: *əsr, üzr, xeyr* və sairə. Belə sözlərin yazılışı və deyilişi arasındakı fərq izah edilir.

**Dərslik, səh. 12**

**4.** Fərqləndirilmiş sözlərin mənasını və düzgün yazılışını müəyyən edərək cümlələri köçürün.

Şagirdlər cümlələrdə fərqləndirilmiş sözlərin düzgün yazılışını təxmin edir, daha sonra lüğətin köməyi ilə dəqiqləşdirirlər.

**Cavab:** 1. üzv; 2. mətn; 3. dövr.

**Dərslik, səh. 12**

**5.** Sözün izahını oxuyun. Hansı cümlədə fərqləndirilmiş söz düzgün yazılmışdır?

Şagirdlər əvvəlcə lüğətdən istifadə etməklə oxşar səslənən, lakin mənasına görə fərqlənən sözləri izah edirlər:

**əmr** – bir işin görülməsi üçün verilən hökm, göstəriş; **əmir** – orta əsrlərdə hökmdar və sərkərdələrə verilən ad.

Daha sonra fərqləndirilmiş sözün düzgün yazıldığı cümləni seçirlər:

**Cavab:** A

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 5**

**1.** Hər sırada sözlərdən biri səhv yazılıb. Həmin sözü dairəyə al və uyğun sətrin qarşısında düzgün yaz.

**Cavab: I sıra:** müasir; **II sıra:** həyəcan; **III sıra:** ülvi.

**İş dəftəri, səh. 5**

**2.** Səhv yazılmış sözü seç və düzgün yaz.

**Cavab:** mühit, zəfəran, həşərat, günah.

İş dəftəri, səh. 5

**3.** Sözlərin izahlarını oxu. Hansı cümlədə fərqləndirilmiş söz düzgün yazılmışdır?

**Cavab:** B

İş dəftəri, səh. 5

**4.** Cümlələrdə səhv yazılmış sözü tap, altından xətt çək və cədvəldə düzgün yaz.

**Cavab:** 1. üzr; 2. həsr etmək; 3. xeyr, xeyr; 4. sehrli.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |
| Sözlərdə saitləri düzgün tələffüz edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 2-ci fəsil
# XEYİRXAHLIQ

## 1-ci DƏRS
## Tənha Qu quşu

**Təlim nəticələri:**

• Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 3.1.1).
• Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 3.1.3).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
• Bədii və informativ mətnlərdə "mövzu", "məzmun" və "ideya" anlayışlarını fərqləndirir (st. 3.1.2).
• Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir (st. 3.1.2).
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Oxuduğu mətnin qısa məzmununu yazır (st. 4.1.3).
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat) yazır (st. 4.1.3).

**Danışma**

Dərslik, səh. 13

**1.** Dostunuz varmı? Hansı xüsusiyyətlərinə görə onunla dostluq edirsiniz?

Müəllim tapşırıqda təqdim edilmiş sual vasitəsilə şagirdlərin diqqətini mövzuya yönəldir.

**Oxu**

**Mətnlə iş. Rollu oxu.** Şagirdlər onlara verilmiş vaxt ərzində mətni səssiz oxuyurlar. Tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim yeni sözlərin mənasını izah etdikdən sonra mətn yenidən oxunur. Şagirdlər obrazların nitqinə diqqət edir, keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı jest və mimikalardan düzgün istifadə edilməsinə, obrazların nitqinin onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirilməsinə diqqət edir.

**Söz ehtiyatı**

Dərslik, səh. 13. "Söz mücrüsü" rubrikası

**Söz mücrüsü**

qamışlıq • valeh olmaq • bəmbəyaz • saymazyana • qəlbinə toxunmaq • acıdil • cəhd etmək • lovğa

Müəllim “Söz mücrüsü”ndə verilmiş sözlərin mənasını şagirdlərdən soruşur. Şagirdlər yeni sözlərin mənasını izah edib cümlələrdə işlədirlər. Bununla onlar yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 14**

**2.** Fərqləndirilmiş sözləri “Söz mücrüsü”ndən uyğun gələn sözlərlə əvəz edin.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər “Söz mücrüsü”ndən uyğun nümunələr seçərək cümlələrdəki fərqləndirilmiş söz və ifadələri əvəz edirlər. Bununla da yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Cavab:** ürəyini sındırmışdı – qəlbinə toxunmuşdu; ağappaq – bəmbəyaz; özündənrazı – lovğa; çalışırdı – cəhd edirdi; heyran olmuşdum – valeh olmuşdum.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 14**

**3.** “Tənha Qu quşu” mətnini plan əsasında nəql edin.

Şagirdlər tapşırıqda verilmiş plan əsasında “Tənha Qu quşu” mətninin qısa məzmununu danışırlar.

**Dərslik, səh. 15**

**4.** Verilmiş xüsusiyyətlərin hansı obraza aid olduğunu müəyyənləşdirin. Mətndən uyğun epizodları danışmaqla fikrinizi əsaslandırın.

İlk növbədə müəllim şagirdlərə tapşırıqda verilmiş sözlərin mənasını izah edir. Şagirdlər həmin xüsusiyyətlərin hansı obraza aid olduğunu müəyyənləşdirir və mətndən uyğun epizodları danışmaqla fikirlərini əsaslandırırlar.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

*Qazlar mehriban, istiqanlı və şirindil idilər. Onlar Qu quşu ilə dostlaşmaq istəyir, ona heyranlıqlarını bildirirdilər. Qazlar həm də qayğıkeş idilər. Qu quşu donanda ona biganə qalmadılar. Aralarına alıb onu nəfəsləri ilə isitdilər. Qu quşu isə lovğa, acıdil və kobud idi. Qazlar ona xoş sözlər deyəndə özünü eşitməzliyə vurur, saymazyana onlardan uzaqlaşır. Qazlara “Sizin qanadlarınız çirklidir”,* – deyə kobud cavab verir.

**Dərslik, səh. 15**

**5.** “Qu quşu özünü eşitməzliyə vurdu. Sonra saymazyana oradan uzaqlaşdı” cümlələri baş qəhrəmanın hansı xarakterindən xəbər verir?

Şagirdlər tapşırıqda verilmiş illüstrasiyaya və mətnin məzmununa istinad etməklə sualı cavablandırırlar.

**Cavab:** Bu epizodda Qu quşunun lovğalığı əks etdirilir.

**Dərslik, səh. 15**

**6.** “Tənha Qu quşu” mətninə əsasən cədvəli tamamlayın.

Müəllim lövhədə “mövzu”, “məzmun” və “ideya” sözlərini yazır. Aşağıdakı köməkçi suallar vasitəsilə şagirdlər istiqamətləndirilir:

1. Mətn nə haqqındadır?
2. Mətndə hansı hadisələr baş verir?
3. Mətn oxucuya hansı fikri çatdırır?

**Yazı**

**Dərslik, səh. 15**

**7.** Qu quşuna hansı məsləhətləri verərdiniz? Məktub yazın və münasibətinizi bildirin.

Şagirdlər Qu quşu obrazına məktub yazaraq onun davranışlarına münasibət bildirirlər. Ona səhvini izah edir, bir daha təkrar etməmək üçün məsləhətlər verir, düzgün yol göstərirlər.

**İş dəftəri, səh. 6**

**1.** Yarımbaşlıqlara əsasən “Tənha Qu quşu” mətninin qısa məzmununu yaz.

Şagirdlər verilmiş plana uyğun “Tənha Qu quşu” mətninin məzmununu yazırlar. Bununla da mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|

| | |
|---|---|
| Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur. | "Tənha Qu quşu" mətni |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. 2 (D.) |
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Oxuduğu mətni plan əsasında nəql edir. | Tap. 3 (D.) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. 1 (İ.D.) |
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tap. 4, 5 (D.) |
| Bədii və informativ mətnlərdə "mövzu", "məzmun" və "ideya" anlayışlarını fərqləndirir. | Tap. 6 (D.) |
| Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (məktub) yazır. | Tap. 7 (D.) |

# 2-ci DƏRS
# Aslan və Ağcaqanad

## Təlim nəticələri:

• Fikrini əsaslandırmaqla münasibət bildirir (st. 2.1.2).
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**

Müəllim yönəldici suallarla şagirdlərə aşağı siniflərdə keçdikləri "Əqrəb və Qurbağa" təmsilini xatırladır.

*(Əqrəb çayı keçmək istəyirdi. Ancaq üzə bilmirdi. Buna görə Qurbağadan xahiş etdi:*

*– Qurbağa qardaş, kömək elə, çayı keçim.*

*Qurbağa Əqrəbi belinə mindirib çayın o biri tərəfinə üzməyə başladı. Çayın ortasına çatanda Əqrəb dilləndi:*

*– Qurbağa qardaş, mən gərək səni sancım.*

*Qurbağa başladı yalvarmağa:*

*– Ay Əqrəb, axı mən sənə kömək elədim. Məgər yaxşılığın əvəzini belə çıxarlar?*

*Əqrəb cavabında dedi:*

*– Bağışla, Qurbağa qardaş. Ancaq bu mənim adətimdir. Kimin ki boynuna mindim, gərək onu sancım.*

*Qurbağa nə qədər yalvardısa, xeyri olmadı. Axırda dedi:*

*– Mənim də bir adətim var. Hərdən suyun altı ilə də üzürəm.*

*Bunu deyib qurbağa suya baş vurdu. Əqrəb üzə bilməyib çayda boğuldu.)*

**Yönəldici suallar:**

1. Əqrəb nə üçün çayı keçə bilmirdi?
2. Əqrəb Qurbağadan nə xahiş etdi?
3. Qurbağa Əqrəbə necə kömək etdi?
4. Əqrəb Qurbağanı sancmaq istəməsinin səbəbini necə izah etdi?
5. Qurbağa Əqrəbə necə cavab verdi?
6. Sizcə, müəllif obraz kimi nə üçün məhz Əqrəb və Qurbağanı seçib?

**Şagirdlərin sonuncu suala cavabı təxminən belə ola bilər:**

*Əqrəb quyruğunun ucunda zəhərli iynəsi olan həşəratdır. Əqrəbin sancmaq xüsusiyyəti var. Əqrəb üzə bilmir. Qurbağa isə suda və quruda yaşayan heyvandır. Yazıçı Əqrəbin sancmaq xüsusiyyətinə əsaslanaraq onun timsalında acıdil, pislik etməyi adət halına gətirmiş obraz yaradıb.*

**Oxuyub-qavrama**

**Dərslik, səh. 15**

**1.** Sizcə, "Tənha Qu quşu" təmsilində özündənrazı, lovğa obrazı yaratmaq üçün niyə məhz Qu quşu seçilib? Əgər aşağıdakı mövzularda mətn yazsaydınız, hansı obrazları baş qəhrəman seçərdiniz?
Oxuduğunuz mətnlərdən nümunələr söyləməklə fikrinizi əsaslandırın.
1. hiyləgərlik; 2. kobudluq; 3. tənbəllik.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

*Qu quşları çox gözəl quşlardır. Onların suyun üzündə duruşu, boyunlarını dartıb üzmələri sanki özündənrazı, lovğa birisi təsəvvürü yaradır.*

*Hiyləgərlik mövzusunda təmsillərdə, əsasən, əsas obraz tülkü seçilir. Kobudluq mövzusunda yazılmış təmsillərdə ayı, tənbəllik mövzusunda isə cırcırama, milçək və sairə heyvanlar əsas obraz kimi seçilə bilər.*

**Yazı**

**Dərslik, səh. 16**

**2.** Cədvəldəki məlumatlardan və şəkillərdən istifadə edərək "Lovğa Aslan" adlı mətn qurub yazın.

Tapşırığın yerinə yetirilməsi üçün şagirdlərə xeyli material təqdim olunmuşdur: şəkillər, plan, əsərin mövzusu, ideyası, hekayə qəhrəmanlarının özəl xüsusiyyətləri. Bütün bunlar şagirdlərə təmsil janrının tələblərinə uyğun kiçik mətn qurmağa imkan verir.

**Dinləmə**

**Dərslik, səh. 16**

**3.** Müəllimin oxuduğu "Aslan və Ağcaqanad" mətnini dinləyin. Yazdığınız mətnlə müqayisə edin.
1. Hansı epizodlar oxşardır?
2. Hansı epizodlar fərqlidir?
3. Hansı obrazlar iştirak edir?
4. Mətnin müəllifi oxucuya hansı fikri çatdırmaq istəyir?

***Aslan və Ağcaqanad***

*Bir gün Aslan Ağcaqanadın vızıltısını eşidib güldü:*

*– Əcəb "güclü" səsin var. Bütün günü vızıldayırsan.*

*Aslan fəxrlə: "Bax səs belə olar", – deyib bərkdən nərildədi, pəncələri üstə qalxıb lovğalandı:*

*– Əlbəttə, bapbalaca, cılız bədənin olanda ancaq vızıldaya bilərsən. – O, güclü pəncələrini göstərib: "Mən pəncələrimi yellədəndə daha bərk səs çıxır", – deyə özünü öymәyə başladı.*

*Aslanın lovğalığı və kobud sözləri Ağcaqanadın qəlbinə dəysə də, özünü sındırmadı. Aslana dedi:*

*– Belə hünərlisənsə, gəl vuruşaq. Görək kim güclüdür?*

*Ağcaqanadın sözlərini eşidən Aslan qəhqəhə çəkib güldü. Aslanın onu bu qədər zəif görməsi Ağcaqanadı hirsləndirdi. Var gücünü toplayıb Aslana hücum etdi. İynəsini batırıb onun ağzını, qulağını, burnunu sancdı. Ağcaqanadın hər iynəsi Aslana ox kimi batırdı. Aslan nə qədər çalışdı ki, Ağcaqanadı pəncəsi ilə vursun, ancaq heç nə alınmadı. Ağcaqanad gah bu qulağının, gah o biri qulağının yanında vızıldayır, sürətlə yerini dəyişirdi. Aslan ağrıdan elə nərildədi ki, səsi bütün meşəni titrətdi. Aslan çox dartındı, çırpındı, nəhayət, haldan düşüb yerə uzandı. Bayaqdan gücü ilə qürrələnən Aslan indi aman istəyirdi:*

*– Bağışla, bağışla məni!*

Şagirdlər mətni dinləyir və tapşırıqda təqdim edilmiş sualları cavablandırmaqla təxəyyüllərinə uyğun düşündükləri mətnlə müəllimin oxuduğu dinləmə mətninin məzmununu müqayisə edirlər.

**Dərslik, səh. 16**

**4.** Sizcə, müəllif hansı xüsusiyyətinə görə məhz ağcaqanad və aslanı baş qəhrəman seçib? Aslan və ağcaqanad haqqında bilgilərinizə və mətnə əsasən fikrinizi əsaslandırın.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

*Təmsilin əsas ideyası budur ki, heç kimi zəif və gücsüz hesab etmək olmaz. Bəzən zəif insanlar düşmənlərindən güclü qisas ala bilirlər.*

*Müəllif əsas fikri çatdırmaq üçün ağcaqanadı zəif, aslanı da güclü heyvan olduğu üçün seçib.*

**İş dəftəri, səh. 7**

**1.** "Aslan və Ağcaqanad" mətninə əsasən obrazların nitqini öz sözlərinlə yaz.

Şagirdlər obrazların nitqinə aid nümunələr yazmaqla dinlədikləri mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**Cavablar təxminən belə ola bilər:**

*Aslan Ağcaqanadın vızıltısını eşidib güldü:*

*– Əcəb "güclü" səsin var. Bütün günü vızıldayırsan.*

*Aslan pəncələrini havada yelləyib lovğalandı:*

*– Mən pəncələrimi yellədəndə daha bərk səs çıxır.*

*Ağcaqanad Aslanı döyüşə çağırdı:*

*– Belə hünərlisənsə, gəl vuruşaq. Görək kim güclüdür?*

*Aslan Ağcaqanaddan aman istədi:*

*– Bağışla, bağışla məni!*

**İş dəftəri, səh. 7**

**2.** Fikirlərin hansı mətnə aid olduğunu müəyyən et.

Şagirdlər tapşırıqda verilmiş fikirlərin "Tənha Qu quşu", yoxsa "Aslan və Ağcaqanad" mətninə aid olduğunu müəyyənləşdirirlər.

**Cavab:** 1, 3 – "Tənha Qu quşu"
2, 4 – "Aslan və Ağcaqanad"

5, 6 – hər ikisi

**İş dəftəri, səh. 7**

**3.** Kriptoqramı həll et. Oxuduğun və dinlədiyin mətnlərin əsas ideyasına uyğun aforizmi oxu.

Şagirdlər kriptoqramı həll edərək mətnin ideyasını əks etdirən aforizmi oxuyurlar. Mətnin məzmunu ilə əlaqələndirib əsas fikri müzakirə edirlər.

**Cavab:** Birinci addımda lovğalananlar ikinci addımda yıxılacaqlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrini əsaslandırmaqla münasibət bildirir. | Tap. 1, 4 (D.) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tap. 2 (D.) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2 (İ.D.) |

# 3-cü DƏRS
# Sözlərdə bəzi samitlərin tələffüzü və yazılışı

**Təlim nəticələri:**

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).
• Sözlərdə samitləri düzgün tələffüz edir (st. 2.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 17**

**1.** Sözlərdə nöqtələrin yerinə uyğun gələn hərfləri müəyyən edin.

Şagirdlər aşağı siniflərdə qazandıqları biliklərdən istifadə etməklə sözlərdə nöqtələrin yerinə uyğun hərf yazırlar. Müəllim dilimizdə yazılışı diqqət tələb edən başqa sözlərin də olduğunu qeyd edib şagirdlərin diqqətini “Bunları bilməliyik!” rubrikasına yönəldir.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları izah edir. Bəzi sözlərin ***y***, bəzilərinin isə qoşa ***yy*** ilə yazıldığını nümunələrlə izah edir.

**Dərslik, səh. 17**

**2.** Cümlələrdə fərqləndirilmiş sözlərin bəziləri səhv yazılmışdır. Onların düzgün yazılışını lüğət vasitəsilə dəqiqləşdirin və cümlələri köçürün.

Şagirdlər fərqləndirilmiş sözlərdəki səhvləri lüğətin köməyi ilə müəyyənləşdirirlər və həmin sözləri düzgün şəkildə yazaraq cümlələri köçürürlər.

**Cavab:** 1. hekayə; 3. şirniyyat; 4. xeyriyyə; ehtiyac.

**“Bunları bilməliyik!” rubrikası.** Bəzi sözlərin yazılışı orfoqrafik cəhətdən diqqət tələb edir. Belə sözlərdən bir qismi də söz ortasında əksər hallarda [m] kimi tələffüz olunan [n] samitinin yazılışıdır. Bu dərsdə şagirdlər belə sözlərlə tanış olacaq, dərslik və iş dəftərindəki tapşırıqları yerinə yetirməklə orfoqrafik cəhətdən düzgün yazı vərdişlərini inkişaf etdirəcəklər.

**Dərslik, səh. 17**

**3.** Nöqtələrin yerinə uyğun hərfi yazmaqla cümlələri köçürün.

Tapşırığın yerinə yetirilməsi zamanı lüğətdən istifadə olunması vacibdir. Bu, şagirdlərin lüğətlə işləmək, həmçinin düzgün yazı vərdişlərinin inkişafına kömək edir.

**Cavab:** 1. tənbəl; 2. olimpiya; 3. zanbaq; 4. pambıq; 5. lampa.

**Dərslik, səh. 17**

**4.** Nöqtələrin yerinə uyğun hərfi yazaraq sözləri köçürün. Lüğət vasitəsilə yoxlayın.

**Cavab:** tərbiyə, kəşfiyyat, şəxsiyyət, çərşənbə, sünbül, ambulans.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin bəzi samitlərin yazılışı haqqında aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 8**

**1.** Hər sırada sözlərdən biri səhv yazılıb. Həmin sözü dairəyə al və uyğun sətrin qarşısında düzgün yaz.

**Cavab:** 1. hədiyyə; 2. şirniyyat; 3. tənbəl.

**İş dəftəri, səh. 8**

**2.** Sözləri cədvəl üzrə qruplaşdır.

**Cavab: "y" ilə yazılır:** ehtiyac, ehtiyat, saniyə, tövsiyə; **"yy" ilə yazılır:** ünsiyyət, təyyarə, xeyriyyə, cəmiyyət.

**İş dəftəri, səh. 8**

**3.** Verilmiş izahlara uyğun varlıq adlarını yaz.

Tapşırıq şagirdlərin söz ehtiyatının artırılmasına, həmçinin düzgün yazı vərdişlərinin inkişafına kömək edir.

**Cavab:** 1. anbar; 2. ambulans; 3. lampa; 4. tramvay.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |
| Sözlərdə samitləri düzgün tələffüz edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 3-cü fəsil
# ÜNSİYYƏT

## 1-ci DƏRS
## Görünməz Tonino

**Təlim nəticələri:**

- Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).
- Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 3.1.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
- Mətndəki hadisə və faktlar arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 18**

**1.** Bir anlıq təsəvvür edin ki, görünməz olmuşsunuz: siz hamını görürsünüz, ancaq heç kim sizi görmür və eşitmir. Bunun hansı müsbət və mənfi tərəfləri ola bilər?

Müəllim tapşırıqda təqdim edilmiş istiqamətləndirici sualla şagirdləri danışmağa yönəldir:

– Görünməz olmaq istərdinizmi? Nə üçün?

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** Şagirdlər mətni səssiz oxuyaraq əvvəlcə onun məzmunu ilə tanış olurlar. Daha sonra müvafiq jest və mimikalardan istifadə etməklə rollu oxuyurlar. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Dərslik, səh. 19. "Söz mücrüsü" rubrikası**



**Söz mücrüsü.** Müəllim şagirdlərin oxu prosesində rast gəldikləri tanış olmayan və "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 19**

**2.** Nöqtələrin yerinə uyğun sözləri artırmaqla cümlələri tamamlayın.

Tapşırıq şagirdlərin öyrəndikləri yeni sözlərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər uyğun sözləri seçməklə cümlələri tamamlayırlar.

**Cavab:** 1. Mehdi pəncərədən həyatdakı meydançaya tərəf **boylandı**.

2. Nənəm eynəyini taxıb bugünkü qəzetlərə **göz gəzdirdi**.

**Dərslik, səh. 20**

**3.** Mətndə hansı suala cavab yoxdur?

**"Nə anladın?"** rubrikasında verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Cavab:** B

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, şagirdlər tapşırıqda verilmiş digər sualları da cavablandırsınlar. Bununla şagirdlər mətnin məzmununu nə qədər qavradıqlarını nümayiş etdirərlər.

**Dərslik, səh. 20**

**4.** Mətnə əsasən cümlələri tamamlayın.

Şagirdlər cümlələri tamamlamaqla həm mətnin məzmununu qavradıqlarını nümayiş etdirir, həm də hadisələrin səbəbini müəyyənləşdirməklə analiz etmə bacarıqlarını inkişaf etdirirlər.

**Cavab:**

1. Tonino görünməz olmaq istəyirdi, çünki dərsə hazırlıqsız gəlmişdi.

2. Tonino sevincindən atılıb-düşürdü, çünki, doğrudan da, görünməz olmuşdu. Tam sərbəst idi, istədiyini edə bilirdi.

3. Tonino ağlamağa başladı, çünki daha görünməz olmaq istəmirdi. İstəyirdi ki, valideynləri onu görsün, yoldaşları ilə oynasın, müəllim ondan dərs soruşsun... .

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin oxuyub-qavrama bacarıqlarını yoxlamağa imkan yaradır.

**İş dəftəri, səh. 9**

**1.** "Görünməz Tonino" mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

**Cavab:** 1. yanlış; 2. doğru; 3. yanlış; 4. yanlış; 5. doğru.

**İş dəftəri, səh. 9**

**2.** Mətndəki hadisələr bu məkanda baş vermir.

**Cavab:** Ç

**İş dəftəri, səh. 9**

**3.** Hansı hərəkət Toninoya aid deyil?

**Cavab:** Ç

**İş dəftəri, səh. 9**

**4.** Mətnin şəklə aid hissəsini öz sözlərinlə yaz.

*Tonino yaxındakı mağazaya girdi. Soyuducudan bir dondurma götürüb satıcıya yaxınlaşdı. Pulu ona uzadıb dedi:*

*– Zəhmət olmasa, dondurmanın pulunu çıxın.*

*Satıcı ona fikir vermirdi, öz işində idi. Tonino özünü itirdi. Nə edəcəyini bilmirdi. Öz-özünə düşündü: "Dondurmanı götürüb pulunu ödəmədən gedim? Yox, yaxşı deyil. Axı bu, oğurluq sayılır. Nə olsun ki, məni heç kim görmür". O, dondurmanı yerinə qoyub mağazadan çıxdı.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 1 (D.) |
| Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur. | "Görünməz Tonino" mətni |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 1, 2, 3 (İ.D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 4 (D.) |
| Verilmiş şəklə uyğun kiçik mətn yazır. | Tap. 4 (İ.D.) |

# 2-ci DƏRS
# Görünməz Tonino

**Təlim nəticələri:**

• Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir (st. 3.1.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).
• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə**

Müəllim yönəldici suallar vasitəsilə "Görünməz Tonino" mətninin məzmununu xatırladır.

1. Tonino kimdir?
2. O nə üçün görünməz olmaq istəyirdi?
3. Görünməz olduğunu bilən Tonino necə davranırdı?
4. Tonino görünməz olduğuna nə üçün peşman olmuşdu?

**Dərslik, səh. 20**

**1.** Toninonun başına gələn hadisələri onun öz dilindən nəql edin. Aşağıdakı plandan istifadə edin.

Şagirdlər tapşırıqda təqdim edilmiş plan əsasında "Görünməz Tonino" mətninin qısa məzmununu danışırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər mətni nəql edərkən yeni sözlərdən istifadə etmələri diqqətdə saxlanılmalıdır.

**Dərslik, səh. 20**

**2.** Mətnin hansı epizodlarında Toninonun aşağıdakı xüsusiyyətləri əks olunur? Uyğun epizodları danışmaqla fikrinizi əsaslandırın.

Şagirdlər Toninoya aid xüsusiyyətləri mətndəki müvafiq epizodları seçərək əsaslandırmalıdırlar.

**Cavab:** ***Nadinc*** – O, sinifdə gəzib qızlardan birinin saçını dartdı, başqa birinin qələmini yerə atdı. Tonino o ki var dəcəllik etdi. ***Dürüst*** – Dondurma almaq istəyəndə satıcı ona fikir vermirdi. Tonino öz-özünə düşündü: "Dondurmanı götürüb pulunu ödəmədən gedim? Yox, yaxşı deyil. Axı bu, oğurluq sayılır. Nə olsun ki, məni heç kim görmür". O, dondurmanı yerinə qoyub mağazadan çıxdı. ***Şən*** – Tonino zarafat etməyi, əylənməyi sevirdi. Görünməz olduğunu biləndə də çox əylənəcəyini düşünürdü.

**Dərslik, səh. 20**

**3.** Mətnin əsas ideyası ilə tanış olun. Mətndəki qocanın nitqinə aid cümlələri oxuyun. Qocanın fikirlərini mətnin əsas ideyası İlə əlaqələndirin. Sizcə, qoca bu sözlərlə nə demək istəyir?

Mətnin əsas ideyası belədir: "Başqaları tərəfindən eşidilmək və duyulmaq hamı üçün vacibdir. Qocanın nitqindən isə anlaşılır ki, heç kim ona fikir vermir. Sanki insanlar üçün görünməz adam kimidir... Bu isə qocanı incidir və o özünü tənha hiss edir. Hamının ünsiyyətə, diqqətə ehtiyacı var".

**İş dəftəri, səh. 10**

**1.** Cümlələri mətnin məzmununa uyğun ardıcıllıqla köçür.

Şagirdlər tapşırıqda təqdim edilmiş cümləl𝑒ri ardıcıl yazmaqla oxuyub-qavrama və yazı bacarıqlarını inkişaf etdirirlər.

**Cavab:**

1. Tonino görünməz olduğu üçün çox sevinirdi.
2. Pulunu ödəyə bilmədiyi üçün dondurma ala bilmədi.
3. Düşdüyü vəziyyətdən narahat olan Tonino ağlamağa başladı.
4. Həyətdəki skamyada əyləşən qoca onu gördüyünü söylədi.
5. Tonino sevincək qocaya təşəkkür etdi.

**İş dəftəri, səh. 10**

**2.** Toninonun mətnin əvvəlində və sonundakı arzularını, düşüncələrini, hisslərini müqayisə et.

**Cavab:** ***Əvvəl***: Görünməz olmaq istəyirdi. Görünməz olan Tonino çox sevinirdi. Nadinclik edir, əylənirdi. ***Sonra***: Ətrafdakı insanlar, doğmaları, yoldaşları onu görməyəndə, ona diqqət yetirməyəndə özünü itirdi, narahat oldu, kədərləndi. Görünməz olmaq onun düşündüyü qədər əyləncəli deyildi. İndi istəyirdi ki, onu görsünlər, onunla söhbət etsinlər.

**İş dəftəri, səh. 10**

**3.** Səncə, görünməz olmanın hansı müsbət və mənfi tərəfləri var? Fikirlərini cədvəlin uyğun bölməsində qeyd et.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**
**Müsbət cəhəti:** əylənmək.
**Mənfi cəhəti:** ünsiyyət qura bilməmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir. | Tap. 1 (D.) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tap. 2 (D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 3 (D.), tap. 2, 3 (İ.D.) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 1 (İ.D.) |

# 3-cü DƏRS
## Alınma sözlərdə bəzi samitlərin tələffüzü və yazılışı

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).
- Alınma sözləri orfoepik normalara uyğun tələffüz edir (st. 2.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 21**

**1.** Verilmiş sözlərin düzgün yazılışını müəyyən edin. Lüğət vasitəsilə yoxlayın.

Şagirdlər aşağı siniflərdə qazandıqları biliklərdən istifadə etməklə sözlərin düzgün yazılışını müəyyənləşdirirlər. Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərə rus və müxtəlif Avropa dillərindən alınmış sözlər və onların yazılışı haqqında məlumat verir.

**Dərslik, səh. 21**

**2.** Uyğun hərfi əlavə edib sözləri köçürün. Lüğət vasitəsilə dəqiqləşdirin.

Tapşırığın yerinə yetirilməsi zamanı lüğətdən istifadə olunması vacibdir. Bu, şagirdlərin lüğətlə işləmək, həmçinin düzgün yazı vərdişlərinin inkişafına kömək edir.

**Cavab:** effekt, aqressiya, simmetriya, kaset, herbari, Çukovski.

**Dərslik, səh. 21**

**3.** Lüğət vasitəsilə sözlərin düzgün yazılışını müəyyən edin: "a" ilə, yoxsa "a"sız?

**Cavab:** anket, forma, kayut, struktur, klaviatura, atmosfer, angina, lent, sfera.

**Dərslik, səh. 21**

**4.** Cədvəldəki nümunələrə əsasən verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.

**Cavab:** kompüter, alüminium, konqres, ekspres, diaqram, fonoqram, hokkey, hot-doq, hospital, hektar.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin bəzi sait və samitlərin yazılışı haqqında aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 11**

**1.** Sözlərin düzgün yazılışını müəyyən et və cədvəl üzrə qruplaşdır.

**Sonu "a" ilə yazlan sözlər:** forma, kometa, sfera, xarizma; **"a"-sız yazılan sözlər:** anket, anten, lent, kayut, aptek, vitrin

**İş dəftəri, səh. 11**

**2.** Hər sırada sözlərdən biri səhv yazılıb. Həmin sözü dairəyə al və uyğun sətrin qarşısında düzgün yaz.

**Cavab:** himn, büro, stres.

**İş dəftəri, səh. 11**

**3.** Cümlələrdə səhv yazılmış sözü tap, altından xətt çək və düzgün yaz.

**Cavab:** 1. hokkey; 2. hospital; 3. kompüter; 4. kaset; 5. herbari.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin tələffüzündə və yazılışında orfoepik və orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 1-ci bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

- Sözləri tələffüz edərkən orfoepik normalara riayət edir (st. 2.1.1).
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 22**

**1.** Hər sırada yanlış yazılmış sözü müəyyən edin.

**Cavab:** 1. B – müdir;
2. C – sünbül;
3. C – hədiyyə;
4. B – üzr.

**Dərslik, səh. 22**

**2.** Sözün izahını oxuyun. Hansı cümlədə fərqləndirilmiş söz düzgün yazılmışdır?

**Cavab:** A

**Dərslik, səh. 22**

**3.** Nöqtələrin yerinə uyğun hərfi yazmaqla cümlələri köçürün.

**Cavab:** 1. tramvay; 2. zanbaq; 3. anbar; 4. şənbə; 5. tənbəl.

**Dərslik, səh. 22**

**4.** Nöqtələrin yerinə uyğun hərfi yazmaqla cümləni köçürün.

**Cavab:** aparat, şose, akkord, stres, hospital, himn, hobbi, ssenari.

**Dərslik, səh. 22**

**5.** Lüğətin köməyi ilə hər sütunda yanlış yazılmış sözü müəyyən edin.

**Cavab:**
**I sütun:** fonoqramma
**II sütun:** alyuminium
**III sütun:** struktura
**IV sütun:** ekspress
**Təqdim edilmiş sözlərin düzgün yazılışı:**
fonoqram, alüminium, struktur, ekspres.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə təqdim edilmiş tapşırıqlar. |
| Sözlərin tələffüzündə orfoepik normalara riayət edir. | Dərslikdə təqdim edilmiş tapşırıqlar. |

# 1-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 12-13-cü səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2, 3 |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tap. 4 |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tap. 5, 6, 7, 8 |

Bölmə **2** 

# Yüz min “niyə?”

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Niyə mütaliə etməliyik?** | | | | | |
| 1 | Mütaliənin faydaları | Oxu | 24-26 | 14 | 23-25 |
| 2 | Annotasiya | Danışma<br>Yazı (annotasiya) | 27 | 15 | 25-26 |
| 3 | Sözün tərkibi: kök və şəkilçi | Yazı (dil qaydaları) | 28 | 16 | 26-27 |
| 2-ci fəsil. **İlanlar haqqında bilmədiklərimiz** | | | | | |
| 4 | İlanlar niyə rəqs edir? | Oxu | 29-31 | 17 | 28-30 |
| 5 | Niyə Ayın paltarı yoxdur? | Danışma<br>Dinləmə | 32 | 18 | 30-33 |
| 6 | Şəkilçilərin növləri. Leksik və qrammatik şəkilçilər | Yazı (dil qaydaları) | 33 | 19 | 33-34 |
| 3-cü fəsil. **Qaranquşlar necə yuva qurur?** | | | | | |
| 7 | Qaranquş və Sərçə | Oxu | 34-35 | 20 | 34-36 |
| 8 | Hazır yuva | Dinləmə | 36 | 21 | 36-39 |
| 9 | Şəkilçilərin yazılışı | Yazı (dil qaydaları) | 37 | 22 | 39-40 |
| 10 | Ümumiləşdirici təkrar | | 38 | 23-24 | 40-41 |

# 1-ci fəsil
# NİYƏ MÜTALİƏ ETMƏLİYİK?

## 1-ci DƏRS
## Mütaliənin faydaları

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
- Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
- Verilmiş fikri arqumentlə əsaslandırır (st. 3.1.2).

**Dərslik, səh. 23**

**1.** Sizi maraqlandıran suallara cavab tapmaq üçün kimə və yaxud nəyə müraciət edirsiniz?
**2.** Sizcə, “niyə?” sualından çox istifadə etmək insanın hansı xarakterindən xəbər verir?
**3.** Aşağıdakı suallar ətrafında fikir mübadiləsi aparın.

Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər əsasında yerinə yetirilir. Müəllim danışmağa həvəsləndirmək üçün yönəldici suallardan istifadə edir.

**Müəllimin nəzərinə!** Bu bölmədə müxtəlif fənlər arasında inteqrasiya aparılır. Şagirdlər şəkillər üzrə danışarkən digər fənlərdən, xüsusilə “Həyat bilgisi” fənnindən aldıqları biliklərə istinad edirlər.

**Dərslik, səh. 24**

**1.** Kitabların üzlüyünə baxın, adlarını oxuyun. Sizcə, bu kitablarda hansı suallara cavab var? Hər mövzu üzrə beş sual tərtib edin və birlikdə müzakirə edin.

Tapşırıqda “Yer kürəsi” və “Robotlar” adlı iki kitabın üzlüyü təqdim edilmişdir. Şagirdlər “Həyat bilgisi”, “İnformatika” fənlərindən aldıqları biliklərə istinad edərək və yaxud oxuduqları mətnlərdən və həyatdan nümunələr gətirməklə tapşırığı yerinə yetirirlər. Kitabların mövzusuna aid suallar tərtib edir, bir-birinin suallarını cavablandırmağa çalışırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər bütün sualları cavablandırmaya bilərlər. Bu zaman beyin həmləsi etmək olar:
“Bu sualları cavablandırmaq üçün nə etmək lazımdır?” Məqsəd şagirdlərin diqqətini mütaliəyə yönəltməkdir. Sualları mükəmməl cavablandırmaq üçün bu mövzuda kitablar mütaliə etmək lazımdır.

**Şagirdlər təxminən aşağıdakı məzmunda suallar tərtib edə bilərlər:**

1. Yer digər planetlərdən nə ilə fərqlənir?
2. Yer öz oxu ətrafında nə qədər vaxt ərzində dövr edir?
3. Yerin neçə faizi qurudan, neçə faizi sudan ibarətdir?
4. Yeri kosmosdan ilk dəfə kim görüb?
5. Yer planeti Günəşə yaxın neçənci planetdir?

1. “Robot” sözünün mənası nədir?
2. Robotların faydası nədir?
3. Robotları nə üçün süni insan adlandırırlar?
4. Robotlar insanlardan nə ilə fərqlənir?
5. Öz robotunuzu yaratsaydınız, ona hansı işi tapşırardınız?

**Söz ehtiyatı**

**Dərslik, səh. 25. “Söz mücrüsü” rubrikası**

Söz mücrüsü

mütaliə • mənbə • zəka
• təxəyyül • dünyagörüşü
• rəvan • həmsöhbət
• hədər • mənəvi • dəyər

**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. “Mütaliənin faydaları” informativ mətn olduğundan qeyd götürməklə oxu üsulundan istifadə etmək tövsiyə olunur.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərin diqqətini mətnin adına yönəldir. Mətni oxuyarkən mütaliənin faydaları haqqında qeyd götürməyi tövsiyə edir. Bu qeydlər oxuyub-qavramaya yönəlmiş tapşırıqları asanlıqla yerinə yetirməyə imkan yaradacaq.

**Söz mücrüsü.** Daha sonra müəllim “Söz mücrüsü”ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 25**


SÜRƏTLİ OXU TESTİ

*Hərdən oxumaq istədiyimiz kitabların siyahısına baxır və düşünürük: "Bunları oxumağa görə nə qədər vaxt lazımdır?!" Bəzən bu səbəbdən oxumaqdan vaz keçirik. Bəs oxuyub anlamanı sürətləndirmək mümkündürmü?*
*Əksər insanlar bir səhifəlik yazını 2 dəqiqəyə oxuyub qavrayırlar. Lakin araşdırmalar göstərir ki, xüsusi məşqlər hesabına oxu sürətini artırmaq olar. Aşağıdakı tapşırığı yerinə yetirməklə siz öz oxu sürətinizi ölçə bilərsiniz.*

**20 saniyə ərzində məlumat vərəqindəki faktlarla tanış olun. Sonra vərəqi çevirin və növbəti səhifədə bu məlumatlarla bağlı verilmiş sualları cavablandırın.**



**Müəllimin nəzərinə!** Sürətli oxu bacarığını inkişaf etdirmək üçün maraqlı bir üsul təklif edilir. Şagirdlər 25-ci səhifədə "Xəzər suitisi" haqqında verilmiş məlumat vərəqi ilə 20 saniyə ərzində tanış olurlar. Daha sonra növbəti səhifədə məlumat vərəqi əsasında tərtib edilmiş sualları cavablandırırlar. Sualları cavablandırarkən məlumat vərəqinə baxmaq olmaz. Bu üsulla oxu sürətini artırmaq olar. Müxtəlif mövzularda bu cür məlumat vərəqləri hazırlamaq mümkündür.

**Dərslik, səh. 26**

**2.** Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələn sözləri əlavə edərək cümlələri tamamlayın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər "Söz mücrüsü"ndən uyğun sözləri seçərək cümlələri tamamlayırlar. Bununla da yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Cavab:**

1. Rza nağılın davamını **təxəyyülünə** əsasən təxmin etdi.

2. İlboyu çəkdiyim əziyyət **hədər** getmədi, mən qalib gəldim.

3. Müxbirin **həmsöhbəti** görkəmli yazıçı Zahid Xəlil idi.

4. Rəsul tez-tez səyahət edir, **dünyagörüşünü** artırırdı.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 26**

**3.** Mətnin hər yarımbaşlığında ifadə olunan fikri bir cümlə ilə əsaslandırın.

**"Nə anladın?"** rubrikasında verilmiş tapşırığı şagirdlər məhz mətni oxuyarkən götürdükləri qeydlərə əsasən yerinə yetirəcəklər.

**Cavab: Mütaliə dünyagörüşünü genişləndirir.** Çox kitab oxuyan insanlar müxtəlif mövzularda məlumatlar, biliklər qazanırlar.

**Təxəyyülü və yaradıcı düşüncəni inkişaf etdirir.** Mütaliə edən insanlar qarşılaşdıqları hadisələri analiz etmək, onların davamını və nəticəsini, eləcə də obrazların sonrakı davranışlarını təxmin etmək bacarığı qazanırlar.

**Söz ehtiyatını artırır.** Mütaliə etdikcə oxucu yeni sözlərlə qarşılaşıb onların mənasını araşdırır, nitqini zənginləşdirir.

**Həssaslığı artırır.** Mütaliə zamanı oxucu qəhrəmanın emosional vəziyyətini, yaşantılarını hiss edir, onda həmsöhbətini anlamaq kimi vacib bir bacarıq formalaşır.

**Yeni dostlar və həmsöhbətlər qazandırır.** Mütaliə zamanı oxucu xəyalında personajlarla söhbət edir, xarakterinə, dünyagörüşünə uyğun olanlarla sanki dostlaşır, həmsöhbət, dost qazanır.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 14**

**1.** Verilmiş mətnləri oxu. Suallara cavab yaz.

Şagirdlər növbəti tapşırıqları yerinə yetirmək üçün tapşırıqda verilmiş mətnləri diqqətlə oxuyurlar.

**İş dəftəri, səh. 14**

**2.** Mətnlərdən hansı məlumatları öyrəndin?

**Şagirdlər təxminən aşağıdakı məlumatları qeyd edə bilərlər:**

**I mətn**

- Köçəri quşlar soyuq yerlərdən isti yerlərə köç edirlər.
- Çox uzun məsafə qət edirlər.
- Köçəri quşlar üçbucağı xatırladan formada düzülürlər.
- Öndə uçan quş daha çox yorulur.
- Quşlar öndə uçmaq üçün növbələşirlər.

**II mətn**

• Üzüm tənəklərini payızda budayırlar.

• Ağac kökləri vasitəsilə torpaqdan su və qida alır.

• Ağacın qol-budağı çox olarsa, meyvələrə qida çatmaz.

• Ağacları budayırlar ki, meyvəsi bol olsun.

**İş dəftəri, səh. 14**

**2.** Mətnlərdən hansı yeni sözləri öyrəndin? Mətnə əsasən həmin sözləri izah et.

Şagirdlər mətnlərdə qarşılaşdıqları yeni sözləri yazıb mətnə əsasən izah edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Verilmiş fikri arqumentlə əsaslandırır. | Tap. 3 (D.) |

# 2-ci DƏRS
# Annotasiya

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).

• Oxuduğu mətnin qısa məzmununu yazır (st. 4.1.3).

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 4.1.3).

**Mövzuya yönəltmə. Oxu**

**Dərslik, səh. 26**

**1.** Aşağıdakı suallara cavab verməklə oxu vərdişləriniz haqqında danışın.

Şagirdlər tapşırıqda təqdim edilmiş sualları cavablandıraraq özlərinin oxu vərdişləri haqqında danışırlar.

**Dərslik, səh. 27**

**2. Müzakirə.** Sizcə, kitab oxumağı həyat tərzinə çevirmək üçün nə etmək lazımdır?

Şagirdlər tapşırıqda təqdim edilmiş sualı cavablandırır, müzakirəyə qoyulmuş məsələ haqqında öz mövqelərini bildirirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər mütaliəni həyat tərzinə çevirmək üçün fikirlər söylədikcə həmin fikirləri lövhədə qeyd etmək olar. Daha sonra müzakirə edərək bu tövsiyələr içərisində daha faydalı olanlar seçilir.

**Dərslik, səh. 27**

**3.** Suallara cavab verməklə oxuduğunuz sonuncu kitab haqqında danışın.

Şagirdlər kitab seçərkən nəyə diqqət etdiklərini, nə üçün məhz bu kitabı seçmələrinin səbəbini arqumentlər gətirməklə izah edirlər:

• Nə üçün bu kitabı seçdiniz?

• Kitab müəllifinin başqa əsərlərini oxumuşdunuzmu?

• Kitabın məzmunu gözləntilərinizi doğrultdumu?

• Bu kitabı dostlarınıza tövsiyə edərdinizmi?

**Şagirdlər təxminən belə cavab verə bilərlər:**

Kitabın üzlüyündəki illüstrasiya diqqətimi cəlb etdi. Şəkildəki uşaqların kim olduğu, nə ilə məşğul olduqları məni maraqlandırdı. Jül Vernin "80 gün dünya ətrafında" kitabını oxumuşam. Bu yazıçı, əsasən, macəra əsərləri yazır. Məhz bu kitabı seçdiyim üçün sevinirəm. Əsər çox xoşuma gəldi. İllüstrasiyada təsvir edilən oğlanlar dostluq edirlər. Əsər boyu müxtəlif macəralarla rastlaşırlar. Bu kitabı oxumağı dostuma da tövsiyə edirəm. Bu kitabı oxuduqdan sonra əsl dostluq haqqında fikirlərim dəyişdi.

**Müəllimin nəzərinə!** Müəllim sinfə müxtəlif kitablar gətirir. İmkan varsa, bu dərsi kitabxanada da keçmək olar. Dərsin kitabxanada keçirilməsi reallaşmadığı təqdirdə şagirdlər kitabxanadan kitab seçir və sinifdə istifadə edirlər. Şagirdlər hər hansı bir kitabı seçirlər. Daha sonra həmin kitabın cildinə və kitaba çəkilmiş illüstrasiyalara baxaraq kitabın məzmununu təxmin edirlər.

Müəllim şagirdlərin diqqətini seçdikləri kitabın annotasiyasına yönəldir. Şagirdlər kitabın ilk səhifələrinə diqqət edir və kitaba yazılmış annotasiyanı oxuyurlar. Müəllim yönəldici suallarla şagirdləri danışma fəaliyyətinə cəlb edir:

– Annotasiyanı oxuduqdan sonra ilkin fikirlərinizdə hansı dəyişikliklər oldu?

– Seçdiyiniz kitab haqqında daha hansı məlumatları aldınız?

– Annotasiya sizdə kitabı oxumağa maraq yaratdımı?

– Annotasiyada yazılan hansı məlumat sizi mütaliəyə cəlb etdi?

**Dərslik, səh. 27**

> **4.** Oxuya hazırlığın mərhələlərini düzgün ardıcıllıqla sıralayın.

**Cavab: 1. Kitabla ümumi tanışlıq.** Kitabın üzlüyünə, müəllifin adına, illüstrasiyaya və yarımbaşlıqlara diqqət etmək.

**2. Motivasiya.** “Mən bu haqda nə bilirəm, daha nələr öyrənmək istəyirəm?” sualı ətrafında düşünmək.

**3. Məzmunla tanışlıq.** Annotasiyanı oxuyaraq kitabın qısa məzmunu ilə tanış olmaq.

**Yazı**

**Dərslik, səh. 27**

> **5.** Aşağıdakı təlimata və nümunəyə əsasən oxuduğunuz kitablardan biri haqqında annotasiya yazın.

Şagirdlər annotasiya haqqında aldıqları məlumatları tətbiq edirlər. Tapşırıqda təqdim edilmiş təlimata və S.S.Axundovun “Qaraca qız” kitabına yazılmış annotasiya nümunəsi əsasında oxuduqları hər hansı bir kitab haqqında annotasiya yazırlar.

**Müəllimin nəzərinə!** Şagirdlərin annotasiyada qeyd edəcəkləri məsələlər artıq danışma mərhələsində müzakirə edilib. Onlara həmin müzakirəni xatırlatmaqla yazı prosesini asanlaşdırmaq olar.

**İş dəftəri, səh. 15**

> **1.** Oxuduğun sonuncu kitab haqqında elə annotasiya yaz ki, dostlarında bu kitabı oxumaq həvəsi yaransın.

Tapşırıq şagirdlərin annotasiya yazmaq bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Şagirdlərə annotasiyanın reklam xarakteri daşıdığı haqqında xəbərdarlıq edilməsi tövsiyə olunur:
- Annotasiyada əsər haqqında cəlbedici məlumatlar verilməlidir.
- Hadisələrin sonu, nəticəsi gizli saxlanılmalıdır ki, oxucuda maraq oyatsın.
- Annotasiyada hadisələr detallı təsvir edilməməlidir.

**İş dəftəri, səh. 15**

> **2.** Oxuduğun sonuncu kitaba istinad edərək cədvəli tamamla.

Şagirdlər oxuduqları son kitab haqqında məlumatları cədvəlin uyğun bölməsinə yazıb təqdim edirlər. Bununla da mütaliə haqqında aldıqları məlumatları tətbiq edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1, 2, 3, 4 (D.) |
| Kitab haqqında annotasiya yazır. | Tap. 5 (D.), tap. 1 (İ.D.) |

# 3-cü DƏRS
# Sözün tərkibi: kök və şəkilçi

**Təlim nəticələri:**
- Sözlərin tərkib hissələrini müəyyən edir (st. 4.1.1).
- Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 28**

> **1.** Verilmiş sözləri oxuyun. Sözlərdə təkrar olunan hissəni müəyyən edin.

Şagirdlərin diqqəti tapşırıqda verilmiş sözlərin kökünə cəlb olunur. Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik!” rubrika-

sına yönəldir. Şagirdlərə “kök və şəkilçi” anlayışı izah edilir.

**Dərslik, səh. 28**

**2.** Verilmiş sözləri kök və şəkilçiyə ayırın.

**Cavab:** şəhər-dən, meyvə-lər, kəs-ici, meşə-lik, al-dı, oxu-cu.

**Dərslik, səh. 28**

**3.** *Dadlı* sözündəki şəkilçini müəyyən edin. Həmin şəkilçini aşağıdakı sözlərə artırın.

**Cavab:** -lı

**Müəllimin nəzərinə!** Yönəldici suallar vasitəsilə şagirdlərə istiqamət vermək olar:
– Sizcə, “duzlı”, yoxsa “duzlu” deməli? Nə üçün belə seçim etdiniz?
– Sizcə, “güllı”, yoxsa “güllü”?

Daha sonra şagirdlərin diqqəti “Bunları bilməliyik!” rubrikasına yönəldilir. Bu rubrikada şəkilçilərin variantları haqqında məlumat nümunələrlə izah edilir. Saitlərin növləri və ahəng qanunu xatırlanır. Şəkilçilərin ahəng qanununa uyğun dəyişməsi vurğulanır.

**Dərslik, səh. 28**

**4.** Uyğun şəkilçilər əlavə etməklə cümlələri tamamlayın.

**Cavab:** 1. Samir evə tərəf get**di**.
2. Arif dayı bizə xatirələr**ini** danışdı.
3. Nənə**m** mən**ə** hədiyyə al**ıb**.
4. Əli finiş**ə** birinci çat**dı**.

**Dərslik, səh. 28**

**5.** Nümunəyə əsasən sözləri kök və şəkilçiyə ayırın. Şəkilçilərin neçə cür yazıldığını müəyyən edin.

**Cavab:** al-ıcı; -ıcı$^{4}$; üz-ür; -ır$^{4}$; gül-mək; -maq$^{2}$; top-u; -ı$^{4}$; gözəl-lik; -lıq$^{4}$; baş-la; -la$^{2}$.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 16**

**1.** Sözlərin köklərini müəyyən et və krossvordun uyğun sütunlarında yaz.

**Cavab: soldan-sağa:** 2. kömək; 5. gözəl; 6. dürüst; **yuxarıdan aşağı:** 1. mərhəmət; 3. palıd; 4. xeyir; 5. güc.

**İş dəftəri, səh. 16**

**2.** Şəkilçilərə uyğun söz kökü yaz.

**Cavab nümunəsi:**
1. **Dağ**lıq, **bir**lik, **ot**luq, **gül**lük.
2. **Ağıl**lı, **ətir**li, **su**lu, **gül**lü.
3. **Oxu**maq, **gör**mək.
4. **Dost**laş, **gözəl**ləş.
5. **Altı**ncı, **bir**inci, **doqquz**uncu, **üç**üncü.

**İş dəftəri, səh. 16**

**3.** Nöqtələrin yerinə uyğun şəkilçilər artırmaqla atalar sözlərini tamamla.

**Cavab:** B
1. Əkinçi yağış istər, yolçu quraqlıq. (-çı$^{4}$)
2. Bir görmək iki eşitməkdən yaxşıdır. (-maq$^{2}$)
3. Dostsuz insan qanadsız quş kimidir. (-sız$^{4}$)
4. Zaman keçər, söz qalar. (-ar$^{2}$)

**İş dəftəri, səh. 16**

**4.** Verilmiş sözdəki şəkilçini müəyyən et. Həmin şəkilçini digər sözlərə artır.

**Cavab:** 1. Sat-ıcı; bilici, qurucu, sürücü.
2. Tamaşa-da; evdə.
3. Sın-ıq; dəlik, buruq, çökük.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin tərkib hissələrini müəyyən edir. | Tap. 1, 2 (D.), tap. 1 (İ.D.) |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 3, 4, 5 (D.), tap. 2, 3, 4 (İ.D.) |

# 2-ci fəsil
# İLANLAR HAQQINDA BİLMƏDİKLƏRİMİZ

## 1-ci DƏRS
## İlanlar niyə rəqs edir?

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).

• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).

• Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 3.1.3).

• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).

• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).

• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 29**

**1.** İlanlar haqqında nə bilirsiniz? Onların hansı növlərini tanıyırsınız?

Şagirdlər dəftərlərində BİBÖ cədvəli çəkirlər. İlanlar haqqında bildiklərini cədvəlin “bilirəm” sütununa qeyd edirlər. “Bilmək istəyirəm” sütununa isə bu mövzuda onları maraqlandıran, cavab tapmaq istədikləri sualları yaza bilərlər. Şagirdlər tərtib etdikləri cədvəli sinfə təqdim edirlər.

**Dərslik, səh. 29**

**2.** İllüstrasiyaya diqqət edin. Yəqin ki, siz yazıçı Redyard Kiplinqin məşhur “Mauqli” əsərini xatırladınız. Sizcə, şəkildə yatağan ilan Kaanın hansı bacarığı təsvir edilib?

**Şagirdlərin cavabı təxminən aşağıdakı məzmunda ola bilər:**

– Şəkildə Kaanın hipnozetmə bacarığı təsvir edilib. O, baxışları ilə Mauqlini hipnoz etməyə çalışır.

**Müəllimin nəzərinə!** Şagirdlərdə mövzuya maraq yaratmaq üçün yönəldici suallardan istifadə edilir:

– Sizcə, doğrudanmı ilanların hipnozetmə bacarığı var?

**Dərslik, səh. 29**

**3.** Sizcə, heyvanlar rəqs edə bilərmi? Onların musiqi duyumu varmı? Fikrinizi əsaslandırın.

Şagirdlər bu mövzuda şəxsi biliklərinə əsaslanaraq öz fikirlərini bildirirlər. Şagirdlərin fikirləri dinlənildikdən sonra mətn üzərində iş aparılır.

**Söz ehtiyatı**

**Dərslik, səh. 29. “Söz mücrüsü” rubrikası**

Söz mücrüsü

şikar • güdmək • ürkütmək • aramsız • duyum • qüdrət • refleks

**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. “İlanlar niyə rəqs edir?” informativ mətn olduğundan qeyd götürməklə oxu üsulundan istifadə etmək tövsiyə olunur.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərin diqqətini mətnin adına yönəldir. Mətni oxuyarkən bu suala cavab axtarmağı tövsiyə edir.

**Söz mücrüsü.** Daha sonra müəllim “Söz mücrüsü”ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 30**

**4.** Mətnin məzmununa istinad etməklə “refleks” və “hipnoz” sözlərinin mənasını təxmin edin. Lüğət vasitəsilə dəqiqləşdirin.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir.

**Dərslik, səh. 30**

**5.** Fərqləndirilmiş sözləri “Söz mücrüsü”ndən uyğun gələn sözlərlə əvəz edin.

**Cavab:** 1. ürkütdü; 2. şikarını; 3. aramsız.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 30**

**6.** Mətndən seçilmiş cümlələri bir daha oxuyun. Sizcə, nə üçün bəzi sözlər dırnaq arasında yazılıb.

Şagirdlərin diqqəti mətnə yönəldilir. Tapşırıqda verilmiş cümlələr mətndə tapılıb bir daha oxunur. Bəzi sözlərin nə üçün dırnaq işarəsi ilə yazılması müzakirə edilir.

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, şagirdlərə "məcazi məna" anlayışı izah edilsin.

**Cavablar təxminən belə ola bilər:** *İlanlar, həqiqətən, rəqs etmir. İlanlar aktyor ola bilməz. Fokusçu ilanlara rəqs etməyi öyrətməyib. Onun belə bir gücü yoxdur. İlanın tütəyə qarşı refleksi olduğu üçün onunla bərabər hərəkət edir.*

Dərslik, səh. 31

**7.** Mətnin məzmununa əsasən suallara cavab verin.

Tapşırıq vasitəsilə şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamaq mümkündür.

**1-ci sual:** İlanlar insanda hansı hissləri yaradır?

**Cavab:** İlanların dərisindəki gözəl naxışlar, onların elastik hərəkətləri insanları heyran edir. Lakin bir çoxu zəhərli olduğu üçün qorxu hissi də yaradır.

**2-ci sual:** İlanlar, əsasən, nə ilə qidalanır?

**Cavab:** İlanlar kiçik quşlar, qurbağa və ya siçan kimi heyvanlarla qidalanır.

**3-cü sual:** İlanlar öz şikarını necə "hipnoz edir"?

**Cavab:** İlanlar gözünü qırpmadan uzun müddət ovunun hərəkətlərini izləyir. İlanın aramsız olaraq titrəyən dili həmin heyvanların diqqətini özünə çəkir. Beləliklə, sanki onları hipnoz edir.

**4-cü sual:** İlanların "oynamasının" səbəbi nədir?

**Cavab:** İlanı tutub uzun müddət qutuda və ya torbada saxlayırlar. Hərdənbir qutunun ağzını açırlar. İlan başını çıxarmaq istədikdə tütəklə onun başına vururlar. Bu, dəfələrlə təkrar olunur. Nəhayət, ilanda tütəyə qarşı refleks yaranır. Tütəyi görəndə gözünü ona zilləyib növbəti zərbəni gözləyir. Fokusçu tütəyi sağa-sola tərpətdikcə başını tütəyin ardınca fırladır. Bu da sanki ilanın rəqs etdiyi görüntüsünü yaradır.

Dərslik, səh. 31

**8.** Bu mətni yazmaqda müəllifin məqsədi nədir? O, oxucunu öz fikrinə inandırmaq üçün hansı arqumentlərdən istifadə edir?

Mətnin oxusuna başlayarkən şagirdlərin diqqəti mətnin başlığına yönəldilmişdi. Bəzi informativ mətnlərdə hər hansı bir suala cavab axtarılır.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:** *Müəllif ilanların rəqs edə bilmədiyini sübut etməyə çalışır. Bu məqsədlə bir çox arqumentlərdən istifadə edir:*

- *İlanların musiqi duyumu yoxdur.*
- *İlanlarda tütəyə qarşı refleks yaranır.*

Dərslik, səh. 31

**9.** Ardıcıllığı bərpa edərək mətnin tərkib hissələrinə aid plan tərtib edin.

**Cavab:** 1. İlanın yaratdığı hisslər.
2. İlanın ovçuluğu.
3. İlanda tütəyə qarşı refleks.
4. Fokusçunun məharəti.

Dərslik, səh. 31

**10.** Mətni iki hissəyə ayırın və hər bir hissəni uyğun yarımbaşlıqla adlandırın. Hissələrin hər birini 2-3 cümlə ilə ifadə edin.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**
**I hissə:** "Hipnoz edən ilanlar".
**II hissə:** "İlanların rəqsi".

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin oxuyub-qavrama bacarıqlarının inkişafına yönəldilib.

İş dəftəri, səh. 17

**1.** Mətnin məzmununa əsasən fikirlərin doğru və yaxud yanlış olduğunu müəyyən et.

**Cavab:** 1. Doğru; 2. Yanlış; 3. Yanlış; 4. Doğru; 5. Doğru; 6. Yanlış.

İş dəftəri, səh. 17

**2.** Suallara cavab yaz və mətnə istinad etməklə fikrini əsaslandır.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

**Sual:** İlanların hipnoz etmək bacarığı varmı?

**Cavab:** Xeyr. İlanlar sadəcə uzun müddət gözlərini qırpmadan baxır. Aramsız hərəkət edən dili şikarını cəlb edir.

**Sual:** İlanlar rəqs edə bilirmi?

**Cavab:** Xeyr. İlanlar rəqs etmir. Foksçu hər dəfə başını torbadan çıxaran ilanın başına tütəklə vurur. Nəticədə ilanda tütəyə qarşı refleks yaranır və ilan tütəyi görəndə onunla bərabər hərəkət edir.

İş dəftəri, səh. 17

**3.** Sözlərin izahını oxu. Nöqtələrin yerinə uyğun sözləri əlavə etməklə cümlələri tamamla.

Tapşırıq şagirdlərin oxuyub-anlama bacarığının inkişafı ilə yanaşı, söz ehtiyatının, nitqinin zənginləşdirilməsinə də yönəldilib.

**Cavab:**

1. İlan olan yerdə **manqust** da olar. (Çünki manqustlar ilanı ovlayır.)
2. İlan vuran ala **çatıdan** qorxar. (Çünki kəndir görünüşcə ilana bənzəyir.)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1, 2, 3 (D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tap. 4, 6 (D.), tap. 3 (İ.D.) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. 5 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 7 (D.), tap. 1 (İ.D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 8, 10 (D.), tap. 2 (İ.D.) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 9 (D.) |

# 2-ci DƏRS
# Niyə Ayın paltarı yoxdur?

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
• Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**
**Dərslik, səh. 31**

**1.** Hər hansı bir təbiət hadisəsinin elmi izahını verin və bu haqda bildiyiniz nağıl və ya hekayəni danışın.

Tapşırığın məqsədi şagirdlərin diqqətini vacib bir məqama yönəltməkdir. Bəzi bədii mətnlərdən də informasiya əldə etmək mümkündür.

Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş illüstrasiyalara yönəldir. Şagirdlərə aşağı siniflərdə keçdikləri "Çayın gileyi", "Ayın itməsi" və "Gecəquşu" mətnləri xatırladılır.

Tapşırıq müxtəlif fənlərlə inteqrasiya imkanı yaradır. Bu tapşırığı yerinə yetirmək üçün şagirdlər "Həyat bilgisi" dərsindən aldıqları biliklərə istinad edə bilərlər.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

**– Çayın, gölün, dənizin suyu niyə azalır?**

Günəşin istisi çayların, göllərin, okeanların suyunu buxarlandırır. Bu səbəbdən çox isti keçən zamanlarda, quraqlıq olarkən çayların, göllərin suyu nisbətən azalır.

**Bu mövzuda "Çayın gileyi" mətni var.**

*Kiçik çay uzun illər idi ki, bir gölə axırdı. Bir gün o, gölə dedi:*

*– Sən çox acgözsən. Mən yaz-qış, gecə-gündüz sənin qarnına axıram, heç doymaq bilmirsən. Sən doysan, mən axıb lap uzaqlara gedərəm.*

*Göl cavab verdi:*

*– Sən məni o qədər də acgöz bilmə. Mən öz suyumdan günəşə pay verirəm ki, yağış yağdırsın. Günəş mənim suyumu buxarlandırıb havaya qaldırır. Buxar isə göylərdə soyuyub yağışa çevrilir və yerə tökülür.*

*Çay acıqlı-acıqlı:*

*– Vermə suyunu günəşə, – dedi.*

*Göl gülüb dedi:*

*– Axı onda yağış yağmaz və çaylar quruyar.*

*Çay fikrə getdi. O hər şeyi başa düşdü və həmin gündən səsini çıxarmadan sakit-sakit gölə axmaqda davam etdi.*

**Ay nə üçün müxtəlif formalarda görünür?**

Bizə elə gəlir ki, Ayın forması hər gün dəyişir, əslində isə dəyişən Ay səthinin Günəşlə işıqlandırılan görünən hissəsidir. Günəşin şüaları Ayın bir hissəsini işıqlandırdıqda qalan hissəsinə Yerin kölgəsi düşür. Ona görə də bizə elə gəlir ki, Ay ki-

çilib. Ayın Yerdən görünən tərəfini günəş şüaları işıqlandırmayanda biz Ayı nazik xətt kimi görürük. Günəş işığı Ayın Yerdən görünən hissəsini hər gün daha çox işıqlandırır. Beləliklə, işıqlanan sahə böyüyür. Biz Ayı böyük aypara formasında görürük. On dörd gündən sonra Ay tamamilə işıqlanır və dairəvi formada görünür. Bu isə o deməkdir ki, Günəş Ayın görünən tərəfini tam işıqlandırır.

**Bu mövzuda "Ayın itməsi" mətni var.**

*Sincab Ayın getdikcə kiçildiyini görüb narahat oldu. Meşədəki heyvanlara dedi:*

*– Ay gündən-günə kiçilir. Belə getsə, bir neçə gündən sonra yoxa çıxacaq, meşə zil qaranlıq olacaq. Gecələr necə yemək tapacağıq?!*

*Bir azdan bütün meşəyə xəbər yayıldı: "Ay yoxa çıxır!" Hamı məşvərətə toplaşdı. Bütün heyvanlar göyə baxırdı. Qaranlıq səmada Ayın kiçik bir hissəsi qalmışdı. Şir dedi:*

*– Gəlin gedək Bayquşun yanına. O, çox yaşayıb, ağıllıdır, bir məsləhət verər.*

*Heyvanlar Bayquşun yanına gəldilər. Qoca Bayquş dedi:*

*– Yaxşı, mən sizə Ay, Yer və Günəş haqqında dərs keçərəm. Əvvəla, bilməlisiniz ki, Ay özü işıq saçmır. Onu işıqlandıran Günəşdir.*

*– Necə yəni Günəşdir? – Dovşan dilləndi. – İndi qaranlıqdır. Günəş yoxdur, amma Ay işıq saçır.*

*– Günəş var. – Bayquş dedi. – Sadəcə, indi o, Yerin arxa tərəfindədir.*

*Bayquş ağacdan üç alma dərib onları budaqdan yanaşı asdı.*

*Sol tərəfdəki almanı göstərib dedi:*

*– Baxın, bu, Günəşdir, ortadakı Yerdir, sağ tərəfdəki də Aydır. Biz indi Yerin Aya tərəf olan hissəsindəyik. Günəş əks tərəfdə olduğuna görə bura qaranlıqdır. Ancaq Günəşin şüaları Ayın bir hissəsini işıqlandıra bilir. Qalan hissəsinə Yerin kölgəsi düşür. Ona görə də bizə elə gəlir ki, Ay kiçilib. Sabahdan Ay yerini dəyişəcək və işıqlanan sahəsi böyüyəcək. On dörd gündən sonra Ay tamamilə işıqlanacaq və dairəvi formada görünəcək.*

**Yarasa niyə gecələr ova çıxır?**

Yarasalar cücüyeyən heyvanlardır. Xalq arasında onlara gecəquşu da deyirlər. Gündüzlər onlar plaşa bənzəyən enli qanadlarına bürünüb oyuqlarda, taxtapuşlarda, qaranlıq yerlərdə başıaşağı asılır, gecələr isə uçub xırda cücüləri ovlayırlar. Onlar tez-tez qanad çalaraq havada səssiz-səmirsiz hərlənirlər. Bu vaxt quşların çoxu yatmış olur, bir çox zərərverici cücülər isə məhz gecələr uçuşurlar. Buna görə də yarasalar gecə ova çıxır.

**Bu mövzuda "Yarasa niyə gecələr ova çıxır?" əfsanəsi var.**

*Bir gün heyvanların şahı əsgərlərini çağırıb əmr etdi:*

*– Gedin, yarasadan vergi alın! Bütün heyvanlar kimi o da mənə tabe olmalıdır.*

*Amma yarasa əsgərlərə dedi:*

*– Gedin, şahınıza deyin ki, mən heyvan deyiləm, quşam və ona vergi verməyəcəyəm. Harada görünüb ki, mənim kimi qanadlı, havada uçan bir canlı yerdə gəzən heyvanların şahına vergi versin?!*

*Heyvanların şahı bərk qəzəbləndi, quşların şahına bir məktub yazdı.*

*Ertəsi gün quşların şahı öz əsgərlərini çağırıb onlara əmr etdi:*

*– Yarasa özü deyib ki, quşdur. Buna görə də mənə vergi verməlidir. Gedin, ondan vergi alın.*

*Yarasa kefini pozmadan belə dedi:*

*– Gedin, şahınıza deyin ki, mən ona vergi verməyəcəyəm. Harada görünüb ki, mənimtək dişləri olan bir canlı quşların şahına vergi versin?! Siz dişləri olan quş görmüsünüz? Mən heyvanam, quş deyiləm.*

*Quşların şahı yamanca qəzəbləndi. Heyvanların şahına məktub yazdı. Ertəsi gün onlar məsləhətləşib belə qərara gəldilər ki, pusqu qurub hiyləgər yarasanı tutsunlar. Elə buna görə də yarasa gündüzlər gizlənir, gecələr özünə yemək axtarmaq üçün ova çıxır. Quşların və heyvanların şahlarının əsgərləri isə yarasanı tutmaq üçün o vaxtdan bəri cəngəllikləri və mağaraları gəzirlər.*

**Dərslik, səh. 32**

**2.** Şəkillərə baxın. Plana uyğun nağıl qurub danışın.

Şagirdlər təxəyyüllərinə və tapşırıqda verilmiş yardımçı materiala əsasən nağıl qurub danışırlar.

**Dərslik, səh. 32**

**3.** Sizcə, bu nağılda insanlar hansı suala cavab tapmağa çalışmışlar?

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**
"Ay nə üçün formasını dəyişir?"

**Dinləmə**

**Dərslik, səh. 32**

**4.** “Niyə Ayın paltarı yoxdur?” nağılını dinləyin və aşağıdakı suallara cavab verin.
1. Nə üçün insanlar təbiət hadisələri haqqında nağıllar, əfsanələr uydururdular?
2. Hansı elmin inkişafı göy cisimləri haqqında fikirləri aydınlaşdırdı?

Qədimdə insanlar bir çox təbiət hadisələrinin səbəbini anlamırdılar: Niyə yağış yağır? Niyə Günəş batır? Niyə Ay formasını dəyişir? Elə bu səbəbdən də təbiət hadisələri haqqında bir çox nağıllar, əfsanələr, inanclar yaranıb.

Belə nağıl edirlər ki, bir gün Ay özünə paltar tikdirmək üçün dərzinin yanına gəlir. Dərzi Ayın ölçülərini götürür. Bir neçə gün keçir. Ay dərzinin yanına gəlir. Lakin paltar əyninə balaca olur. Dərzi Aydan üzr istəyir:

– Deyəsən, ölçüləri qarışdırmışam.

Bu dəfə dərzi Ayın ölçülərini daha diqqətlə götürür. Bir həftə keçir. Ay dərzinin yanına gəlir. Dərzi pəncərədən baxıb görür ki, bir həftə bundan əvvəl nazik, uzunsov olan Ay indi yupyumrudur. Tikdiyi paltarın Ayın əyninə olmayacağını anlayan dərzi qaçıb gizlənir.

Əlbəttə, astronomiya elmi inkişaf etdikcə insanlara məlum oldu ki, Ay üzərinə düşən Günəş işığını əks etdirir. Ayın Yer və Günəşə nəzərən mövqeyinə görə bəzi hissələri qaranlıq, bəzi hissələri də aydınlıq olaraq görülür. Məsələn, Yeni Ay çox nazik olur. Çünki aydınlıq hissəsi kiçik ölçüdə görünür. Bədirlənmiş Ay isə yupyumru görünür. Çünki aydınlıq hissəsi böyük ölçüdə görünür.

**Dərslik, səh. 32**

**5.** İnsanların inancına görə:
“Qoz ağacının altında yatmazlar”.
“Qaranquşlar alçaqdan uçarsa, yağış yağar”.
• Sizcə, bu inanclar nədən yaranmışdır? Təxəyyülünüzə əsasən izah edin.
• İndi isə müəllimin səsləndirdiyi mətnləri dinləyin və öz izahınızla müqayisə edin.

**Dinləmə mətni**

*El arasında deyirlər ki, qaranquş alçaqdan uçursa, deməli, hava yağışlı olacaq. Görəsən, qaranquşun alçaqdan uçması ilə yağışın nə əlaqəsi var? Məsələ burasındadır ki, yağışdan qabaq hava bir az nəmişlik olur. Həşəratların qanadı islanıb şişir, ağırlıq onu aşağıya doğru çəkir. Beləliklə, həşəratlar alçaqdan uçurlar. Həşəratlarla qidalanan qaranquş isə məcbur olub onların ardınca aşağıdan uçur.*

*Daha bir inanc isə qoz ağacı ilə bağlıdır. Deyirlər ki, qoz ağacının altında çox oturmazlar, başın ağrıyar. Axı nə üçün məhz qoz ağacı? Məlumdur ki, ağaclar atmosferi karbon qazından təmizləyib oksigenlə zənginləşdirir. Lakin qoz ağacının buraxdığı və sağlamlıq üçün təhlükə yaradan qaz havadakı digər qazlardan daha ağır olduğu üçün dibə çökür və ağacın altında oturanı halsız edir, baş ağrısına səbəb olur.*

*Elmin hər bir sahədə inkişafı insanların suallarına məntiqli cavab tapır.*

**İş dəftəri, səh. 18**

**1.** “Niyə Ayın paltarı yoxdur?” mətninə istinad etməklə cümlələri tamamla.

**Cavablar təxminən belə ola bilər:**

1. Ay özünə paltar tikdirmək istəyir, ona görə də dərziyə müraciət edir.
2. Dərzi Aydan üzr istəyir, çünki tikdiyi paltar balaca olur.
3. Dərzi pəncərədən baxıb görür ki, Ay yupyumru olub, ona görə də qaçıb gizlənir.

**İş dəftəri, səh. 18**

**2.** Əldə etdiyin məlumatlara əsasən cədvəli tamamla.

**Cavab:** 1. Qədimdə insanlar bir çox təbiət hadisələrinin səbəbini anlamırdılar.

2. Yağışdan qabaq hava nəmişlik olur. Həşəratların qanadı islanıb şişir, ona görə də alçaqdan uçurlar. Həşəratlarla qidalanan qaranquş isə məcbur olub onların ardınca aşağıdan uçur.

3. Çünki qoz ağacı sağlamlıq üçün təhlükə yaradan qaz buraxır. Bu qaz ağır olduğu üçün dibə çökür və qoz ağacının altında oturanı halsız edir. Baş ağrısına səbəb olur.

4. Çünki elmin hər bir sahəsi inkişaf edib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1, 4 (D.) |

| | |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. 2 (D.) |
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 3 (D.) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 4, 5 (D.), tap. 1, 2 (İ.D.) |

# 3-cü DƏRS
# Şəkilçilərin növləri. Leksik və qrammatik şəkilçilər

**Təlim nəticələri:**

• Leksik və qrammatik şəkilçiləri fərqləndirir (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 33**

**1.** Verilmiş sözləri kök və şəkilçiyə ayırın. Hansı şəkilçi yeni mənalı söz yaradıb?

**Müəllimin nəzərinə!** Tapşırığı düzgün yerinə yetirmələri üçün şagirdlərə yönəldici suallar vermək olar:

• “Məktəbli” və “məktəbdən” sözlərinin kökü hansı sözdür?
• “Məktəb” sözü hansı suala cavab verir?
• “Məktəb” sözünün mənasını izah edin.
• “Məktəbli” sözü hansı suala cavab verir?
• “Məktəb” sözü ilə “məktəbli” sözü eyni mənanı verirmi?

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim leksik və qrammatik şəkilçilərin funksiyalarını nümunələrlə izah edir.

**Dərslik, səh. 33**

**2.** İzahlara uyğun sözü müəyyən edin. Sözləri kök və şəkilçiyə ayırın.

**Cavab:** 1. B; 2. Ç; 3. A; 4. C.

**Dərslik, səh. 33**

**3.** Şəkilçilər artırmaqla cümlələri tamamlayın. Əlavə etdiyiniz şəkilçilərin növünü müəyyən edin.

**Cavab:** 1. Zalda xeyli tamaşa**çı** var idi. (leksik)
2. Həlimə ləzzət**li** şorba hazırlamışdı. (leksik)
3. Nənə Solmaza naxış**lı** corab toxudu. (leksik)
4. Bağ**ban** həyətdəki güllər**ə** qulluq edirdi. (leksik, qrammatik)
5. Sənan ingilis dili**ni** yaxşı bilir. (qrammatik)
6. Alma ağacı çiçək açmış**dı**. (qrammatik)

**Dərslik, səh. 33**

**4.** Verilmiş şəkilçiləri söz kökünə artırın, düzəltmə sözləri müəyyənləşdirin.

**Cavab:** **Bağça**, bağdan, bağlar.
Bölmək, **bölgü**, böləcək.
Qırdı, **qırıq**, qırmaq.
Çayın, **çayçı**, çayda.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin bəzi samitlərin yazılışı haqqında aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 19**

**1.** Sözlərin düzgün yazılışını müəyyən et və cədvəl üzrə qruplaşdır.

**Cavab:**

**söz:** mərdlik **sözün kökü:** mərd
**şəkilçi:** -lik **şəkilçinin növü:** leksik

**söz:** cavabınız **sözün kökü:** cavab
**şəkilçi:** -ınız **şəkilçinin növü:** qrammatik

**söz:** çalışqan **sözün kökü:** çalış
**şəkilçi:** -qan **şəkilçinin növü:** leksik

**söz:** məktəbli **sözün kökü:** məktəb
**şəkilçi:** -li **şəkilçinin növü:** leksik

**söz:** evdə **sözün kökü:** ev
**şəkilçi:** -də **şəkilçinin növü:** qrammatik

**İş dəftəri, səh. 19**

**2.** Sözlərə leksik və qrammatik şəkilçi artır.

**Cavab: Leksik şəkilçili sözlər:** duzlu, xeyirxah, bölgü, qaçış.

**Qrammatik şəkilçili sözlər:** duzdan, xeyirlər, bölmək, qaçdı.

**İş dəftəri, səh. 19**

**3.** İzahları oxu. Uyğun şəkilçi artırmaqla yeni sözlər düzəlt.

**Cavab:** alov – yanan bir şeydən çıxan od
alov**lu** – şiddətlə yanan, parlayan, alov çıxan
alov**lan**(maq) – bərk yanmaq, alışmaq, tutuşmaq, alışıb-yanmaq

təmiz – çirk olmayan, kirli olmayan, yuyulmuş
təmiz**kar** – təmizliyi, səliqəni sevən
təmiz**lə**(mək) – çirkini, ləkəsini yumaq, təmiz etmək

**İş dəftəri, səh. 19**

**4.** Cədvəli tamamla.

**Cavab:** Kitab**xana**, xəstə**xana**, çay**xana** – yer, məkan bildirən sözlər.

Qızıl**ı**, gümüş**ü**, zoğal**ı** – rəng bildirən sözlər.

Gül**dan**, qənd**dan**, çay**dan** – qab (yaxud əşya) bildirən sözlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Leksik və qrammatik şəkilçiləri fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 3-cü fəsil
# QARANQUŞLAR NECƏ YUVA QURUR?

## 1-ci DƏRS
## Qaranquş və Sərçə

**Təlim nəticələri:**

- Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).
- Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 3.1.1).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
- Sətiraltı fikir və informasiyanı izah edir (st. 3.1.2).
- Verilmiş məlumatları mətndəki məlumatlarla müqayisə edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 34**

**1.** Qaranquş və sərçələr haqqında nə bilirsiniz? Hansının yuvasını görmüşsünüz?

Müəllim tapşırıqda təqdim edilmiş istiqamətləndirici sualla şagirdləri danışmağa yönəldir.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** “Qaranquş və Sərçə” mətni müvafiq jest və mimikalardan istifadə edilməklə müxtəlif şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Dərslik, səh. 34. “Söz mücrüsü” rubrikası**




**Söz mücrüsü.** Müəllim oxu prosesində tanış

olmayan və “Söz mücrüsü”ndə verilmiş sözlərin mənasını izah edir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 35**

**2.** Mətnin məzmununa əsasən suallara cavab verin.

**“Nə anladın?”** rubrikasında verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Dərslik, səh. 35**

**3.** Qaranquş və Sərçəyə aid xüsusiyyətləri müəyyən edin. Mətnə istinad etməklə fikrinizi əsaslandırın.

**Cavab:**

Qaranquş zəhmətkeşdir – o hər yay zəhmətlə yuva qurardı.

Qaranquş yardımsevərdir – o, yuva qurmağı Sərçəyə öyrədərək ona yardım etmək istədi.

Sərçə özündənrazı, kobuddur – Qaranquş ona yuva qurmağı öyrətməyə çalışırdı. Sərçə isə bu işin çətin olmadığını, hamının bacardığı bir iş olduğunu söyləyirdi.

**Dərslik, səh. 35**

**4.** “Halva, halva” deməklə ağız şirin olmaz” atalar sözünün mənasını izah edin. Sizcə, mətnin ideyasını bu atalar sözü ilə ifadə etmək olarmı? Qaranquşun hansı sözləri bu atalar sözünə uyğundur?

**Cavab:**

Halva şirniyyatın bir növüdür. Lakin “halva” deməklə bu şirniyyatın dadını hiss etmək olmaz. Halva hazırlamaq isə asan proses deyil. Yəni məqsədinə nail olmaq üçün əziyyət çəkmək, çalışmaq lazımdır. Bu atalar sözü ilə “Qaranquş və Sərçə” mətninin əsas ideyasını ifadə etmək olar. Mətndə Qaranquş Sərçəyə deyir:

– Bilməyinə bilirsən, ancaq yalnız bilmək ilə yuva tikə bilməzsən! Bunun üçün gərək zəhmət çəkəsən. Mən işlədiyim qədər sən işləməsən, məqsədinə çata bilməyəcəksən.

**Dərslik, səh. 35**

**5.** Məlumat vərəqlərinə əsasən qaranquş və sərçəni müqayisə edin. Onların yaşayış tərzlərində hansı fərqli xüsusiyyətlər var?

Tapşırıq şagirdlərin qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərhetmə bacarığını inkişaf etdirir.

İlk növbədə şagirdlər qaranquş və sərçə haqqında verilmiş məlumat vərəqindəki məlumatları rabitəli mətn halına salırlar.

**Qaranquş**

Qaranquş köçəri quşdur. Havalar soyuyanda, payız gələndə isti ölkələrə uçurlar. Qaranquşlar təxminən 12-17 sm uzunluqda olurlar. Bu quşlar təqribən 4-5 ilə qədər yaşayırlar. Əsasən həşəratlarla qidalanırlar. Qaranquşlar insan məskənlərinə yaxın yerlərdə yaşayırlar. Gil və palçıqdan möhkəm yuva qururlar.

**Sərçə**

Sərçələr köçəri quş deyil. Onlar yayda da, qışda da eyni məkanda yaşayırlar. Sərçələr təxminən 10-12 sm uzunluqda olurlar. Bu quşlar təqribən 3 ilə qədər yaşayırlar. Həşərat və dənli bitkilərlə qidalanırlar. İnsan məskənlərinə yaxın yerlərdə yaşayırlar. Binalardakı kiçik yarıqlarda yuva qururlar. Bəzən başqa quşların yuvalarında da yaşayırlar.

**Fərqli xüsusiyyətləri**

Qaranquşlar payız gələrkən isti ölkələrə köçdükləri halda, sərçələr yaşadıqları yeri tərk etmirlər. Qaranquşlar gil və palçıqdan möhkəm yuva qururlar. Sərçələr isə divarların yarıqlarında yaşayırlar.

• **Şəkillərə əsasən məlumat vərəqinə quşların zahiri görünüşü haqqında hansı məlumatları əlavə etmək olar?**

Qaranquşların sinəsi ağ rəngdə olur. Qanadları uzun və itidir, quyruğu isə iki hissəyə haçalanmış formadadır.

**Dərslik, səh. 35**

**6.** Məlumat vərəqindəki hansı xüsusiyyətlər mətndə öz əksini tapıb?

**Cavab:** 1. Qaranquşlar və sərçələr insan məskənlərinə yaxın yerlərdə yuva qururlar. Mətndə bu belə əks etdirilib:

*Qaranquş damın lap qırağında yuva qurmuşdu. Qonşuluqda isə Sərçənin yuvası var idi. Ona yuva demək olmazdı, sadəcə, daşların arasında yarıq idi.*

2. Qaranquşlar həşəratlarla qidalanır.

**Mətndə:** *Qaranquş hər il bala çıxarar, ovladığı həşəratlarla onları yemləyib böyüdərdi.*

**İş dəftəri, səh. 20**

**1.** "Qaranquş və Sərçə" mətninə aid hekayə xəritəsini tamamla.

**Hekayə xəritəsi təxminən aşağıdakı məzmunda tərtib edilə bilər:**

**Məkan:** evin həyəti, gölün kənarı, qaranquşun yuvası.

**Əsas obrazlar:** Qaranquş və Sərçə

**Mətnin qısa məzmunu** iş dəftərində verilmiş plana uyğun yazılır.

**Mətnin ideyası:** "Halva, halva" deməklə ağız şirin olmaz".

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 1 (D.) |
| Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur. | "Qaranquş və Sərçə" mətni |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tap. 3 (D.) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tap. 4 (D.) |
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. 5 (D.) |
| Verilmiş məlumatları mətndəki məlumatlarla müqayisə edir. | Tap. 6 (D.) |
| Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir. | Tap. 1 (İ.D.) |

# 2-ci DƏRS
# Hazır yuva

**Təlim nəticələri:**

- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
- Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir (st. 3.1.2).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).
- Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 1.1.1).
- Fikrini əsaslandırmaqla münasibət bildirir (st. 2.1.2).
- Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir (st. 4.1.1).
- Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat) yazır (st. 4.1.3).

**Dinləmə**

Müəllim "Hazır yuva" adlı mətni səsləndirir.

***Hazır yuva***

*Mən sizə şahidi olduğum bir hadisəni danışmaq istəyirəm.*

*Yəqin ki, qaranquşu tanıyırsınız, yuvasını da görmüsünüz. Qaranquş elə yerdə yuva tikir ki, əl çatmasın, dəcəl uşaqlar ona toxuna bilməsinlər. Yuvanı qurduqdan sonra qaranquşlar burada bala çıxarırlar. İyul ayının əvvəllərində körpə balalarını boya-başa yetirib uçurdurlar.*

*Mən istirahət evində dincəlirdim. Qaldığım evin eyvanında qaranquşlar yuva qurmuşdu. Bu quşları xoşladığımdan gözümü onlardan çəkməyib uçuşlarına tamaşa eləyirdim. Birdən nə görsəm, yaxşıdır? İki sərçə öz yuvasına girmək istəyən qaranquşa hücum edib onu dimdiklədi. Sərçələrin nə etmək istədiklərini başa düşdüm. Onlar heç bir zəhmət çəkmədən qaranquşların hazır yuvalarını tutmağa çalışırdılar.*

*Çox keçmədən qaranquşlar da iki oldular. Onlar həftələrlə zəhmət çəkib qurduqları yuvadan əl çəkmir, cividləşə-cividləşə sərçələrlə dimdikləşirdilər.*

*Bu qayğıkeş, zəhmətsevər quşları dar ayaqda görəndə özümü saxlaya bilmədim. Uzun bir çubuq götürüb sərçələri qovmağa başladım.*

*Birinci dəfə idi ki, başqasının yuvasını ələ keçirmək istəyən sərçə görürdüm. Öz zəhmətləri ilə*

*qurduqları yuvaları qoruyan qaranquşlara isə rəğbətim artırdı.*

*Qaranquşlar öz yuvalarını qoruyub saxlamaq üçün möhkəm dayanmışdılar. Zəhmət çəkib yuva qurmaq əvəzinə cikkildəməklə gün keçirən sərçələrə qarşı qəzəbimi gizlədə bilmirdim. Çubuğu yelləyə-yelləyə qışqırırdım:*

*– Başqalarının hazır yuvalarına göz dikib onu ələ keçirmək istəyən sərçələr! Hər kəs öz zəhməti ilə yaşamalıdır.*

*Əli Vəliyev*

**Dərslik, səh. 36**

**1.** Müəllimin oxuduğu "Hazır yuva" mətnini dinləyin. Mətnə əsasən cümlələri tamamlayın.

**Cavab:** 1. Qaranquşlar yuvalarını əl çatmayan yerdə qururlar, **çünki öz balalarını təhlükədən uzaq saxlamaq istəyirlər.**

2. Qaranquşlar sərçələrə hücum çəkib dimdiklədilər, **çünki onlar heç bir zəhmət çəkmədən qaranquşların hazır yuvalarını tutmağa çalışırdılar.**

3. Mən çubuqla sərçələri qovurdum, **çünki bu qayğıkeş, zəhmətsevər quşları dar ayaqda görəndə özümü saxlaya bilmədim.**

**Dərslik, səh. 36**

**2.** Verilmiş plan əsasında mətnin qısa məzmununu danışın.

Şagirdlər tapşırıqda təqdim edilmiş plan əsasında "Hazır yuva" mətninin qısa məzmununu danışırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər mətni nəql edərkən yeni sözlərdən istifadə etmələri diqqətdə saxlanılmalıdır.

**Dərslik, səh. 36**

**3.** Hansı atalar sözü mətnin ideyasını əks etdirir. Mətnə istinad etməklə fikrinizi əsaslandırın.

**Cavab:** C

**Dərslik, səh. 36**

**4.** Oxuduğunuz "Qaranquş və Sərçə" və dinlədiyiniz "Hazır yuva" mətnlərini mövzu, məzmun və ideya baxımından müqayisə edin.

**Cavab:** "Qaranquş və Sərçə" və "Hazır yuva" mətnlərinin mövzusu eynidir: qaranquş və sərçənin yaşam tərzlərindən danışılır.

Lakin mətnlərin məzmunu və ideyası fərqlidir. "Qaranquş və Sərçə" mətnində Qaranquş Sərçəyə yuva qurmağı öyrədir. "Hazır yuva" mətnində qaranquşun yuvasına soxulmaq istəyən sərçələrdən danışılır.

"Qaranquş və Sərçə" mətninin ideyasını "Halva, halva" deməklə ağız şirin olmaz", "Hazır yuva" mətninin ideyasını isə "Yersiz gəldi, yerli qaç" atalar sözləri ilə ifadə etmək olar.

**Dərslik, səh. 36**

**5.** "Qaranquş və Sərçə" və "Hazır yuva" mətnlərində sərçələr mənfi planda verilib. Bilgilərinizə əsasən onların müdafiəsi üçün nitq hazırlayın.

**Şagirdlərin nitqi təxminən bu məzmunda ola bilər:** *Düzdür, "Qaranquş və Sərçə" və "Hazır yuva" mətnləri ilə tanış olandan sonra düşünə bilərik ki, sərçələr necə də faydasız, tənbəl, ziyankar quşlardır. Amma düşünürəm ki, sərçələrin də özünəməxsus müsbət xüsusiyyətləri çoxdur. Məsələn, sərçələr vəfalı quşlardır. Bəli, bəli, vəfalı... Çünki qaranquş soyuqlar düşən kimi öz yuvasını tərk edib isti yerlərə köçür. Amma sərçələr yuva qura bilməsələr də, divarların yarıqlarında yaşasalar da, öz məkanlarını, yaşadıqları ərazini dəyişmirlər. Məncə, sərçələr kiçik olmalarına baxmayaraq çox dözümlü quşlardır. Qışın şaxtasına, küləyinə tab gətirirlər. Biz uşaqlar da məhz sərçələr üçün quş evcikləri qururuq. Bu evcikləri ağaclardan asır, dənliyinə buğda, arpa, çörək qırıntıları tökürük ki, vəfalı dostlarımız ac qalmasın.*

**Dərslik, səh. 36**

**6.** Sizcə, nə üçün "qaranquş" və "sərçə" sözlərinin ilk hərfi "Hazır yuva" mətnində kiçik, "Qaranquş və Sərçə" mətnində isə böyük hərflərlə yazılmışdır?

**Müəllimin nəzərinə!** Şagirdlər bir sıra adların (şəxs, yer və s.) böyük hərflə yazılışı qaydaları ilə tanışdırlar. Eyni zamanda onlar əsərlərdəki heyvan obrazlarının da adlarının böyük hərflə yazıldığını bilirlər. Dərsin əvvəlində müəllim bu bilikləri sual-cavab yolu ilə, əsərlərdən nümunələr gətirməklə xatırlada bilər.

"Hazır yuva" mətnində "qaranquş" və "sərçə" sözləri *nə?* sualına cavab verir. Çünki bu mətndə quşlar nəzərdə tutulur. "Qaranquş və Sərçə"

mətnində isə bu sözlər *kim?* sualına cavab verir. Çünki artıq Qaranquş və Sərçə obraza çevrilir, danışır, lovğalanır, hirslənir və sairə. Yəni bədii mətndə istənilən obraz *kim?* sualına cavab verir. Daha sonra **“Diqqət et”** rubrikasındakı nəzəri material şərh edilir. Müəllim nağıllarda, təmsillərdə obraz kimi çıxış edən heyvan və cansız əşya adlarının ilk hərfinin nə üçün böyük hərflə yazıldığını izah edir.

**Yazı**

**Dərslik, səh. 36**

**7.** “Hazır yuva” mətninin məzmununu elə yazın ki, sərçə və qaranquş şəxsləndirilsin. Obrazların adlarının yazılışına diqqət edin.

**Şagirdlərin yazısı təxminən bu məzmunda ola bilər:**

*Qaranquş evin eyvanında yuva qurmuşdu. Özü bilərəkdən əlçatmaz yer seçmişdi ki, dəcəl uşaqlar ona toxuna bilməsin. Axı yuvanı qurduqdan sonra burada bala çıxaracaqdı.*

*Bir gün Qaranquş qayıdıb gördü ki, yuvasında iki Sərçə var. Sərçələr öz yuvasına girmək istəyən Qaranquşa hücum edib onu dimdiklədi:*

*– Get buradan, get! Bu yuva artıq bizimdir.*

*Qaranquş heyrətləndi:*

*– Necə yəni bizimdir? Mən bu yuvanı qurmaq üçün günlərdir əziyyət çəkirəm. Görürəm, heç bir zəhmət çəkmədən hazır yuvaya sahib olmaq istəyirsiniz.*

*Çox keçmədən Qaranquşun dostu da ona qoşulub Sərçələri yuvadan qovdular.*

**İş dəftəri, səh. 21**

**1.** Məlumat vərəqi ilə tanış ol və tapşırığı yerinə yetir.

Şagirdlər tapşırıqda təqdim edilmiş məlumat vərəqi ilə tanış olurlar. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə istiqamət verir.

**Suallar:**

1. Məlumat vərəqi hansı heyvanlar haqqındadır?
2. Manqustlar nə ilə qidalanır?
3. Kral kobrası nə ilə qidalanır?
4. Manqustla kral kobrasının hansı oxşar xüsusiyyəti var?
5. Sizcə, bu heyvanların hansı digəri üçün təhlükəlidir? Hansı heyvan digərinin yeminə çevrilə bilər?

**Müəllimin nəzərinə!** Növbəti tapşırıqda şagirdlər əsas qəhrəmanları manqust və ilan olan hekayə yazacaqlar. Buna görə də müəllim şagirdlərin diqqətini vacib bir nüansa çəkməlidir. Manqustlar ilanlarla qidalanır. Manqustlar ilanların yuvasının ağzında dayanıb ovunu güdür. İlanlar manqustdan qorxur.

**İş dəftəri, səh. 21**

**2.** Əsas qəhrəmanları Manqust və İlan olan hekayə yaz. Çalış ki, hekayədə bu heyvanların əsas xüsusiyyətləri öz əksini tapsın.

**Şagirdlərin yazısı təxminən bu məzmunda ola bilər:**

*Bir gün Manqust ovçuların qurduğu tora düşmüşdü. Çox çalışsa da, tordan xilas ola bilmirdi. Ətrafda gəzişən Siçan tora yaxınlaşdı:*

*– Manqust qardaş, deyəsən, tordan çıxa bilmirsən? İndi mən sənə kömək edərəm.*

*Siçan iti dişləri ilə toru kəsib-doğradı. Tordan canını qurtaran Manqust Siçana təşəkkür etdi:*

*– Mənə etdiyin yaxşılığı heç vaxt unutmayacağam. Əgər çətinliyə düşsən, bil ki, sənə kömək edəcək bir dostun var.*

*Bu hadisədən xeyli vaxt keçmişdi. Mar adlı qəddar ilan Siçanın yuvasına dadanmışdı. Yuvanın ağzındakı kolların arasında gizlənib güdürdü. Gündə bir balasını tutub yeyirdi. Siçanın ailəsi yuvalarından çıxmağa qorxurdu. Axır ki, Siçan ilanın gözündən qaçıb özünü Manqusta yetirdi. Bütün olanları ona danışdı. Manqust zəhərli Marı yaxşı tanıyırdı. Acgözün, qəddarın biri idi. Manqust dostuna köməyə gəldi. Kənarda gizlənib Marı güdməyə başladı. Mar elə kolların arası ilə sürünüb Siçana hücum etmək istəyirdi ki, Manqust atılıb onu tutdu. Manqustu görən Marın gözləri qorxudan böyüdü. O yalvarmağa başladı:*

*– Manqust qardaş, yalvarıram, mənə rəhmin gəlsin. Burax gedim.*

*Manqust İlana dedi:*

*– Səni bir şərtlə buraxaram ki, bir daha heç bir heyvana yaxın getməyəsən.*

*O gündən sonra Mar meşədəki heyvanlardan uzaq gəzdi. Heç kimə dəyib-dolaşmadı.*

**Müəllimin nəzərinə!** Şagirdlər özlərinin yazdıqları hekayələri təqdim edirlər. Yazıda şəxsləndirilən obrazların adlarının

böyük hərflə yazıldığına diqqət etmək lazımdır.

Müəllim şagirdlərə sinifdənxaric oxu üçün Redyard Kiplinqin "Rikki-Tikki-Tavi" əsərini təklif edə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir. | Tap. 1, 2 (D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 3 (D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. 4 (D.) |
| Fikrini əsaslandırmaqla münasibət bildirir. | Tap. 5 (D.) |
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir. | Tap. 6 (D.) |
| Mövzuya uyğun olaraq bədii mətn yazır. | Tap. 1, 2 (İ.D.) |

# 3-cü DƏRS
# Şəkilçilərin yazılışı

**Təlim nəticələri:**

- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 37**

**1.** Şəkildə təsvir edilmiş varlıq adlarını cəmdə yazın.

Şagirdlər aşağı siniflərdə qazandıqları biliklərdən istifadə etməklə sözlərin düzgün yazılışını müəyyənləşdirirlər. Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları izah edir, bəzi şəkilçilərin fərqli tələffüz edildiyi üçün yazılışında səhvə yol verildiyini şagirdlərin nəzərinə çatdırır və onların düzgün yazılışını nümayiş etdirir.

**Dərslik, səh. 37**

**2.** Aşağıdakı sözləri kök və şəkilçiyə ayırın. Hansı sözlərin şəkilçiləri səhv yazılmışdır? Həmin sözləri düzgün yazın.

**Şagirdlər tapşırığı aşağıdakı qayda ilə izah edə bilərlər:**

gəzəcəm – sözün kökü *gəz(mək)*, hərəkət gələcək zamanda baş verir, yəni *-əcək* şəkilçisi istifadə edilməlidir. Söz "gəzəcəyəm" kimi yazılmalıdır. Dəftərrər – *dəftərlər*, dumannı – *dumanlı* kimi yazılmalıdır.

**Dərslik, səh. 37**

**3.** Hansı sözlərdə "l" samiti ilə başlayan şəkilçinin deyilişi ilə yazılışı fərqlənmir?

**Cavab:** dağlıq; budaqlar.

**Dərslik, səh. 37**

**4.** Fərqləndirilmiş sözləri düzgün yazın.

**Cavab:** necəsiniz, getmişdiniz, dadlı, gəlməmişdiniz, qarlı, günlərdə, gündən, gələcəyəm.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin bəzi samitlərin yazılışı haqqında aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 22**

**1.** Cəm şəkilçisinin düzgün yazıldığı variantı seç.

**Cavab:** D

**İş dəftəri, səh. 22**

**2.** Hansı sözdə "l" samiti ilə başlayan şəkilçinin deyilişi ilə yazılışı fərqlənir?

**Cavab:** C

**İş dəftəri, səh. 22**

**3.** Hər sütunda səhv yazılmış şəkilçini dairəyə al və düzgün yaz.

**Cavab:**
**2-ci sütun:** gedəcəyəm;
**3-cü sütun:** yaşlı;
**4-cü sütun:** bilirsiniz;
**5-ci sütun:** böyükdür.

**İş dəftəri, səh. 22**

**4.** Şəhv yazılmış sözləri düzəldərək cümlələri yenidən yaz.

**Cavab:** 1. Sərnişinlər vaqonlara mindilər.
2. Hava dumanlı olduğu üçün uçuşlar təxirə salınmışdı.
3. Günortadan sonra ağacları sulayacağam.
4. Oğlum, sən məni burada gözlə, gələcəyəm.

**İş dəftəri, səh. 22**

**5.** Fərqləndirilmiş sözləri kök və şəkilçiyə ayırmaqla düzgün yaz.

**Cavab:** ata-sın-dan; gəl-ir-lər; duz-lu.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 2-ci bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir (st. 4.1.1).
- Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir (st. 4.1.1).
- Leksik və qrammatik şəkilçiləri fərqləndirir (st. 4.1.1).
- Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir (st. 4.1.1).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 38**

**1.** Nöqtələrin yerinə buraxılmış şəkilçiləri əlavə etməklə cümlələri köçürün.

**Cavab:**
1. Günəş**in** ılıq şüaları ətrafı güclə isidirdi.
2. Azərbaycan muğamı bütün dünya**da** məşhur**dur**.
3. Göyün üzü**nü** qara bulud**lar** almışdı.
4. Dostlar çay**ın** kənar**ında** dincəlirdilər.
5. Kamal səhv**ini** anladı.

**Dərslik, səh. 38**

**2.** Nümunəyə əsasən sözlərin boş xanalara uyğunluğunu müəyyən edin.

**Cavab:**
Bilir – 2 b; burur – 2 c; şəkilçi: -ır$^{4}$.
Dadsız – 3 a; işsiz – 3 b; gücsüz – 3 ç; şəkilçi: -sız$^{4}$.
Kitabın – 4 a; suyun – 4 c; gülün – 4 ç; şəkilçi: -ın$^{4}$.

**Dərslik, səh. 38**

**3.** Sözlərə şəkilçilər artırın. Hansı şəkilçilər yeni söz yaratdı?

**Cavab:** 1. Qur**ucu**, qur**ğu**.
2. Dost**luq**.
3. Dəniz**çi**.
4. Bil**ik**.

**Dərslik, səh. 38**

**4.** Uyğunluğu müəyyən edin.

Şagirdlər əvvəlcə izahları oxuyur, variantlarda verilmiş söz köklərinin köməyi ilə izahın aid olduğu sözləri müəyyənləşdirirlər.

**Cavab:**

1. mərhəmətli;
2. başçı;
3. qızılı;
4. sürücü.

**Dərslik, səh. 38**

**5.** Şəkilçisi yanlış yazılmış sözləri müəyyən edib düzgün yazmaqla cümlələri köçürün.

**Cavab:** 1. yığışmısınız; 2. dediniz; 3. qızlar, işləri; 4. duzlu, bişirəcəyəm; 5. baxmısınız; 6. dənizlərdə; 7. uzundur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir. | Tap. 1 (D.) |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 2 (D.) |
| Leksik və qrammatik şəkilçiləri fərqləndirir. | Tap. 3, 4 (D.) |
| Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir. | Tap. 5 (D.) |

# 2-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 23-24-cü səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2 |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 3 |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tap. 4 |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tap. 5, 6, 7, 8 |

Bölmə **3**

# İDMAN VƏ İDMANÇILAR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Oyunlar və qaydalar** | | | | | |
| 1 | Basketbol | Oxu | 40-42 | 25 | 43-44 |
| 2 | Futbol | Dinləmə<br>Yazı (esse) | 43 | 26 | 44-46 |
| 3 | İsmin halları, mənsubiyyət şəkilçiləri | Yazı (dil qaydaları) | 44 | 27 | 46-48 |
| 2-ci fəsil. **İradənin gücü** | | | | | |
| 4 | Xatirələrim | Oxu | 45-47 | 28 | 48-50 |
| 5 | Olimpiya oyunlarının tarixindən | Dinləmə | 48 | 29 | 51-52 |
| 6 | Sifətin müqayisə dərəcələri | Yazı (dil qaydaları) | 49 | 30 | 52-53 |
| 3-cü fəsil. **Çempionlar** | | | | | |
| 7 | Divar qəzeti | Oxu | 50-51 | 31 | 54-55 |
| 8 | Əlbəyaxa döyüş | Danışma | 52-53 | 32 | 55-56 |
| 9 | Zərf | Yazı (dil qaydaları) | 54-55 | 33 | 56-57 |
| 10 | Ümumiləşdirici təkrar | | 56 | 34-35 | 58-59 |

# 1-ci fəsil
# OYUNLAR VƏ QAYDALAR

## 1-ci DƏRS
## Basketbol

**Təlim nəticələri:**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).
• Verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin adına və titul səhifəsindəki suallara yönəldir.

**Dərslik, səh. 39**

**1.** Şəkildə gördüyünüz idman yarışları haqqında danışın.
**2.** Hansı komanda oyunlarını tanıyırsınız?
**3.** Hansı xüsusiyyət komanda oyunlarında qələbə qazanmağa kömək edir?

**Danışma**
Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər əsasında yerinə yetirilir. Müəllim danışmağa həvəsləndirmək üçün yönəldici suallardan istifadə edir. Bu bölmədə müxtəlif fənlər arasında inteqrasiya aparılır. Şagirdlər şəkillər üzrə danışarkən digər fənlərdən aldıqları, eləcə də idmanla bağlı bilgilərinə istinad edirlər.

**Dərslik, səh. 40**

**1.** Hansı oyunu sevirsiniz? Bu oyunun qaydaları haqqında danışın.

Tapşırığın məqsədi şagirdlərin diqqətini qaydalara yönəltməkdir. Şagirdlər sevdikləri oyunun qaydaları haqqında danışırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər bir oyunun bütün qaydalarını sadalamaya bilərlər. Bir, iki qaydasını xatırlamaları motivasiya mərhələsi üçün kifayət edir.

**Söz ehtiyatı**
**Dərslik, səh. 41. "Söz mücrüsü" rubrikası**

Söz mücrüsü
düzbucaqlı • heç-heçə • sahə • lövhə • rəqib

**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. "Basketbol" informativ mətn olduğundan qeyd götürməklə oxu üsulundan istifadə etmək tövsiyə olunur. Müəllim şagirdlərin diqqətini mətnin adına və yarımbaşlıqlarına yönəldir.

**Söz mücrüsü.** Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 41**

**2.** Verilmiş məlumata əsasən idman növlərinin adlarını yazın və şəkillərlə uyğunlaşdırın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir.
**Cavab:** futbol – 2; voleybol – 3; həndbol – 1.

**Oxuyub-qavrama**
**Dərslik, səh. 42**

**3.** Mətnə əsasən suallara cavab verin.

**"Nə anladın?" rubrikasında** verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Müəllimin nəzərinə!** Şagirdlər suallara cavab verərkən mətnin bütün elementlərinə, o cümlədən mətnə çəkilmiş illüstrasiyaya və s.-yə istinad etməlidirlər.

**Dərslik, səh. 42**

**4.** Cümlələri mətnin məzmununa əsasən tamamlayın.

Şagirdlər tapşırıqda verilmiş cümlələri mətnin məzmununa əsasən tamamlayırlar. Bu tapşırıq şagirdlərin səbəb-nəticə əlaqələrini necə müəyyənləşdirdiklərini yoxlamağa imkan yaradır.

**Cavab:** 1. Basketbol oyununda top rəqib komandaya o zaman keçir ki, oyunçu topu 24 saniyə əlində saxlayıb, yəni müəyyən olunmuş vaxt bitib.

2. Bəzən oyun üçün əlavə vaxt verilir, çünki matç heç-heçə bitib.

3. Bəzi oyunçular oyundan kənarlaşdırılır, çünki oyunçu 5 dəfə qaydanı pozub.

**Dərslik, səh. 42**

**5.** Cədvələ əsasən basketbol və voleybol oyunlarını müqayisə edib danışın.

Tapşırıq şagirdlərdə qrafik informasiyanın rabitəli cümlələr şəklində təqdimetmə bacarığını inkişaf etdirir.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:** *Basketbol və voleybol topla oynanılan idman növlərindəndir. Bu oyunların ikisi də Amerika Birləşmiş Ştatlarında yaranıb. Hər iki oyunun yaradıcısı eyni peşənin nümayəndəsidir, yəni idman müəllimidir. Lakin Ceyms Neymsmit basketbol oyununu daha əvvəl, yəni 1891-ci ildə düşünüb. Uilyam Morqan isə voleybol oyununu 4 il sonra yaradıb. Bu oyunların ikisi də komanda oyunudur və düzbucaqlı formada olan xüsusi meydançalarda oynanılır. Voleybol meydançası nisbətən kiçikdir. Həmçinin voleybol topunun çəkisi də basketbol topuna nisbətən azdır. Komandalarda oyunçuların sayı da fərqlidir. Basketbol komandasında 5, voleybol komandasında isə 6 oyunçu iştirak edir. Oyunçuların məqsədi də fərqlidir. Basketbolçular rəqib komandanın səbətinə daha çox top atmağa çalışırlar, voleybolçular isə topu torun üzərindən rəqib komandanın meydançasında yerə atmaq üçün mübarizə aparırlar.*

**İş dəftəri, səh. 25**

**1.** Sevdiyin, özünün yaratdığın və yaxud istənilən oyun haqqında məlumatları cədvəlin uyğun bölmələrinə yaz.

Tapşırıq şagirdlərin təfəkkürünün, yaradıcılıq bacarıqlarının inkişafına yönəlib. Eyni zamanda verbal məlumatları qrafik informasiya şəklində təqdimetmə bacarıqlarına yiyələnirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 2 (İ.D.) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 4 (D.) |
| Verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edir. | Tap. 5 (D.), tap. 1 (İ.D.) |

# 2-ci DƏRS
# Futbol

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
• Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).
• Fikrini əsaslandırmaqla münasibət bildirir (st. 2.1.2).
• Esse yazarkən fikirlərini arqumentlərlə əsaslandırır (st. 4.1.3).

**Dinləmə**

**Dərslik, səh. 43**

**1.** “Futbol” mətnini dinləyin. Aşağıdakı suallara cavab tapmaq məqsədilə qeydlər götürün.

Müəllim “Futbol” adlı mətni səsləndirir.

***Futbol***

*Futbol dünyanın ən populyar oyunudur. Yəqin ki, futbol oyunlarını seyr etmisiniz. Bəs, görəsən, bu oyunun yaranma tarixçəsi necədir? Nə üçün komandada oyunçuların sayı 11 nəfər olmalıdır?*

*Əvvəllər futbol oyununun xüsusi qaydaları hazırlanmamışdı. Bu da oyunçular arasında mübahisələrin yaranmasına səbəb olurdu. Belə olduqda kral VIII Henrix 1542-ci ildə futbolun oynanılmasını yasaq edir. Kral deyirdi: “Bu cür vəhşi, qanlı və düşmənçilik yaradan oyunu bir daha heç kəs oynamayacaq!”.*

*Bu qadağa 1842-ci ilədək qüvvədə olmuşdur. 1842-ci ildə qadağa ləğv edilmişdir. Bir müddət sonra 1848-ci ildə Kembric Universitetinin tələbələri futbol oyununun qaydalarını tərtib etdilər. Bu qaydalar da, demək olar ki, humanizmə tam*

*cavab vermirdi: rəqib oyunçuya badalaq vurmaq, əllə tutub saxlamaq, ayağına təpiklə vurmaq yasaq deyildi.*

*Futbolun yaranma tarixi 1863-cü il hesab olunur. Çünki həmin ildə ilk Futbol Assosiasiyası yaradılıb, yeni qaydalar tətbiq olunub. Burada Kembric tələbələrindən qalan yeganə qayda var idi, o da oyunçuların sayının 11 nəfər olması. Həmin dövrdə Kembric Universitetinin yataqxanasında hər otaqda 11 tələbə qalırdı. Universitetdə isə tələbələr otaqlar arasında futbol yarışması keçirirdilər.*

*Komandada oyunçuların sayının 11 olması haqqında başqa bir tarixçə də mövcuddur. Deyilənlərə görə, komandada oyunçuların 11 nəfər olması haqqında qərarı ilk dəfə “Şeffild” futbol klubunun oyunçuları veriblər. “Şeffild” futbol klubu özünün qış məşqlərini “Kriket” klubunda edirdi və onlar bu məşqləri “Kriket” klubunun üzvləri ilə keçirirdilər. “Kriket” komandasının da üzvləri 11 nəfərdən ibarət olurdu.*

**Cavab:** 1. Əvvəllər futbol oyununda xüsusi qaydalar olmadığına görə oyunçular arasında mübahisələr yaranırdı. Kral VIII Henrix oyunu buna görə qadağan etmişdi.

2. Bu qadağa 1842-ci ilədək qüvvədə olmuşdur. 1842-ci ildə qadağa ləğv edilmişdir.

3. Futbol oyununun ilk qaydaları 1848-ci ildə tərtib edilmişdi.

4. Bu qaydaları Kembric Universitetinin tələbələri hazırlamışdılar.

**Dərslik, səh. 43**

**2.** “Futbol” mətninə aid “Söz mücrüsü”ndən uyğun sözləri yazmaqla cümlələri tamamlayın.

Söz ehtiyatının möhkəmləndirilməsinə yönəldilmiş bu tapşırığı yerinə yetirməklə şagirdlər yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1. Bizim **yeganə** çıxış yolumuz mübarizə aparmaqdır.

2. Oyun çoxlu adamın iştirakı ilə, yəni **kütləvi** şəkildə keçirildi.

3. Olimpiya oyunlarının yaranma **tarixini** bilirsinizmi?

4. Kral futbol oyununu keçirməyi **yasaq** etdi.

**Dərslik, səh. 43**

**3.** Dinləmə mətninə istinad edərək cümləri tamamlayın.

**Cavab:** 1. Əvvəllər futbol oyununun xüsusi qaydaları yox idi, ona görə də **oyunçular arasında mübahisələr yaranırdı.**

2. Qaydaların olmaması mübahisələrin yaranmasına səbəb olurdu, ona görə də **kral VIII Henrix futbolun oynanılmasını yasaq etdi.**

3. Futbolun yaranma tarixi 1863-cü il hesab olunur, çünki **həmin ildə ilk Futbol Assosiasiyası yaradılıb, yeni qaydalar tətbiq olunub.**

**Dərslik, səh. 43**

**4.** Nə üçün Kembric Universitetinin tələbələrinin tərtib etdikləri qaydalar mükəmməl hesab edilmirdi? Mətnə əsasən fikirlərinizi əsaslandırın.

Tapşırıq şagirdlərin hər hansı bir məsələ haqqında fikir söyləmək və arqumentlərlə fikrini əsaslandırmaq bacarığını inkişaf etdirir.

**Cavab:** Bu qaydalar da, demək olar ki, humanizmə tam cavab vermirdi: rəqib oyunçuya badalaq vurmaq, əllə tutub saxlamaq, ayağına təpiklə vurmaq yasaq deyildi.

**Danışma**

**Dərslik, səh. 43**

**5. Müzakirə.** Kral VIII Henrixin qərarına münasibət bildirin. Sizcə, kral futbol oyununu qadağan etməkdə haqlı idimi? Dinləmə mətnindəki məlumatlara əsasən fikrinizi əsaslandırın.

Şagirdlər tapşırıqda qoyulmuş sual ətrafında müzakirə aparır, əsaslandırma gətirərək fikir yürüdürlər. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri istiqamətləndirə bilər. Müzakirə zamanı şagirdlər mövzu ilə bağlı zidd fikirlər söyləyə bilərlər. Əsas odur ki, söylədikləri fikri arqumentlərlə əsaslandırıb qarşı tərəfi inandırmağı, fikrindən daşındırmağı bacarsınlar.

**İş dəftəri, səh. 26**

**1.** “Futbol” mətnindən götürülmüş qeydlər əsasında sxemi tamamla.

Şagirdlər dinlədikləri “Futbol” mətninə əsasən yarımbaşlıqlara uyğun məlumatlar yazırlar.

**Oyunun yasaq olunması**

Əvvəllər futbol oyununun xüsusi qaydaları yox idi. Oyunçular arasında tez-tez mübahisələr yaranırdı.

**Oyunun yaranma tarixçəsi**

Futbolun yaranma tarixi 1863-cü il hesab olunur. Çünki həmin ildə ilk Futbol Assosiasiyası yaradılıb, yeni qaydalar tətbiq olunub.

**Niyə 11?**

Həmin dövrdə Kembric Universitetinin yataqxanasında hər otaqda 11 tələbə qalırdı. Tələbələr futbol yarışmasını otaqlar arasında keçirirdilər. Buna görə də komandada 11 oyunçu olurdu.

Komandada oyunçuların sayının 11 olması "Şeffild" futbol klubu ilə də əlaqələndirilir. Futbol komandası özünün qış məşqlərini "Kriket" klubunda bu klubun üzvləri ilə keçirirdilər. "Kriket" komandasının isə üzvləri 11 nəfərdən ibarət olurdu.

**İş dəftəri, səh. 26**

**2.** İzahların və şəkillərin köməyi ilə krossvordu həll et.

Tapşırıq vasitəsilə şagirdlərin idman mövzusunda söz ehtiyatını yoxlamaq mümkündür. Eyni zamanda tapşırıq məntiqi düşüncənin inkişafına yönəlib.

**Cavab:** 1. basketbol; 2. futbol; 3. kriket;
4. reqbi; 5. voleybol; 6. həndbol.

**Yazı**

**Dərslik, səh. 43**

**6.** Aşağıdakı mövzu üzrə esse yazaraq öz mövqeyinizi bildirin. Arqumentlər gətirməklə fikrinizi izah edin.

**Müəllimin nəzərinə!** Yazı prosesindən əvvəl şagirdləri esse yazının strukturu ilə tanış etmək lazımdır. Esse yazının giriş hissəsində şagirdlər mövzu haqqında mövqelərini bildirirlər.

**Oyunlarda qaydaların olması mütləqdirmi?**

Şagirdlərin tapşırıqda qoyulmuş suala cavabı təsdiq və ya inkar xarakteri daşıya bilər.

**Essenin giriş hissəsi təxminən bu məzmunda ola bilər:**

*Təsəvvür edin ki, futbol oynadığınız komandanın iştirakçıları oyunun qaydalarını bilmirlər. Siz bu oyunu necə təsəvvür edirsiniz? Belə bir oyundan zövq alarsınızmı? Düşünürəm ki, hər bir oyun müəyyən qaydalar əsasında keçirilməlidir.*

Essenin əsas hissəsində şagirdlər öz mövqelərini izah edir, həyatdan nümunələr gətirməklə əsaslandırırlar.

**Essenin əsas hissəsi təxminən bu məzmunda ola bilər:**

*Tarixdə belə bir fakt var ki, kral VIII Henrix 1542-ci ildə futbolun oynanılmasını yasaq edir. Çünki həmin dövrdə futbol oyununun qaydaları müəyyənləşdirilməmişdi. Bu da öz növbəsində oyunçular arasında davalara səbəb olurdu. Kral deyirdi ki, bu cür vəhşi, qanlı və düşmənçilik yaradan oyun heç kəsə lazım deyil.*

*Boşuna deməyiblər ki, idman insanı intizamlı olmağa istiqamətləndirir. Çünki idmançı qaydalara əməl etməyə alışır. Qaydalar insanlar arasında təhlükəsizliyi də təmin edir. Qaydalara əməl edən oyunçular mübahisə etmirlər.*

Essenin nəticə hissəsində məlumatlar ümumiləşdirilir.

**Essenin nəticə hissəsi təxminən bu məzmunda ola bilər:**

*Beləliklə, deyə bilərik ki, həqiqətən də, ədalət, nizam-intizam olan yerdə sülh, əmin-amanlıq olacaq.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1 (D.), tap. 1 (İ.D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.), tap. 2 (İ.D.) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 3, 4 (D.) |
| Fikrini əsaslandırmaqla münasibət bildirir. | Tap. 5 (D.) |
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tap. 6 (D.) |

# 3-cü DƏRS
# İsmin halları

**Təlim nəticələri:**

- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 44**

**1.** Şəkillərin məzmununa uyğun olaraq cümlələri tamamlayın.

Şagirdlərin diqqəti tapşırıqda verilmiş şəkillərə cəlb olunur. Şagirdlər şəkillərin məzmununa uyğun olaraq cümlələrdəki bəzi sözlərin şəkilçilərini bərpa edirlər. Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

**Cavab:** Müəllim kitabı Lalə**yə** verdi.
Rəsul kitabı rəf**dən** götürdü.
Nənə kreslo**da** əyləşib.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Şagirdlərə ismin halları haqqında nümunələrlə izah verir.

**Dərslik, səh. 44**

**2.** Sualların yerinə "həkim" sözünü uyğun şəkildə dəyişib cümlələri köçürün.

Müəllim şagirdlərə tapşırıqda verilmiş cümlələri oxumaq üçün vaxt verir. Şagirdlər cümlədəki suallara cavab olaraq "həkim" sözünün müxtəlif cür şəkilçi ilə işləndiyinə diqqət edirlər. Sonra bir neçə şagird növbə ilə lövhədə müxtəlif şəkilçilər qəbul etmiş "həkim" sözünü yazaraq tərkibindəki şəkilçini ayırır. Şagirdlərin sözləri lövhədə alt-alta yazması məqsədəuyğundur. Müəllim eyni sözün müxtəlif şəkilçilər qəbul edə bilməsini şagirdlərin diqqətinə çatdırır.

**Cavab:** 1. Xəstələri **həkim** müalicə edir.
2. Xəstə **həkimin** otağına daxil oldu.
3. Xəstə **həkimə** müraciət etdi.
4. Xəstə **həkimi** çağırdı.
5. Analizin cavabları **həkimdə** qalıb.
6. Xəstəliyin səbəbini **həkimdən** soruş.

**Dərslik, səh. 44**

**3. Qruplarla iş.** Aşağıdakı isimləri hallandırıb cümlədə işlədin.

Tapşırıqda hər qrupun üç sözü hallandırması nəzərdə tutulub. Müəllim qrupların fəaliyyətini aşağıdakı nümunədə göstərildiyi kimi qura bilər. *Nümunə:*

1. Adlıq hal – rəssam (kim?). Rəssam şəkil çəkdi.
2. Yiyəlik hal – rəssamın (kimin?). Rəssamın əsərləri ilə tanış oldum.
3. Yönlük hal – rəssama (kimə?). Rəssama sual verdim.
4. Təsirlik hal – rəssamı (kimi?). Rəssamı təbrik etdilər.
5. Yerlik hal – rəssamda (kimdə?). Rəssamda müxtəlif boyalar var.
6. Çıxışlıq hal – rəssamdan (kimdən?). Rəssamdan fırçasını istədim.

**Müəllimin nəzərinə!** Təqdimat zamanı şagirdlərin hallandırdıqları sözlərin bitişdirici samit qəbul etməsi ilə bağlı şərh verməsi tövsiyə olunur.

**Dərslik, səh. 44**

**4.** Nöqtələrin yerinə uyğun sözləri əlavə edin.

**Cavab:**

| | |
|---|---|
| **mənim** kitabım; | **onun** kölgəsi; |
| **bizim** məktəbimiz; | **sizin** dostunuz; |
| **sənin** pencəyin; | **onların** dostları. |

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Şagirdlərə mənsubiyyət şəkilçiləri haqqında nümunələrlə izah verir.

**Dərslik, səh. 44**

**5.** Aşağıdakı isimləri mənsubiyyətə görə dəyişin.

Tapşırıqda hər qrupun üç sözü mənsubiyyətə görə dəyişdirməsi nəzərdə tutulub. Müəllim qrupların fəaliyyətini aşağıdakı nümunədə göstərildiyi kimi qura bilər. *Nümunə:*

**I qrup:** ürək, baba, qulaq

| | |
|---|---|
| mənim ürəyim; | bizim ürəyimiz; |
| sənin ürəyi; | sizin ürəyiniz; |
| onun ürəyi; | onların ürəyi. |

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 27**

**1.** İsimləri cədvəl üzrə qruplaşdır.

**Cavab:**
**Adlıq hal:** şagird, futbol, hakim.
**Yiyəlik hal:** qızın, maşının, evin.
**Yönlük hal:** boşqaba, çaya, əsgərə.
**Təsirlik hal:** həyəti, çiçəyi, həkimi.
**Yerlik hal:** meydanda, fincanda, parkda.
**Çıxışlıq hal:** küləkdən, müəllimdən, Qubadan.

**İş dəftəri, səh. 27**

**2.** Göy rənglə verilmiş sözləri ismin uyğun halında işlətməklə cümləni tamamla.

**Cavab:** 1. Xəyalə **hekayəni** danışdı.
2. Oyunçu **topu səbətə** atdı.
3. Səməd **kitabı çantadan** götürdü.

**İş dəftəri, səh. 27**

**3.** Nöqtələrin yerinə uyğun şəkilçiləri əlavə et.

**Cavab:** mən**im** qardaş**ım**
sən**in** qardaş**ın**
o**nun** qardaş**ı**
biz**im** qardaş**ımız**
siz**in** qardaş**ınız**
onlar**ın** qardaş**ı**

**İş dəftəri, səh. 27**

**4.** Cümlələrdə mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərin altından xətt çək.

**Cavab:** 1. Ramizin qardaşı futbolçu idi.
2. Mənim pişiyim topla oynamağı çox sevir.
3. Maşının qapısı açıq qalmışdı.
4. Sizin ailəniz neçə nəfərdən ibarətdir?
5. Yaşıl karandaşım yox idi.
6. Sənin kitabın sinifdə qaldı.
7. Məktəbimiz yeni təmir edilib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə isimləri uyğun halda işlədir. | Tap. 1, 2, 3 (D.), tap. 1, 2 (İ.D.) |
| Cümlədə isimləri uyğun mənsubiyyət şəkilçisi ilə işlədir. | Tap. 4, 5 (D.), tap. 3, 4 (İ.D.) |

# 2-ci fəsil
# İRADƏNİN GÜCÜ

## 1-ci DƏRS
## Xatirələrim

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
- Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.3).

**Danışma**

**Dərslik, səh. 45**

**1.** Paralimpiya haqqında nə bilirsiniz? Bu idman oyunlarında kimlər iştirak edirlər?

Tapşırığın məqsədi şagirdlərin diqqətini mövzuya yönəltməkdir.

**Müəllimin nəzərinə!** Paralimpiya oyunları əlilliyi olan insanlar arasında keçirilir. Dünyada Paralimpiya hərəkatının tarixi 1948-ci ildə Londonda, Yay Olimpiya Oyunlarının açılış mərasimi ilə başlanır. Həmin mərasimdə ilk dəfə əlil arabasından istifadə edənlər arasında Böyük Britaniyanın 1-ci milli yarışları keçirilmişdi.

**Söz ehtiyatı**

**Dərslik, səh. 45, "Söz mücrüsü" rubrikası**




**Mətnlə iş.** "Xatirələrim" müəllifin xatirələrini əks etdirən memuar xarakterli mətndir. Məşhur idmançı Ade Adepitanın müasiri olduğu insanlar

və iştirakçısı olduğu hadisələr barədə xatirələrini əks etdirir.

**Söz mücrüsü.** Müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 47**

**2.** Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun ifadələri əlavə edib cümlələri tamamlayın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər "Söz mücrüsü"ndən uyğun sözləri seçərək cümlələri tamamlayırlar. Bununla da yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1. Təyyarələr düşmən üzərinə **şığıdı.**

2. Futbol **azarkeşlərinin** səsi bütün stadionu bürümüşdü.

3. Sonuncu məğlubiyyətdən sonra komandamız lap **ruhdan düşdü.**

4. Şəhərin gözəlliyi turistləri **valeh etdi.**

**Dərslik, səh. 47**

**3.** Mətnlə bağlı suallara cavab verin.

**"Nə anladın?" rubrikasında** verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Cavab:** 1. Adenin xatirələrində doğulduğu yer haqqında yalnız yaşıl meşələr qalmışdı.

2. Ade əvvəllər futbol oynamamışdı. Çünki onun ayağına dəmir dayaq taxılmışdı. O da düşünürdü ki, belə vəziyyətdə futbol oynaya bilməz.

3. Sinif yoldaşları onu futbol oynamağa dəvət edirlər. Daha sonra atası ilə paralimpiyaçıların basketbol yarışına gedir. İdmançıların oyunu onu valeh edir.

4. Olimpiya yarışlarında qalib olmaq.

**Dərslik, səh. 47**

**4.** Mətndə hansı epizodlar Adeyə aid aşağıdakı xüsusiyyətləri əks etdirir?

Şagirdlər Adeyə aid xüsusiyyətləri mətndəki müvafiq epizodları seçərək əsaslandırmalıdırlar.

**Cavab: İradəli.** Ade bütün problemlərinə baxmayaraq əzmi, iradəsi hesabına onların öhdəsindən gəlir. Fiziki məhdudiyyəti ona uğur qazanmaqda mane ola bilmir.

**Nizam-intizamlı.** Ade özü üçün ciddi rejim qurmuşdu: hər gün üç saat məşq edirdi.

**Məqsədyönlü.** Məqsədinə çatmaq üçün əlindən gələni edir, təslim olmur.

**Dərslik, səh. 47**

**5. Müzakirə.** Atasının Adeyə verdiyi məsləhətinə münasibət bildirin. Fikrinizi əsaslandırın.

Şagirdlər müzakirə aparır, əsaslandırma gətirərək fikirlər yürüdürlər. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri istiqamətləndirə bilər.

**Dərslik, səh. 47**

**6.** Qeydlər götürməklə Ade Adepitan haqqında mətni dinləyin. Suallara cavab verin.

Tapşırıq vasitəsilə şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamaq mümkündür.

**Dinləmə**

***Ade Adepitan***

*Ade Adepitan ingilis televiziya aparıcısı, basketbol oyunu üzrə Olimpiya iştirakçısıdır.*

*Adepitan 27 mart 1973-cü ildə Nigeriyada doğulmuşdu. Uşaq vaxtı keçirdiyi xəstəlik nəticəsində ayaqları gücünü itirmişdi. Əvvəllər ayağına taxılmış dayağın köməyi ilə gəzsə də, sonralar yalnız araba ilə hərəkət edə bilirdi.*

*Adenin üç yaşı olarkən ailəsi Böyük Britaniyaya köçür. Ade ilk təhsilini Londonda alır. Hələ uşaq yaşlarından məşhur idmançı olmaq arzusu ilə yaşayır.*

*Onun üzvü olduğu Böyük Britaniya basketbol komandası 2004-cü ildə keçirilən Yay Paralimpiya Oyunlarında bürünc, 2005-ci ildə Paralimpiya üzrə dünya çempionatında qızıl medal qazanıb.*

**Suallar:**

• **Hansı məlumatlar "Xatirələrim" mətnində öz əksini tapıb?**

Ailəsi ilə birlikdə İngiltərəyə köçür.

Uşaq vaxtı xəstəlik keçirir.

• **Ade Adepitan haqqında daha hansı məlumatları aldınız?**

Televiziyada aparıcı kimi fəaliyyət göstərir. 2004-cü ildə keçirilən Yay Paralimpiya Oyunlarında bürünc, 2005-ci ildə Paralimpiya üzrə dünya çempionatında qızıl medal qazanıb.

**Dinləmə**

**Dərslik, səh. 47**

**7.** Götürdüyünüz qeydləri əlavə etməklə "Xatirələrim" mətnini genişləndirib danışın.

Tapşırıq şagirdlərin danışma bacarığının inkişafına yönəlib.

**Dərslik, səh. 47**

**8.** Esse yazaraq atasının Adeyə verdiyi məsləhət haqqında öz mövqeyinizi bildirin. Arqumentlər gətirməklə fikrinizi izah edin. Məğlubiyyət insanı ruhdan salır, yoxsa yeni qələbələr üçün təkan verir?

**Müəllimin nəzərinə!** Şagirdlər artıq esse yazının strukturu ilə tanış olublar. Yenidən essenin strukturu haqqında xatırlatma etmək tövsiyə edilir.

**Şagirdlər təxminən bu məzmunda esse yaza bilərlər:**

***Məğlubiyyət insanı ruhdan salır, yoxsa yeni qələbələr üçün təkan verir?***

*İnsan qələbə qazanmaq, uğura imza atmaq üçün cəhd edir. Amma məqsədə gedən yol sadəcə uğurdanmı keçir? Bu yolda insan heç məğlubiyyətlə qarşılaşmırmı? Bəs məğlubiyyət insanı ruhdan salır, yoxsa qələbə qazanmağa təkan verir?*

*Düşünürəm ki, məğlubiyyət yeni güc verir. Çünki uzaqda olana əl çatması üçün daha çox səy göstəririk. Məsələn, Adenin atası ona məsləhət verəndə deyirdi: "Ade, unutma, məğlubiyyət yeni qələbələr üçün təkandır. Təslim olma, yenidən cəhd et və daha yaxşı et". Həqiqətən də, Ade bütün çətinliklərə baxmayaraq qarşısına qoyduğu məqsədə çatdı. Dünyanın ən məşhur basketbolçusuna çevrildi.*

*Bütün bunları nəzərə alaraq deyə bilərik ki, məğlubiyyət yeni qələbələrin başlanğıcıdır.*

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin oxuyub-qavrama bacarıqlarının inkişafına yönəldilib.

**İş dəftəri, səh. 28**

**1.** Cümlələri "Xatirələrim" mətninin məzmununa əsasən tamamla.

**Cavab:** 1. Məktəbin ilk günü Adenin həyəcanı yox oldu, çünki **onlara tez alışdı. Sanki əvvəldən bir sinifdə oxuyurdular.**

2. Sinif yoldaşları futbol oynamağa dəvət etdikdə o, çox həyəcanlandı, çünki **ayağına taxılmış dayaqla necə futbol oynayacağını bilmirdi.**

3. Futbol oyununda iştirakı və qələbəsi Adenin həyatını tamamilə dəyişdi, belə ki, **artıq Ade idman meydançasından əl çəkmirdi.**

4. Basketbol məktəbinə yazılan Ade özü üçün ciddi rejim qurmuşdu, belə ki, **hər gün üç saat məşq edirdi.**

**İş dəftəri, səh. 28**

**2.** Yarımbaşlıqlara uyğun "Xatirələrim" mətninin qısa məzmununu yaz.

Şagirdlər dinlədikləri "Xatirələrim" mətninə əsasən yarımbaşlıqlara uyğun məlumatlar yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.) |
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 4, 5 (D.) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 6 (D.), tap. 1, 2 (İ.D.) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. 7 (D.) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tap. 8 (D.) |

# 2-ci DƏRS
# Olimpiya oyunlarının tarixindən

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Esse yazarkən fikirlərini arqumentlərlə əsaslandırır (st. 4.1.3).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).

**Dinləmə**

***Olimpiya oyunlarının tarixindən***

*Çox güman ki, siz Beynəlxalq Olimpiya Oyunları haqqında çox eşitmisiniz. Bu idman yarışı növbə ilə dünyanın müxtəlif ölkələrində keçirilir. Olimpiya idman yarışlarının tarixi çox qədimdir.*

*Qədim Yunanıstanın Olimpiya şəhərində baş tanrı Zevsin şərəfinə xüsusi yarışlar keçirilirmiş. Bu yarışlar dörd ildən bir 5 gün davam edirdi. Yarışlarda qədim yunanlar müxtəlif idman növlərində güclərini sınayırdılar. Yarışlar keçirilən müddətdə ölkədə müharibə aparılmamalı idi. Buna görə Olimpiya oyunları sülhün, barışın rəmzi hesab edilir. Müasir dövrdə də olimpiadalar 4 ildən bir keçirilir, lakin beş gün deyil, daha uzun müddət davam edir. Axı müasir olimpiadalarda bir çox ölkələrdən gələn idmançılar iştirak edir. Bundan başqa, olimpiadaların proqramına getdikcə daha çox idman növü daxil edilir.*

*Olimpiya oyunlarının şüarında qaçış, hündürlüyə tullanma və ağırlıq qaldırma idman növlərinin işarələri var. Qədim Olimpiya oyunlarında qaliblər qızıl, gümüş, bürünc medallarla deyil, müqəddəs zeytun budaqlarından hörülmüş çələnglə mükafatlandırılırdılar. Bir-birinə ardıcıl keçirilmiş göy, sarı, qara, yaşıl və qırmızı rəngli halqalar Olimpiya oyunlarının əsas simvoludur. Bu rənglər bütün ölkələrin bayraqlarında istifadə olunan rənglərdir. Bunlar əsl dostluq rəmzidir. Hər olimpiadaya Olimp dağında alovlandırılmış məşəl gətirilir və bu məşəl yarışların sonunadək yanır.*

**İş dəftəri, səh. 29**

**1.** Uyğunluğu müəyyən et.

**Cavab:** 1 – C; 2 – A; 3 – B.

**Dərslik, səh. 48**

**1.**"Olimpiya oyunlarının tarixindən" mətnini dinləyin. Mətnə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edin.

**Cavab:** 1. doğru; 2. yanlış; 3. doğru; 4. yanlış.

**Dərslik, səh. 48**

**2.** Mətnin məzmununa əsasən suallara cavab verin.

**Cavab:**

1. Yarışlar keçirilən müddətdə ölkədə müharibə aparılmamalı idi.

2. Çünki olimpiadaların proqramına getdikcə daha çox idman növü daxil edilir.

3. Bu rənglər bütün ölkələrin bayraqlarında istifadə olunan rənglərdir. Bunlar əsl dostluq rəmzidir.

**Dərslik, səh. 48**

**3.** Şəkillərdə hansı Olimpiya simvolları təsvir edilmişdir? Dinləmə mətninə əsasən məlumatların hansı Olimpiya simvoluna aid olduğunu müəyyən edin.

**Cavab:**

1. **Olimpiya məşəli** – Olimpiya oyunlarının vətəninin Yunanıstan olduğuna işarə edir.

2. **Olimpiya çələngi** – qaliblərin zeytun budaqlarından hörülmüş çələnglə mükafatlandırıldığını bildirir.

3. **Olimpiya şüarı** – müxəlif idman növləri üzrə yarışların keçirildiyini ifadə edir.

4. **Olimpiya halqaları** – dünyanın bütün ölkələrini əhatə etdiyini bildirir.

**Yazı**

**Dərslik, səh. 48**

**4. Debat.** Sizcə, yarışlarda qələbə qazanmaq vacibdir, yoxsa iştirak etmək kifayətdir? Bu mövzuda esse yazın.

Əvvəlcə şagirdlər tapşırıqda qoyulmuş sual ətrafında şifahi şəkildə müzakirə aparır, əsaslandırma gətirərək fikirlər yürüdürlər. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri istiqamətləndirə bilər. Daha sonra isə bu mövzuda esse yazırlar.

**Şagirdlər təxminən aşağıdakı məzmunda esse yaza bilərlər:**

*Lap qədim dövrlərdən dünyada müxtəlif yarışlar keçirilir. Bu yarışlarda müxtəlif idman növləri üzrə idmançılar iştirak edirlər. Hər bir idmançı isə yarışlara qalib olmaq üçün qoşulur. Bəs yarışlarda qələbə qazanmaq vacibdirmi?*

*Məncə, qələbə qazanmaq arzusu insanı məqsədi uğrunda mübarizəyə həvəsləndirir. Hər bir idmançının qoşulduğu yarışda qalib olmaq arzusu təbiidir və zəruridir. İnsan arzuya, məqsədə çatmaq üçün mübarizə aparır, çalışır. Lakin bəzən bəxti gətirməyən idmançılar da olur. Müxtəlif səbəblərdən, həyəcandan, zədələndiyindən məğlub olur. Məğlubiyyət insanı ruhdan salmamalıdır. Əksinə, növbəti sınaq üçün daha da həvəsləndirməlidir.*

*Ümumiyyətlə, insan qalib olduğu kimi, uduzduğunu qəbul etməyi də bacarmalıdır.*

**İş dəftəri, səh. 29**

**2.** Məlumatı oxu və sualları cavablandır.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığının inkişafına yönəlib.

**Cavab:**

**Marafon qaçışının yaranması hansı tarixi hadisə ilə bağlıdır?**

Marafon qaçışının yaranması yunanlar və iranlılar arasında uzunmüddətli müharibə ilə əlaqədardır.

**Niyə bu idman növü “marafon” adlandırılıb?**

Həlledici döyüş Marafon adlı bir kənddə baş verir. Marafon döyüşündə yunanlar qələbə qazanırlar.

**Nə üçün marafon yarışında qaçış zolağının uzunluğu məhz 42 km-dir?**

Marafon kəndi Yunanıstanın paytaxtından 42 km 195 m məsafədə yerləşirdi. Marafon döyüşündə yunanlar qələbə qazanırlar. Qələbə xəbərini Afinaya, həmyerlilərinə çatdıran döyüşçü həmin məsafəni durmadan qaçmışdı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2 (D.) |
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tap. 4 (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 1 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (İ.D.) |

# 3-cü DƏRS
# Sifət

## Təlim nəticələri:

- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 49**

**1.** Əlamət bildirən sözlərə əsasən varlığın adını tapın.

**Müəllimin nəzərinə!** Motivasiya xarakterli tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

**Cavab:** 1 – B;
2 – C;
3 – A.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim rubriakda verilmiş məlumatları izah edir. Əlamət və keyfiyyət bildirən sifətləri nümunələrlə fərqləndirir.

**Dərslik, səh. 49**

**2.** Nöqtələrin yerinə əlamət bildirən sifətlər seçib yazmaqla cümlələri tamamlayın.

**Cavab:** 1. Tural kitabxanadan **qalın** kitab götürmüşdü.

2. Anama bir dəstə **qırmızı** gül aldım.

3. Nənəm hazırladığı **dördkünc** yastıqları divanın üzərinə düzdü.

4. Sinif yoldaşım Samir **yaraşıqlı** oğlandır.

**Dərslik, səh. 49**

**3.** İkinci maşını birincidən fərqləndirmək üçün hansı sözdən istifadə edərdiniz?

Şagirdlər tapşırıqdakı maşın şəkillərini fərqləndirmək üçün sözlər söyləyirlər. **Sözlər təxminən belə ola bilər:**

1. tünd-mavi; 2. açıq-mavi.

Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün rəng çalarlarına görə fərqlənən rəngli kağızlardan və s. əyani vasitələrdən istifadə edə bilər.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim sifətin dərəcələri haqqında verilmiş məlumatları nümunələr əsasında şərh edir.

**Dərslik, səh. 49**

**4.** Çoxaltma dərəcəsində olan sifətləri seçib cümlələri tamamlayın.

**Cavab:**

1. İndicə təndirdən çıxan çörəklər yupyumşaq və dadlı idi.
2. Evin pəncərələri tünd-yaşıl rənglə boyanmışdı.
3. Murad qara kostyumla ağappaq köynək geyinmişdi.
4. Bu gün aldığın alçalar tumturş idi.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 30**

**1.** Aşağıdakı sözləri cədvəlin uyğun sütununda yaz.

**Cavab:**

**Əlamət bildirən sifətlər:** qəşəng, balaca, əyri, ensiz, nazik, yumru, qalın.

**Keyfiyyət bildirən sifətlər:** mərd, cəsur, təmizkar, sevimli, səmimi.

**İş dəftəri, səh. 30**

**2.** Sifətlərin qarşısında dərəcəsini qeyd et.

**Cavab:** ən uca – çoxaltma;
çiy – adi;
sapsarı – çoxaltma;
yupyumru – çoxaltma;
şirin – adi;
daha ucuz – çoxaltma;
bozumtul – azaltma.

**İş dəftəri, səh. 30**

**3.** Dördündən biri dərəcəsinə görə fərqlidir.

**Cavab:**

**I sıra:** uzun – adi dərəcədə, digər sözlər isə çoxaltma dərəcəsindədir.

**II sıra:** dumduru – çoxaltma dərəcəsində, digər sözlər isə azaltma dərəcəsindədir.

**III sıra:** ağımtıl – azaltma dərəcəsində, digər sözlər isə çoxaltma dərəcəsindədir.

**IV sıra:** daha gözəl – çoxaltma dərəcəsində, digər sözlər isə adi dərəcədədir.

**İş dəftəri, səh. 30**

**4.** Sifətləri çoxaltma dərəcəsində işlədib cümlələri tamamla.

**Cavab:** 1. Sənubər köynəyini **tərtəmiz** yudu.
2. Ağacların **yamyaşıl** yarpaqları göz oxşayırdı.
3. Salata doğradığın bibər **çox acı** imiş.
4. Biz bulağın **səpsərin** suyundan içdik.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Azaltma və çoxaltma dərəcəsində işlənən sifətləri düzgün yazır. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 3-cü fəsil
# ÇEMPİONLAR

## 1-ci DƏRS
## Çempionlarımızı tanıyaq

**Təlim nəticələri:**

• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 2.2.3).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 50**

**1.** 4 "a" sinfinin hazırladığı divar qəzeti ilə tanış olun və tapşırıqları yerinə yetirin.

Şagirdlərin diqqəti divar qəzetinə yönəldilir və "divar qəzeti" haqqında onların ilkin bilikləri yoxlanılır.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** Şagirdlərin oxu prosesini qruplarla iş formasında təşkil etmək olar. Qruplar onlara verilmiş vaxt ərzində divar qəzetini səssiz oxuyurlar. "Söz mücrüsü"ndəki sözlərin izahını dərsliyin sonunda verilmiş lüğət vasitəsilə araşdırırlar.

**Dərslik, səh. 51. "Söz mücrüsü" rubrikası**




**Söz mücrüsü.** Müəllim oxu prosesində tanış olmayan və "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir.

**Dərslik, səh. 51**

**2.** "Söz mücrüsü"ndəki uyğun ifadələri əlavə edib cümlələri tamamlayın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər cümlələri tamamlamaqla yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1. **Redaktor** jurnalın nəşrinə razılıq verdi.
2. Komissiyanın **heyətində** dəyişiklik edildi.
3. **Dizayner** qəzetin tərtibat işlərini tamamladı.
4. Rəsul mövzuya uyğun **məqalə** yazdı.
5. Divar qəzetinin müxtəlif **rubrikaları** var.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 51**

**3.** Qəzetlə bağlı suallara cavab verin.

Şagirdlər divar qəzetinin strukturu və məzmunu haqqında sualları cavablandırırlar:

**1. Qəzetin adı nədir?**

Divar qəzetinin adı "Ulduz"dur.

**2. Qəzetin bu nömrəsi hansı mövzuya həsr olunmuşdur?**

Qəzetin bu nömrəsinin mövzusu idmandır. Qəzetin bu nömrəsi bu sahədə uğur qazanmış Azərbaycan idmançıları haqqındadır.

**3. Qəzetdə hansı rubrikalar var?**

Qəzetin "Müsahibə" rubrikasında minifutbol üzrə komandanın baş məşqçisi Elşad Quliyevlə olan müsahibə mətni verilib. "Yubiley" rubrikasında qadın voleybol komandası, "İdman tariximizdən" rubrikasında isə Azərbaycan idman tarixinə adını yazdıran məşhur idmançılar haqqında məlumat verilib.

**4. Qəzetdə hansı idmançılar haqqında məlumat aldınız?**

Qəzetdə Zemfira Meftahətdinova, Rafael Ağayev haqqında məlumat aldıq.

**Dərslik, səh. 51**

**4.** Qəzetdə təqdim edilmiş müsahibəyə diqqət edin. Siz müxbir olsaydınız, müsahibinizə daha hansı sualları verərdiniz?

Qəzetin "Müsahibə" rubrikasında minifutbol üzrə komandanın baş məşqçisi Elşad Quliyevlə olan müsahibə təqdim edilib. Şagirdlər müsahiblərinə vermək istədikləri əlavə suallar hazırlayırlar.

**Dərslik, səh. 51**

**5.** Qəzetdə verilmiş hansı bilgi diqqətinizi daha çox cəlb etdi? Həmin məlumatla bağlı araşdırma aparın və təqdimat hazırlayın.

Qəzetdə təqdim edilən hər hansı bir material şagirdlərin diqqətini daha çox cəlb edə bilər. Bu

zaman şagirdlər araşdırmaya cəlb edilir. Onlar mövzu ilə bağlı əlavə material toplayıb təqdimat edirlər.

**İş dəftəri, səh. 31**

**1.** Divar qəzeti tərtibçilərinin gördükləri işləri yaz.

Tapşırıq vasitəsilə şagirdlər müstəqil şəkildə divar qəzetindəki rubrikaları mənimsədiklərini və qəzet materiallarını qruplaşdırmaq bacarıqlarını nümayiş etdirirlər.

**Cavab:** redaktor – qəzetdə təqdim edilən materialları redaktə edir;

müxbir – qəzet üçün məlumat, xəbər toplayır, müsahibə götürür;

dizayner – qəzetin tərtibatına nəzarət edir.

**İş dəftəri, səh. 31**

**2.** Dərslikdə təqdim edilmiş divar qəzetinə istinad edərək yarımbaşlıqlara uyğun qısa məlumat yaz.

Şagirdlər tapşırığı yerinə yetirməklə divar qəzetində verilmiş materialın məzmununu necə qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.) |
| Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur. | Tap. 4 (D.) |
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | Tap. 5 (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 1 (İ.D.) |
| Mətndəki informasiyaları müəyyənləşdirir. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS
# Əlbəyaxa döyüş

**Təlim nəticələri:**

• Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 2.2.3).

**Dərslik, səh. 52**

**1. Qruplarla iş.** Məlumat vərəqlərini oxuyun. Bu məlumatları toplamaq üçün həmsöhbətinizə hansı sualları vermək lazımdır? Həmin sualları təxmin edin və müsahibə hazırlayın.

Şagirdlər qruplara ayrılırlar. Məlumat vərəqində təqdim edilmiş məlumatlarla tanış olurlar. Müəllim şagirdləri tapşırığı asanlıqla həll etmələri üçün yönəldir:

– Sizcə, məlumat vərəqindəki məlumatları toplamaq üçün müxbir müsahibinə hansı sualları verə bilər?

– Siz müxbir olsaydınız, həmin idmançılara daha hansı sualları verərdiniz?

Daha sonra şagirdlərin diqqəti müsahibə hazırlamaq üçün təqdim edilmiş təlimata yönəldilir. Hər hansı bir mövzu haqqında müsahibəyə hazırlaşmaqla bağlı tövsiyələr şərh edilir.

Tapşırıq şagirdlərdə hər hansı bir mövzu ilə əlaqədar məlumat almaq üçün sual vermək bacarığını formalaşdırır. Eyni zamanda tapşırıq şagirdlərdə jurnalistika peşəsi, müxbirlərin iş prinsipi haqqında təsəvvür yaradır. Şagirdlər onlara ayrılmış vaxt ərzində tərtib etdikləri sualları təqdim edirlər.

**Şagirdlər təxminən aşağıdakı sualları tərtib edə bilərlər:**

**I qrup**

– Özünüzü təqdim edin.
– Nə vaxt anadan olmusunuz?
– Harada doğulmusunuz?
– Hansı idman növü ilə məşğulsunuz?
– Sizi rinqə hansı adla dəvət edirlər? Ləqəbiniz nədir?
– İndiyə qədər hansı uğurları qazanmısınız?

**II qrup**

– Özünüzü təqdim edin.
– Nə vaxt anadan olmusunuz?
– Harada doğulmusunuz?
– Hansı idman növü ilə məşğulsunuz?

– Bu idman növü üzrə hansı nailiyyətləri qazanmısınız?

– Hansı fəxri adlara layiq görülmüsünüz?

**III qrup**

– Özünüzü təqdim edin.

– Nə vaxt anadan olmusunuz?

– Harada doğulmusunuz?

– Hansı idman növü ilə məşğulsunuz?

– Bu idman növü üzrə hansı nailiyyətləri qazanmısınız?

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, qrup üzvləri müsahibəni rollu oxu kimi təqdim etsinlər. Qrup üzvlərindən biri idmançı, digəri isə müxbir rolunda çıxış etsin. "Müxbir" sualları səsləndirir, "idmançı" isə həmin sualları cavablandırır.

**İş dəftəri. səh. 32**

**1. Müsahibəni oxu.** Səncə, müxbir aşağıdakı cavabları almaq üçün müsahibinə hansı sualları verib? Həmin sualları təxmin et və müsahibəni tamamla.

Şagirdlər Azərbaycanın karate ustası Rafael Ağayev haqqında verilmiş müsahibəni oxuyur, cavablar əsasında suallar hazırlayırlar. Məqsəd şagirdlərin məlumat toplamaq üçün müsahibə üsulundan istifadə etmək bacarıqlarının inkişaf etdirilməsidir.

**Şagirdlər aşağıdakı sualları tərtib edə bilərlər:**

– Neçə ildir karate ilə məşğul olursunuz?

– Müəllimləriniz kimlər olub?

– Neçə yarışda iştirak etmisiniz? Hansı yarışların qalibi olmusunuz?

– Sizcə, məğlubiyyət idmançını həvəsdən salırmı? Yoxsa uğur əldə etmək üçün daha da həvəsləndirir?

– Şagirdləriniz varmı?

– Müsahibə üçün təşəkkür edirəm.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 3-cü DƏRS
# Zərf

**Təlim nəticələri:**
- Əsas nitq hissələrinin leksik-qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.1).
- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Şagirdlər əlamət və hərəkət bildirən sözlərlə tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzular üzrə bilik və bacarıqları təkrar olunur. Müəllim öyrədilən qaydaları yada salmaq üçün lövhədə bu mövzulara aid nümunələr yazır və şagirdləri fəaliyyətə cəlb edir. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə sözlər arasındakı fərqi hiss etməyə kömək edir.

**Yönəldici suallar:**

1. Hansı cümlədə əlamət bildirən sözlər isma aiddir?
2. Hansı cümlədə əlamət bildirən sözlər feilə aiddir?
3. Hərəkəti izah edən sözlər hansılardır?

**Dərslik, səh. 53**

**1.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər hərəkəti izah edir?

Şagirdlər əvvəlki dərslərdə əlamət və hərəkət bildirən sözlər haqqında məlumat alıblar. Tapşırıq şagirdlərə bu mövzuda biliklərini xatırladır.

**Cavab:** 1. Quşlar, quşlar nə **gözəl** oxuyur,

Bəh-bəh, bəh-bəh, nə gözəl oxuyur. *(Zeynal Cabbarzadə)*

2. Cahid dərsi **yaxşı** danışdı.

**"Bunları bilməliyik!" rubrikasında** zərf haqqında qayda verilmişdir. Növbəti tapşırıqlar qazanılmış biliklərin tətbiqi və möhkəmləndirilməsi ilə bağlıdır. Müəllim rubrikada verilmiş məlumatları izah edir. Şagirdlərə hərəkətin əlamətini bildirən sözlərin məna növləri haqqında məlumat verir.

**İş dəftəri, səh. 33**

**1.** Sağ sütundan uyğun sözləri müəyyən et və boşluqları doldur.

Bu tapşırıq vasitəsilə şagirdlər əldə edilmiş bilik və bacarıqları yazıda tətbiq edirlər.

**Cavab:** 1. Biz vətənimizi **çox** sevirik.

2. **Tezliklə** havalar soyuyacaq.
3. **İndi** bizim güclü ordumuz var.
4. Gülər **astaca** buzova yaxınlaşdı.

**İş dəftəri, səh. 33**

**2.** Nöqtələrin yerinə uyğun gələn sözləri yaz.

**Cavab:**
1. Təyyarə əvvəl yuxarı qalxdı, sonra aşağı endi.
2. Coşqun dalğalar birdən-birə sakitləşdi.
3. Dünən bacımın ad günü idi.

**Dərslik, səh. 53**

**2.** Cümlələrdə zərfləri müəyyən edin.

**Cavab:** səbirsizliklə, bir qədər, içəri, hərdən.

**İş dəftəri, səh. 33**

**3.** Mötərizədəki sualların əvəzinə uyğun zərfləri yaz və növünü müəyyən et.

**Cavab:**
1. Şagirdlər indi məktəbdədirlər. (*zaman*)
2. Burada nəhəng bir palıd ağacı var. (*məkan*)
3. Müəllimi diqqətlə dinləmək lazımdır. (*əlamət*)
4. Cəlal bağda xeyli işlədi. (*miqdar*)

**Dərslik, səh. 53**

**3.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər zərf kimi işlənib?

Tapşırıq zərflər haqqında biliyin möhkəmləndirilməsinə və kontekstə görə sözlərin sifət və yaxud zərf olduğunu müəyyənləşdirmək bacarığının inkişafına yönəlib.

**Cavab:**
1. Şəhərə **gündüz** çatdıq.
2. İmtahanımız **çətin** keçdi.
3. Həmişə **düzgün** danışmaq lazımdır.

**Dərslik, səh. 53**

**4.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər zərfdir?

Tapşırıq zərflər haqqında biliyin möhkəmləndirilməsinə və kontekstə görə sözlərin say və yaxud zərf olduğunu müəyyənləşdirmək bacarığının inkişafına yönəlib.

**Cavab:** 1. Dostlar birlikdə **xeyli** əyləndilər.
2. Keçən il bağlarda məhsul **az** oldu.
3. Müəllimin sözləri məni **çox** düşündürdü.

**İş dəftəri, səh. 33**

**4.** Verilmiş sözləri cümlələrdə həm sifət, həm də zərf kimi işlət.

Tapşırıqda kontekstdən asılı olaraq həm sifət, həm də zərf kimi işlənə bilən sözlər təqdim edilmişdir. Şagirdlər həmin sözləri cümlədə işlətməklə mövzunu anladıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrinin leksik-qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. 1, 2 (D.) |
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Tap. 1, 2 (İ.D.) |
| Zərfi digər nitq hissələrindən (isim, sifət, say) fərqləndirir. | Tap. 3, 4 (D.), tap. 3, 4 (İ.D.) |

# 3-cü bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Əsas nitq hissələrinin leksik-qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.1).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 54**

**1.** Nöqtələrin yerinə mötərizədə verilmiş isimləri yazaraq cümlələri tamamlayın. Həmin sözün ismin hansı halında işləndiyini yazın.

**Cavab:**

1. Bu **rəsmi** fərqli üslubda çəkmisən. (*təsirlik*)
2. Müəllim **şagirdə** yeni mövzunu izah etdi. (*yönlük*)
3. **Ağacın** yarpaqları artıq saralmışdı. (*yiyəlik*)
4. **Sərgidə** gənc rəssamların tabloları nümayiş etdirilirdi. (*yerlik*)
5. Komandamız **yarışdan** qələbə ilə qayıtdı. (*çıxışlıq*)

**Dərslik, səh. 54**

**2.** Nöqtələrin yerinə uyğun sözləri əlavə edin.

**Cavab: onun** papağı; **bizim** dərsimiz; **mənim** dəftərim; **sizin** mükafatınız; **sənin** boşqabın; **onların** kitabları.

**Dərslik, səh. 54**

**3.** Verilmiş sifətləri azaltma dərəcəsində işlədərək cümlələri tamamlayın.

**Cavab:**

1. Bizim bağın alçaları **kəmturş** olur.
2. Əynindəki **sarımtıl** paltar Zümrüdə çox yaraşırdı.
3. Rəngsaz pəncərənin kənarlarına **bozumtul** naxışlar çəkdi.
4. Anam dolmaları **uzunsov** formada bükür.

**Dərslik, səh. 54**

**4.** Verilmiş cümlələrdə zərflərin məna növünü müəyyən edin.

Şagirdlər bu tapşırıqda zərflərin məna növləri üzrə biliklərini möhkəmləndirirlər.

**Cavab:** 1 – B;
2 – Ç;
3 – A;
4 – C.

**Dərslik, səh. 54**

**5.** Feilə uyğun gələn zərfi seçib cümləni oxuyun.

Tapşırıqda kontekstdən asılı olaraq zərflər təqdim edilmişdir. Şagirdlər uyğun zərfi seçməklə mövzunu anladıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1 – cəld;
2 – sakitcə;
3 – səhvən;
4 – yavaşca.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə təqdim edilmiş tapşırıqlar. |

# 3-cü bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 34-35-ci səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
| --- | --- |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2 |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tap. 3, 4, 5, 6 |

Bölmə 4

# Təkərdən avtomobilə

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Təkərin tarixi** | | | | | |
| 1 | Ən mühüm ixtira | Oxu | 56-58 | 36 | 61-62 |
| 2 | Feilin məsdər forması | Yazı (dil qaydaları) | 59 | 37 | 62-64 |
| 2-ci fəsil. **İki təkər üstə hərəkət** | | | | | |
| 3 | Kifayətdir? | Oxu | 60-63 | 38 | 64-65 |
| 4 | Kifayətdir? | Danışma | 63 | 39 | 65-66 |
| 5 | İkitəkərli möcüzə | Dinləmə | 64 | 40 | 66-68 |
| 6 | İşarə əvəzlikləri | Yazı (dil qaydaları) | 65 | 41 | 68-69 |
| 3-cü fəsil. **Avtomobil dünyası** | | | | | |
| 7 | Hamı üçün avtomobil | Oxu | 66-69 | 42 | 69-71 |
| 8 | Hamı üçün avtomobil | Danışma | 70 | 43 | 71-72 |
| 9 | Köməkçi nitq hissələri | Yazı (dil qaydaları) | 71 | 44 | 72-73 |
| 10 | Ümumiləşdirici dərs | | 72 | 45-46 | 74 |

# 1-ci fəsil
# TƏKƏRİN TARİXİ

## 1-ci DƏRS
## Ən mühüm ixtira

**Təlim nəticələri:**

• Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 2.2.2).
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq, dialoq, remarka və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin titul səhifəsindəki şəkillərə, bölmənin adına yönəldir.

**Danışma.** Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər əsasında həyata keçirilir.

**Dərslik, səh. 55**

> **1.** Hansı nəqliyyat növlərini tanıyırsınız?
> **2.** Sizcə, onlardan hansı daha əvvəl yaranıb?
> **3.** Gələcəyin nəqliyyat vasitələrini necə təsəvvür edirsiniz?

Şagirdlər titul səhifəsindəki hər bir şəklə aid açar söz və ifadələri müəyyənləşdirir və onların köməyi ilə şəkillər üzrə danışırlar.

**Dərslik, səh. 56**

> **1.** Oxuyacağınız mətnə nəzər salın: yarımbaşlıqları oxuyun və şəkillərə baxın. Sizcə, bu mətndə nədən danışılır? Siz bu haqda nə bilirsiniz?

Şagirdlər oxuduqları mətnlərdən və həyatdan nümunələr gətirməklə təkər haqqında bildiklərini danışırlar.

**Oxu. Söz ehtiyatı**

**Dərslik, səh. 57. “Söz mücrüsü” rubrikası**




**Mətnlə iş. Növbəli oxu.** “Ən mühüm ixtira” mətni üçün növbəli oxu üsulunu tətbiq etmək tövsiyə olunur. Mətnin hissələri bir neçə şagird tərəfindən oxunur, müəllim şagirdlərin nitqinə diqqət edir, onlara məsləhətlər verir.

**Söz mücrüsü.** Müəllim “Söz mücrüsü”ndə verilmiş söz və ifadələrin mənasını izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 58**

> **2.** Nöqtələrin yerinə *ixtira* və ya *kəşf* sözlərindən birini artırmaqla cümlələri köçürün.

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəldilib. Şagirdlər ilk növbədə ***“ixtira”*** və ya ***“kəşf”*** sözlərinin “Yadda saxla” rubrikasında verilmiş mənalarını müəyyənləşdirirlər. Bununla həmin sözləri fərqləndirməyi bacardıqlarını nümayiş etdirirlər. Daha sonra həmin sözləri cümlələrdə nöqtələrin yerinə artıraraq bu sözlərin mənasını anladıqlarını göstərirlər.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 58**

> **3.** Sizcə, müəllif bu mətndə oxucuya hansı fikirləri çatdırmaq istəyib? Üç əsas fikri seçin.

Şagirdlər mətn əsasında müəllifin məqsədini, irəli sürdüyü əsas fikirləri müəyyənləşdirirlər, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

**Cavab:** 1, 3, 5.

**Dərslik, səh. 58**

**4.** Aşağıdakı şəkillərdən istifadə edərək mətnin sonuncu hissəsini ("Təkər icad olunmasaydı...") genişləndirib nəql edin.

Tapşırıq şagirdlərin qrafik informasiyanı anlamaq bacarığını inkişaf etdirir. Şagirdlər mətnin sonuncu hissəsini oxuyur, aldıqları informasiyanı verilən şəkillər əsasında genişləndirir və danışırlar.

**İş dəftəri, səh. 36**

**1.** "Ən mühüm ixtira" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu tap.

İş dəftərindəki tapşırıqlar şagirdlərin bilik və bacarıqlarını yoxlamağa imkan yaradır. 1-ci tapşırıq faktoloji məlumatın qəbul edilməsini, yəni şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa kömək edir. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və "Ən mühüm ixtira" mətninin məzmununa əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyənləşdirirlər. Yaxşı olardı ki, şagirdlər yanlış fikirləri müəyyən etdikdən sonra onları mətnin məzmununa əsasən düzəltsinlər.

**Cavab**: 1, 3 – yanlış; 2, 4 – doğru.

**İş dəftəri, səh. 36**

**2.** Şəkillərdə gördüyünüz təkərlərdən hansının ixtiraçısı dəqiq məlumdur? Həmin şəxsin adını müvafiq şəklin altında yaz.

Tapşırıq şagirdlərdə təhliletmə bacarığını inkişaf etdirir. Şagirdlər şəkillərə baxaraq və mətndən öyrəndikləri əsasında ixtira və ixtiraçı haqqında aldıqları bilgiləri tətbiq edirlər.

**Cavab:** Danlop

**İş dəftəri, səh. 36**

**3.** Mətnə əsasən krosvordu tamamla.

Tapşırıq şagirdlərin "Ən mühüm ixtira" mətnində öyrəndikləri söz ehtiyatını yoxlamağa imkan yaradır. Şagirdlər krosvordu həll etməklə sahib olduqları söz ehtiyatını nümayiş etdirirlər.

**Cavab:**

**Yuxarıdan aşağı:** 1) ixtira; 3) təkər; 4) nəqliyyat; 5) taxta.

**Soldan-sağa:** 2) diyirlətmək; 6) Danlop; 7) inkişaf; 8) araba.

Tapşırıq həm məntiqi düşüncə bacarığının, həm də söz ehtiyatının inkişafına yönəldilib. Şagirdlər krosvorddakı sözləri tapmaqla mətnə aid söz ehtiyatını daha da yaxşı mənimsəyirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. 1 (D.) |
| Yeni sözləri kontekstə uyğun cümlədə işlədir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1 (İ.D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 3 (D.) |
| İllüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. 4 (D.), tap. 2 (İ.D.) |

# 2-ci DƏRS
# Feilin məsdər forması

**Təlim nəticələri:**

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).
• Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir (st. 4.1.1).
• Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

Şagirdlər hərəkət bildirən sözlər, onların müxtəlif zamanlarda işlənməsi, ahəng qanunu üzrə qrammatik qayda ilə tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzular üzrə bilik və bacarıqları təkrar olunur. Müəllim öyrədilən qaydaları yada salmaq üçün lövhədə bir neçə feil yazaraq onların zamanını müəyyənləşdirməyi tapşırır.

**Yazı**

**Dərslik, səh. 59**

**1.** Hansı cümlələrdə hərəkət bildirən sözlər keçmiş zamanda işlənib?

**Kollektiv iş.** Şagirdlər keçmiş zamanda işlənmiş hərəkət bildirən sözləri müəyyən edirlər. Bu tapşırıq hərəkət bildirən sözlər haqqında biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**Cavab:** bərkitdilər, inkişaf etdi.

**Dərslik, səh. 59**

> **2.** Cümlələri köçürün, nöqtələrin yerinə uyğun gələn şəkilçiləri yazın.

Tapşırığın məqsədi ahəng qanunu haqqında biliklərdən istifadə edərək çoxvariantlı zaman şəkilçilərinin işlənmə yerini düzgün müəyyənetmə bacarığını möhkəmləndirməkdir.

**Diferensial təlim.** Ana dili qeyri-Azərbaycan dili olan şagirdlərin bəzisi çoxvariantlı şəkilçilərdən düzgün istifadə edə bilmir. Ahəng qanunu və zaman şəkilçiləri haqqında biliklər bu problemin həllinə kömək edəcək. Əlavə tapşırıqlar verməklə belə uşaqların çoxvariantlı zaman şəkilçilərindən düzgün istifadəetmə bacarığını formalaşdırmaq, inkişaf etdirmək tövsiyə olunur.

**Dərslik, səh. 59**

> **3.** Hansı cümlədə feil *nə?* sualına da cavab verə bilər?

Bu tapşırığı yerinə yetirərkən şagirdlər feilin suallarını yada salırlar. Sonra isə tapşırıqdakı cümlələri oxuyaraq feilin *nə?* sualına cavab verə bilməsini də öyrənirlər. Beləliklə də məsdər haqqında məlumat alırlar.

Müəllim **"Bunları bilməliyik!" rubrikasında** feilin məsdər forması haqqında verilmiş məlumatları izah edir. Şagirdlərin nəzərinə çatdırılır ki, məsdər hərəkətin adını bildirir və lüğətlərdə feillər məsdər formasında verilir. O, isim kimi hal və mənsubiyyət şəkilçiləri qəbul edə bilir. Növbəti tapşırıqlar qazanılmış biliklərin tətbiqi və möhkəmləndirilməsi ilə bağlıdır.

**İş dəftəri, səh. 37**

> **1.** Cümlələrdə məsdər formasında olan feillərin altından xətt çək.

Tapşırıq şagirdləri hərəkət bildirən sözlər və onların məsdər formasında işlənməsi haqqında aldıqları bilikləri təcrübədə tətbiq etməyə yönəldir.

**İş dəftəri, səh. 37**

> **2.** Cümlələrdə feilləri tapıb altından xətt çək. Onların hansı şəxsə və zamana aid olduğunu qeyd et. Həmin feilin məsdər formasını yaz.

Tapşırıq feillərin şəxsə və zamana görə dəyişməsi üzrə biliklərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər cümlələrdə işlənmiş feillərin hansı şəxsdə və zamanda işlənməsini müəyyənləşdirərək feillər haqqında hansı biliklərə yiyələndiklərini nümayiş etdirirlər.

**Cavab:** 1. III şəxsin təki – keçmiş – keçmək
2. II şəxsin təki – indiki – yazmamaq
3. I şəxsin təki – keçmiş – istəmək
4. I şəxsin cəmi – gələcək – getmək
5. III şəxsin təki – indiki – sayılmaq

**İş dəftəri, səh. 37**

> **3.** Verilmiş feilləri cümlələrdə uyğun şəxs və zamanda işlət.

Şagirdlər feilləri müvafiq zaman və şəxsə görə dəyişməklə cümlələrdə işlədirlər. Bu zaman ayrı-ayrı feillərin müxtəlif zamanlarda və şəxslərdə işlədilməsi üzrə bacarıqlar da formalaşır.

**Cavab:** 1-ci – qarşılayacaqlar;
2-ci – danışırsan;
3-cü – çıxdıq.

**Dərslik, səh. 59**

> **4.** Cümlələrdən feilləri seçib məsdər şəklində yazın.

Tapşırıq müxtəlif qrammatik formalarda işlənən feillərin məsdər forması haqqında biliklərin tətbiqinə imkan yaradır.

**Cavab:** 1. dağılmaq; 2. öyrənmək; 3. tikilmək; 4. başlamaq; 5. ayılmaq.

**Dərslik, səh. 59**

> **5.** Nöqtələrin yerinə uyğun şəkilçilər əlavə etməklə cümlələri köçürün.

Tapşırıq hal və mənsubiyyət şəkilçiləri haqqında biliklərin tətbiqinə imkan yaradır. Şagirdlər bu şəkilçilərin təkcə isimlərə yox, məsdərlərə də əlavə edilməsini öyrənirlər.

İş dəftərindəki tapşırıq şagirdlərin bəzi məsdərlərin yazılışı haqqında aldıqları bilikləri tətbiq etməyə şərait yaradır.

**İş dəftəri, səh. 37**

> **4.** Səhv yazılmış məsdərləri düzəlt.

**Cavab:** 1. yumaq; 2. çəkməyi; 3. yazmağı; 4. gəzmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin məsdər formasını zaman və şəxs şəkilçili feillərdən fərqləndirir. | Tap. 1, 3, 4 (D.), tap. 1, 2, 3 (İ.D.) |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 2 (D.) |
| Zaman və şəxs şəkilçilərindən düzgün istifadə edir. | Tap. 3 (İ.D.) |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tap. 4 (İ.D.) |

# 2-ci fəsil
# İKİ TƏKƏR ÜSTƏ HƏRƏKƏT

## 1-ci DƏRS
## Kifayətdir?

**Təlim nəticələri:**
• Əşya və hadisələrə öz münasibətini bildirir (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**
**Dərslik, səh. 60**
Velosiped haqqında nə bilirsiniz?
O, skuterdən nə ilə fərqlənir?

**Oxu**
**Mətnlə iş. İstiqamətləndirici oxu.** Müəllim "Kifayətdir?" mətninin oxu prosesindən əvvəl lövhədə suallar yazır. Şagirdlərə tapşırır ki, mətni oxuyarkən bu suallara cavab axtarsınlar.

**Lövhəyə yazılacaq suallar:**
Ceyhun kim idi?
O niyə narazılıq edirdi?
Ceyhun kimlə görüşür?
Yaşlı adam ona nə deyir?
Ceyhun kitabdan və yaşlı adamdan hansı məlumatları alır?
Yaşlı adam, həqiqətən, sehrbaz idimi?

**Rollu oxu.** "Kifayətdir?" mətni dialoji mətn olduğu üçün **rollu oxu** üsulunu tətbiq etmək tövsiyə olunur. Müəllim obrazların (Ceyhun, yaşlı qadın) nitqinə aid cümlələri şagirdlər arasında bölüşdürür. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyacanını ifadə etmək üçün şagirdlərə məsləhətlər verir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 62. “Söz mücrüsü” rubrikası**

**Söz mücrüsü**

• sehrbaz • əyləc • eyham • mühərrik
• kələ-kötür • donub qalmaq • yaramaq

Müəllim “Söz mücrüsü”ndə verilmiş sözlərin mənasını izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri də şagirdlərə izah edir.

**Dərslik, səh. 63**

**2.** Velosipedin hissələrinin adlarını müəyyən edin.

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəlib.

**Cavab:** 1. oturacaq; 2. pedal; 3. əyləc; 4. təkər; 5. sükan.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 63**

**3.** Düzgün, yoxsa yanlış?

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və “Kifayətdir?” mətninin məzmununa əsasən düzgün və yanlış fikirləri müəyyən edirlər. Yaxşı olardı ki, şagirdlər yanlış fikirləri müəyyənləşdirdikdən sonra onları mətnin məzmununa əsasən düzəltsinlər.

**İş dəftəri, səh. 38**

**1.** Nə üçün mətndə “kifayətdir” sözü tez-tez təkrarlanır?

Şagirdlər bu suala cavab verməklə mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 38**

**2.** Mətndə hansı suala cavab yoxdur?

Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər cavabını müəyyənləşdirə bilmədikləri sualı seçməklə mətni nə qədər diqqətə oxuduqlarını nümayiş etdirirlər.

**Cavab:** Velosiped əyləcini kim ixtira edib?

**İş dəftəri, səh. 38**

**3.** Cümlələri tamamlamaq üçün düzgün variantı seç.

Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

**Cavab:** 1 – A; 2 – B; 3 – A.

**İş dəftəri, səh. 38**

**4.** “Kifayətdir?” mətnini yazmaqda müəllifin məqsədi nədir?

**Cavab:** C) Hər bir yeniliyin daim təkmilləşməyə ehtiyacı olduğunu göstərmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 1, 2, 3 (İ.D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 4 (İ.D.) |

# 2-ci DƏRS
# Kifayətdir?

**Təlim nəticələri:**

• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
• Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st.2.1.2).
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**

Müəllim sual-cavab üsulu ilə əvvəlki dərsdə keçilmiş “Kifayətdir?” mətnini xatırladır.

**Dərslik, səh. 63**

**1.** Mətndəki əsas fikir nədən ibarətdir?

Tapşırıq mətndə ifadə olunan fikri müəyyən etmək və ona münasibət bildirmək bacarıqlarını

inkişaf etdirir. Şagirdlər bu sualı iş dəftərinin keçən dərsə aid səhifəsində verilmiş 1-ci və 4-cü tapşırıqlara istinad edərək cavablandıra bilərlər.

**Dərslik, səh. 63**

**2.** Şəkillər əsasında velosipedin inkişaf tarixi haqqında danışın.

Şagirdlər dərslikdə verilmiş şəkillərə baxaraq şifahi mətn qururlar və praktiki olaraq biliklərini möhkəmləndirirlər. Bu fəaliyyət şifahi mətn qurmaq bacarığının mənimsənilməsinə və şifahi nitq bacarığının inkişafına kömək edir.

**Dərslik, səh. 63**

**3.** Müasir dövrdə velosipeddən daha hansı sahələrdə istifadə olunur? Şəkillər əsasında danışın.

Şagirdlər dərslikdəki şəkillərə baxaraq tapşırıqda verilmiş yönəldici sualı cavablandırırlar. Bu fəaliyyət şifahi mətn qurmaq bacarığının inkişafına xidmət edir.

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 39**

**1.** İngilis dilində penni və fartinq dəmir pul adlarıdır. Aşağıdakı şəkillərə bax və "Penni-fartinq" velosipedinin niyə belə adlandırılmasını müəyyən et.

**Cavab:** B

**İş dəftəri, səh. 39**

**2.** "Kifayətdir?" mətninə əsasən hekayə xəritəsini tamamla.

Şagirdlər "Kifayətdir?" mətninə əsasən hekayə xəritəsini tərtib edirlər. Bu tapşırıq müəllimə şagirdlərin həm mətnin məzmununu necə qavradıqlarını, həm də "məzmun", "ideya" anlayışlarını necə fərqləndirdiklərini yoxlamağa imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin əsas fikrini müəyyənləşdirir. | Tap. 1 (D.) |
| Şəkildə gördüklərini təsvir edir və rabitəli mətn halında şifahi təqdim edir. | Tap. 2 (D.), tap. 1 (İ.D.) |
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 3 (D.) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. 2 (İ.D.) |

# 3-cü DƏRS
# İkitəkərli möcüzə

**<u>Təlim nəticələri</u>:**

- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).
- Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır (st. 1.1.1).
- Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun və ideya baxımından müqayisə edir (st. 1.1.1).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.3).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.3).

**Dinləmə**

***İkitəkərli möcüzə***

*Motosikletə diqqətlə baxanda adama elə gəlir ki, bu, ya ikitəkərli avtomobil, ya da mühərriki olan velosipeddir. Biz artıq bilirik ki, pedallı velosipedi fransız Pyer Mişo ixtira edib. Bu, təxminən 150 il bundan əvvəl baş vermişdir. Bir qədər sonra Pyer Mişo daha bir yenilik etdi – pedallı velosipedə buxar mühərriki də quraşdırdı.*

*Alman konstruktorları Daymler və Maybax öz gələcək avtomobillərinin benzin mühərrikini yoxlamaq üçün onu velosipedə quraşdırdılar və beləliklə, ilk müasir tipli motosikl yarandı.*

*İllər keçdi. Artıq motosikletlərin kütləvi istehsalı başlandı. Motosikletlərdə hava doldurulmuş rezin təkərlər istifadə olunurdu. Con Danlop bu təkərləri oğlunun velosipedi üçün ixtira etmişdi.*

*İndiyə qədər motosikletin xarici görünüşü çox dəyişib. Motosiklet indi əsas nəqliyyat vasitələrindən biridir. Onu daha heç kim velosipedlə, ya da avtomobillə qarışıq salmır. Böyük şəhərlərdə*

*maşınların tıxac yaratdığı küçələrdən motosiklet asanlıqla keçir. Hətta köhnə dar küçələrdə də motosikleti rahat sürmək olur. Velosipeddən fərqli olaraq motosikletlə bunu daha tez və sürətlə etmək olar.*

*Motosikletlərin iştirakı ilə müxtəlif yarışlar keçirilir. Amma yarış motosikletlərini sürmək çox çətindir. Onların sürəti çox olduğuna görə belə motosikletləri yalnız bacarıqlı idmançılar sürə bilərlər.*

**İş dəftəri, səh. 40**

**1.** "İkitəkərli möcüzə" dinləmə mətninə əsasən hadisələrin xronoloji ardıcıllığını müəyyən et. Cümlələri bu ardıcıllığa görə nömrələ.

Şagirdlər tapşırıqda verilmiş cümlələri mətndəki hadisələrin ardıcıllığına uyğun sıralayırlar.

**Cavab:** 1 – B; 2 – A; 3 – D; 4 – C.

**İş dəftəri, səh. 40**

**2.** Məlumatların hansı mətnə aid olduğunu müəyyən et.

Bu tapşırıq şagirdlərin müqayisəetmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş fikirlərin oxuduqları "Kifayətdir?", yoxsa dinlədikləri "İkitəkərli möcüzə" mətninə aid olmasını müəyyənləşdirməklə hər iki mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1 – B; 2 – A; 3 – A; 4 – B.

**Dərslik, səh. 64**

**2.** Dinlədiyiniz mətnin növünü müəyyən edin.

Bu tapşırığa əsasən şagirdlər dinlədikləri "İkitəkərli möcüzə" mətninin növünü müəyyənləşdirirlər. Tapşırıq eyni zamanda şagirdlərin diqqətini bədii və informativ mətnlər arasındakı fərqə yönəldir.

**Cavab**: B

**Dərslik, səh. 64**

**3.** Fikirlərin "Kifayətdir?", yoxsa "İkitəkərli möcüzə" mətninə aid olduğunu müəyyən edin.

Bu tapşırıq şagirdlərin müqayisəetmə bacarığının inkişafına yönəlib.

**Dərslik, səh. 64**

**4.** Mətndən əldə etdiyiniz bilgilər və şəkillər əsasında motosikletin təkmilləşdirilməsi haqqında danışın.

Bu tapşırıq şifahi mətn qurmaq bacarığının mənimsənilməsinə və şifahi nitq bacarığının inkişafına kömək edir.

**Yazı**

**Dərslik, səh. 64**

**5.** Aşağıda verilmiş yaddaş xəritəsinə uyğun olaraq mətni yazın.

"İkitəkərli möcüzə" mətnini dinlədikdən sonra şagirdlər yaddaş xəritəsində verilmiş məlumatlar əsasında kiçik informativ mətn yazırlar.

**İş dəftəri, səh. 40**

**3.** Verilmiş fikirləri cədvəldə uyğun yerlərə yaz.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə dinlədiklərini müəyyənləşdirməyə imkan verir.

**Cavab:** Pyer Mişonun ixtirasına aiddir – 1, 4

Daymler və Maybaxın ixtirasına aiddir – 2, 3

**İş dəftəri, səh. 40**

**4.** "İkitəkərli möcüzə" mətninin məzmununa əsasən cümlələri tamamla.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə dinlədiklərini yoxlamağa imkan yaradır. Eyni zamanda təhliletmə bacarığını inkişaf etdirir. Şagirdlər mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəbini müəyyən edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnin növünü təyin edir. | Tap. 2 (D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun və ideya baxımından müqayisə edir. | Tap. 3 (D.), tap. 2 (İ.D.) |
| Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 1 (İ.D.) |
| Verilmiş informasiyaları yazıda düzgün əks etdirir. | Tap. 3 (İ.D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 4 (İ.D.) |

| | |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. 4 (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. 5 (D.) |

# 4-cü DƏRS
# İşarə əvəzlikləri

**Təlim nəticələri:**
- Əsas nitq hissələrinin leksik-qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.1).
- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Şagirdlər əvvəlki dərslərdən əvəzliklərlə tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzu üzrə bilik və bacarıqları təkrar olunur. Müəllim öyrədilən mövzunu yada salmaq üçün lövhədə ona aid nümunələr yazır və şagirdləri fəaliyyətə cəlb edir.

**Dərslik, səh. 65**

**1.** Nöqtələrin yerinə uyğun şəxs əvəzliklərini işlətməklə cümlələri oxuyun.

Bu tapşırıq şəxs əvəzliklərindən düzgün istifadə bacarığını inkişaf etdirir.

**Cavab:** 1 – siz; 2 – biz; 3 – o; 4 – onlar; 5 – sən; 6 – mən.

**Dərslik, səh. 65**

**2.** Hansı cümlələrdə o, bu əvəzlikləri *hansı?* sualına cavab verir?

**Cavab:** 1, 4

**"Bunları bilməliyik!" rubrikası.** Burada işarə əvəzlikləri haqqında məlumat verilir. Şagirdlər bilməlidirlər ki, *elə, belə* işarə əvəzlikləri həm ad, həm də hərəkət bildirən sözlərə aid olur. İşarə əvəzliklərinin cümlədə həm sifəti, həm də zərfi əvəz edə bilməsinə diqqət yetirilməsi tövsiyə olunur.

**Dərslik, səh. 65**

**3.** İşarə əvəzliklərini tapın və izah edin.

**Cavab:** 1 – belə; 2 – elə; 3 – həmin; 4 – o.

**İş dəftəri, səh. 41**

**1.** Altından xətt çəkilmiş sözlərin aid olduğu sözü müəyyən et.

Şagirdlər dərslikdə əvəzliklər haqqında verilmiş tapşırıqları kollektiv şəkildə icra etdikdən sonra iş dəftərində eyni mövzuya aid tapşırıqları müstəqil yerinə yetirirlər. Bu fəaliyyət müəllimə şagirdləri qiymətləndirmək üçün imkan yaradır.

**Dərslik, səh. 65**

**4.** Nöqtələrin yerinə işarə əvəzliyi yazmaqla cümlələri köçürün.

Bu tapşırıq əvəzliklərdən düzgün istifadə bacarığının möhkəmləndirilməsinə yönəlib.

**Cavab:**

1. Uşaqlar o adamları görərkən özlərini itirdilər.
2. Məktubu elə yazmışam ki, o hər şeyi başa düşəcək.
3. Əsərin belə sonluğu hamını təəccübləndirdi.
4. Həmin gecə bərk şaxta oldu.

**İş dəftəri, səh. 41**

**2.** Hansı cümlələrdə işarə əvəzliyi işlənib?

**Cavab:** 2, 4, 5

**İş dəftəri, səh. 41**

**3.** Verilmiş cümlələrdə işarə əvəzliklərinin sifəti (S) və ya zərfi (Z) əvəz etdiyini müvafiq xanada göstər.

Tapşırığın məqsədi öyrənilmiş qrammatik qaydanı möhkəmlətməkdən ibarətdir.

**Cavab:** (S) – 1, 3, 4, 5;
(Z) – 2, 6.

**İş dəftəri, səh. 41**

**4.** Hansı cümlələrdə "o" əvəzliyi şəxs, hansılarda işarə əvəzliyi kimi işlənib?

**Cavab:**

**Şəxs əvəzliyi kimi:**

1. O, ağaclara qulluq etməyi xoşlayır.
2. O, məktəbin tarix müəllimidir.

**İşarə əvəzliyi kimi:**

1. O ağacları babam əkib.
2. O məktəbin şagirdləri də görüşə gəlmişdilər.

**İş dəftəri, səh. 41**

**5.** *Necə?* və ya *hansı?* suallarına cavab verən əvəzlikləri tap.

Tapşırıq şagirdlərin işarə əvəzliyi haqqında biliklərinin tətbiqinə yönəlib.

**Cavab:**

1. Bu uşaqlar məktəbimizin şagirdləridir.
2. Bu metronun stansiyaları çoxdur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəxs və işarə əvəzliklərini fərqləndirir. | Tap. 1,2 (D.), tap. 1,4 (İ.D.) |
| Cümlədə işlənmiş işarə əvəzliklərini müəyyənləşdirir. | Tap. 3 (D.), tap. 2 ,3 (İ.D.) |
| İşarə əvəzliklərindən düzgün istifadə edir. | Tap.4 (D.) |
| İşləndiyi cümlədən asılı olaraq əvəzliklərin cavab verdiyi sualları müəyyənləşdirir. | Tap. 5 (İ.D.) |

# 3-cü fəsil
# AVTOMOBİL DÜNYASI

## 1-ci DƏRS
## Hamı üçün avtomobil

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).
• Yeni sözləri kontekstə uyğun cümlədə işlədir (st. 3.1.3).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 66**

**1.** Avtomobillər haqqında nə bilirsiniz? Bəs daha nə bilmək istərdiniz?

Şagirdlər motivasiya xarakterli bu tapşırığı yerinə yetirməklə avtomobillər haqqında bildiklərini danışırlar. Lövhədə BİBÖ cədvəlinin çəkilməsi tövsiyə olunur. Şagirdlər avtomobillər haqqında bildiklərini və bilmək istədiklərini cədvəlin müvafiq xanalarında yazırlar. Dərsin sonunda mövzu ilə əlaqədar öyrəndikləri yeni məlumatları 3-cü xanada qeyd etməklə cədvəli tamamlayırlar.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** “Hamı üçün avtomobil ” mətni irihəcmli olduğu üçün ziqzaq oxu və ya qruplarla oxu üsulunu tətbiq etmək tövsiyə olunur. Əvvəlcə müəllim mətni bir dəfə oxuyur. Şagirdlər mətni izləyirlər. Daha sonra müəllim mətni hissələrə bölüb nömrələyir. Şagirdlər qruplara bölünür, hər qrup mətnin bir hissəsini oxuyub müzakirə edir. Sonra qrupdakı şagirdlərdən biri həmin hissənin məzmununu rabitəli nitq şəklində təqdim edir. Beləliklə, sinifdəki şagirdlər mətnin bütün hissələrini qavramış olurlar. Müəllim şa-

girdlərin nitqinə diqqət edir, onlara məsləhətlər verir.

**Dərslik, səh. 66. "Söz mücrüsü" rubrikası**




Müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 69**

**2.** Bilgilərinizə əsasən nöqtələrin yerinə uyğun gələn sözləri yazın.

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəlib. Şagirdlər kontekstə əsasən sözlərin mənasını izah etmək bacarıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1 – istehsal;
2 – buxar mühərriki;
3 – buxar.

**Dərslik, səh. 69**

**3.** Avtomobilin hissələrinin adlarını müəyyən edin.

**Cavab:** 1 – oturacaq;
2 – sükan;
3 – təkər;
4 – güzgü;
5 – qapı.

**İş dəftəri, səh. 42**

**1.** Hansı fikir "Hamı üçün avtomobil" mətnində yoxdur?

**Cavab:** C

**İş dəftəri, səh. 42**

**2.** Mətnin məzmununa aid açar sözləri müəyyən et.

**Cavab:** mühərrik, benzin, təkər.

**Dərslik, səh. 69**

**4.** Suallara cavab verin.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır.

**Yazı**

**İş dəftəri, səh. 42**

**3.** "Söz mücrüsü"ndən seçilmiş sözlərlə cümlələr qur.

Tapşırıq şagirdlərdə cümlə qurmaq bacarığı formalaşdırır. Həmçinin sözlərin öyrənilməsinə xidmət edir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 69**

**5.** Sizcə, avtomobillərin banı bir-birindən nə ilə fərqlənir?

Şagirdlər şəkillərə və həyatda gördüklərinə əsasən sualı cavablandıra bilərlər. Məsələn, kabrioletin banının üstü açıla bilir. Limuzinin banı uzun olur. Pikapın isə baqajlığı açıq olur.

**Dərslik, səh. 69**

**6.** Daymler və Maybaxın avtomobili Bensin avtomobilindən hansı əlamətlərə görə fərqlənirdi?

**Cavab:** Daymler və Maybaxın avtomobili dördtəkərli idi.

**Dərslik, səh. 69**

**7.** Avtomobillər haqqında bildiklərinizdən əlavə, hansı məlumatları öyrəndiniz?

Bu tapşırığı yerinə yetirəndən sonra şagirdlər BİBÖ cədvəlini tamamlayırlar.

**Dərslik, səh. 69**

**8.** Mətnin məzmununa əsasən cümlələri tamamlayın.

Şagirdlər tapşırıqda verilmiş cümlələri "Hamı üçün avtomobil" mətninin məzmununa əsasən tamamlayırlar. Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır. Eyni zamanda təhliletmə bacarığını inkişaf etdirir. Şagirdlər mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəbini müəyyən edirlər.

**İş dəftəri, səh. 42**

**4.** Hansı şəkildə benzinlə işləyən ilk avtomobil təsvir olunub?

**Cavab:** Ç

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. 2 (İ.D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 4, 5, 6, 7 (D.), tap. 1 (İ.D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 8 (D.) |
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. 3 (D.), tap. 4 (İ.D.) |
| Yeni sözləri kontekstə uyğun cümlədə işlədir. | Tap. 3 (İ.D.) |

# 2-ci DƏRS
# Hamı üçün avtomobil

**Təlim nəticələri:**

• Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir (st. 2.1.2).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
• İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır (st. 3.1.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.2).
• Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir (st. 3.1.2).
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).

**Dərslik, səh. 70**

1. **Qruplarla iş.** Verilmiş əlavə bilgilərdən istifadə etməklə mətnin hissələrini genişləndirin və nəql edin.

Tapşırığın qruplarla iş formasında aparılması şagirdlərin əməkdaşlıq şəraitində biliklərini tətbiq etmək, analiz etmək kimi mühüm bacarıqlarının inkişafına təkan verir. Şagirdlər həmçinin oxuduqları hissələrdə tanış olmayan sözləri qeyd edir, kontekstdən çıxış edərək onların izahını özləri üçün aydınlaşdırırlar. Tapşırığın əsas məqsədi informasiyanı ümumiləşdirmək və danışmaq bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Sinif qruplara bölünür. Hər qrup öz mövzusuna uyğun olaraq "Hamı üçün avtomobil" mətninin abzaslarındakı və tapşırıqda verilmiş informasiyaları ümumiləşdirib danışır.

**Müəllimin nəzərinə!** Nəqletmə zamanı şagirdlərin cümlələri düzgün qurmalarına və fikirlərini rabitəli şəkildə ötürmələrinə diqqət yetirmək tövsiyə edilir.

**Dinləmə**

***İxtiraçı və yenilikçi qadınlar***

*Yəqin ki, küçə və parklarda velosiped sürən qadınları görmüsünüz. Müasir dövrdə şalvar geymiş qadınların velosiped sürməsi heç kimi təəccübləndirmir. Bəs əvvəllər necə idi? Gəlin bir anlığa keçmişə – velosipedin yenicə ixtira olunduğu dövrə səyahət edək.*

*İlk vaxtlar velosipedi yalnız kişilər sürürdülər. Qadınlar öz geyimlərinə görə bunu edə bilmirdilər. Axı o dövrdə Avropa qadınları şalvar geyinmirdilər. Don və ya ətəkdə velosiped sürmək isə o qədər də rahat deyildi.*

*Amma zaman keçdi, qadınlar da velosiped sürməyə başladılar. Velosiped onların geyim tərzini də dəyişdi. Qadınlar artıq rahat velosiped sürə bilirdilər. Beləliklə, onlar hərəkət sərbəstliyinin nə olduğunu başa düşdülər. Artıq onlar velosipedə minib kilometrlərlə yol gedə bilirdilər.*

*1884-cü ildə Tomas Stivens adlı bir ingilis ilk dəfə olaraq velosipedlə dünya səyahətinə çıxdı. Bundan on il sonra Anni Koen adlı bir qadın velosipeddə dünya səyahətini təkrar etdi. O bütün Yer kürəsini öz velosipedi ilə gəzdi və beləliklə, qadınların bu sahədə heç də kişilərdən geri qalmadığını sübut etdi.*

*Lakin məsələ bununla bitmədi. Qadınlar daha sonra avtomobil sükanı arxasına keçdilər və*

*yavaş-yavaş avtomobillərdə dəyişiklik etməyə başladılar. Şüşəsilən fırçaları, mühərrik üçün səsboğucunu məhz qadınlar ixtira etmişlər. Avtomobil zavodları da qadınların rahatlığına xüsusi diqqət yetirməyə başladı. Üstüörtülü maşınlar məhz onlar üçün ixtira olunmuşdu.*

**İş dəftəri, səh. 43**

**1.** Uyğunluğu müəyyən et.

**Cavab:** 1 – C; 2 – B; 3 – A.

**İş dəftəri, səh. 43**

**2.** "İxtiraçı və yenilikçi qadınlar" dinləmə mətninə əsasən doğru fikirləri müəyyənləşdir.

**Cavab:** 3, 4

**İş dəftəri, səh. 43**

**3.** Mətnə əsasən cümləni tamamla.

**İş dəftəri, səh. 43**

**4.** Anni Koen neçənci ildə dünya səyahətinə çıxdı. Misal qurmaqla sualı cavablandır.

**İş dəftəri, səh. 43**

**5.** Mətnin növünü, mövzusunu müəyyənləşdir.

**İş dəftəri, səh. 43**

**6.** Mətndəki əsas fikri müəyyənləşdir.

**Cavab:** B

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir. | Tap. 1 (D.) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. 1 (D.) |
| İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır. | Tap. 1 (D.) |
| Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir. | Tap. 1 (D.) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2, 3 (İ.D.) |
| Faktlardan istifadə etməklə dinləmə mətnində birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir. | Tap. 4 (İ.D.) |
| Mətndə "mövzu", "məzmun", "ideya" anlayışlarını fərqləndirir. | Tap. 5 (İ.D.) |
| Mətnin əsas fikrini müəyyənləşdirir. | Tap. 6 (İ.D.) |

# 3-cü DƏRS
# Köməkçi nitq hissələri

**Təlim nəticələri:**
- Kontekstə uyğun köməkçi sözlər seçib yazır (st. 4.1.1).
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).
- Durğu işarələrinin işlənmə yerini və məqsədini müəyyən edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 71**

**1.** Verilmiş cümlələrdə leksik mənası olmayan sözləri müəyyən edin.

Motivasiya xarakterli tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

**Cavab:** 1. **Ura**, qələbə bizimdir!

2. Süreyya **və** Nübar parka **tərəf** getdilər.

3. Məsələ çətin idi, **amma** Qüdrət onu **da** həll etdi.

4. Azərbaycan qəhrəman oğulları **ilə** fəxr edir.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları izah edir.

**Dərslik, səh. 71**

**2.** Cümlələrdə altından xətt çəkilmiş sözlərin yaratdığı məna çalarını müəyyən edin.

**Cavab:** 1 – C; 2 – Ç; 3 – B; 4 – A.

**Dərslik, səh. 71**

**3.** Cümlələrdə işlənmiş köməkçi nitq hissələrini tapın və qrammatik funksiyasını müəyyən edin.

1. **Heyif**. Fikrə münasibət ifadə edir.
2. **Məhz**. Sözün təsirini gücləndirir.
3. **Qarşı**. Məna çaları yaradır.
4. **Vay**. Hiss, həyəcan ifadə edir.
5. **Çünki**. Cümlələr arasında əlaqə yaradır.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 44**

**1.** Cümlələri oxu. Köməkçi nitq hissələrinin altından xətt çək.

**Cavab:**

1. Səidə ən çalışqan şagirddir.
2. Əhməd torbanı qaldırmağa çalışdı, amma gücü çatmadı.
3. Bulağın suyu buz kimi idi.
4. Heyif ki, yığıncağa gələ bilmədim.

**İş dəftəri, səh. 44**

**2.** Uyğunluğu müəyyən et. Onları cümlədə işlədib yaz.

**Cavab:** 1 – C; 2 – Ç; 3 – B; 4 – A.

**İş dəftəri, səh. 44**

**3.** Cümlələrin təsir gücünü artıran köməkçi sözlərin altından xətt çək.

**Cavab:**

1. Səid bu dəfə **lap** astadan danışırdı.
2. **Kaş** belə görüşlər tez-tez olardı.
3. **Qoy** yatsın, çox yorulub.
4. **Bəs** bu kitabı kim oxudu?
5. Gecikirik, bir az tələsin **də**.

**İş dəftəri, səh. 44**

**4.** Nöqtələrin yerinə uyğun söz seçərək cümlələri tamamla. Uyğun yerlərdə vergül qoy.

**Cavab:**

1. **Deyəsən**, bu gün hava isti olacaq. (*şübhə*)
2. Nənəmin bişirdiyi plov, **sözsüz**, çox dadlı olur. (*əminlik*)
3. Ən sevimli fincanımı sındırdım, **heyif**. (*təəssüf*)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyarlar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tap. 1, 2, 5, 6, 7 (D.), tap. 1, 2, 3, 4 (İ.D.) |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tap. 3, 4 (D.) |
| Durğu işarələrinin işlənmə yerini və məqsədini müəyyən edir. | Tap. 3, 8 (D.) |

# 4-cü bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Əsas nitq hissələrinin leksik-qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.1).
- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.1).

**Dərslik, səh. 72**

**1.** Verilmiş feilləri məsdər formasında işlədin.

Tapşırıq şagirdlərin ahəng qanunu və feilin məsdər forması haqqında biliklərini tətbiq etməyə şərait yaradır. Şagirdlər hər feil üçün ahəng qanununa uyğun olaraq məsdər şəkilçisini müəyyən edir və seçimlərini əsaslandırırlar. Bu zaman fikrini düzgün çatdırma, əsaslandırma kimi bacarıqlar da formalaşır.

**Dərslik, səh. 72**

**2.** Cümlələrdə nöqtələrin yerinə sağ sütundakı sözlərdən uyğun olanını seçin.

**Cavab:** 1 – C; 2 – D; 3 – A; 4 – B; 5 – Ç.

**Dərslik, səh. 72**

**3.** *O, bu* əvəzliklərərini *hansı?* sualına cavab verdiyi cümlələri seçin.

**Cavab:** 1. O dağın başında qədim qala var.
3. Bu yerlərin təbiəti çox gözəldir.

**Dərslik, səh. 72**

**4.** Cümlələrdəki köməkçi nitq hissələrini tapın və onların qrammatik funksiyasını müəyyən edin.

**Cavab:**
1. Biz hamıdan **əvvəl** gəlmişdik. (*qoşma*)
2. Dünəndən hava tutulmuşdu, **amma** yağış yağmırdı. (*bağlayıcı*)
3. **Bəs** bu gün bizə gəlmirsən? (*ədat*)
4. **Əlbəttə,** sən yaxşı qiymət alacaqsan. (*modal söz*)

**Dərslik, səh. 72**

**5.** Nöqtələrin yerinə uyğun gələn köməkçi nitq hissəsi yazmaqla cümlələri köçürün.

**Cavab:**
1. **Nəhayət**, gözlədiyimiz gün gəlib çatdı.
2. Görüşə gəlmədi, **yəqin**, işi çox olub.
3. **Həqiqətən**, çox təsirli film idi.
4. **Heyif ki**, səninlə görüşə bilmədik.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin məsdər şəkilçisindən düzgün istifadə edir. | Tap. 1, 2 (D.) |
| Köməkçi nitq hissələrinin qrammatik funksiyalarını müəyyənləşdirir. | Tap. 4, 5 (D.) |
| Əvəzliklərin işlənmə yerini və məqsədini müəyyən edir. | Tap.3 (D.) |

# 4-cü bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 45-46-cı səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün mətndəki mənasını müəyyənləşdirir. | Tap. 1 |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyənləşdirir. | Tap. 2 |
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. 3 |
| Mətndən fikrini əsaslandırmağa kömək edən faktı (məlumatı) seçir. | Tap. 4 |
| Məsdərləri ismin müvafiq halında işlətməklə cümlələri tamamlayır. | Tap. 5 |
| Buraxılmış köməkçi sözləri yerinə qoymaqla cümlələri tamamlayır. | Tap. 6, 7, 8 |
| Söz sırasına əməl etməklə qurduğu cümlədə işarə əvəzliklərini seçir. | Tap. 9 |

Bölmə 5

# TƏBİƏTİN SİRLƏRİ

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik | İş dəftəri | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **İnsan və təbiət** | | | | | |
| 1 | Meşələrin dostluğu | Oxu | 74-76 | 47 | 76-77 |
| 2 | Ana Təbiətin uşaqlara məktubu | Dinləmə<br>Yazı (məktub) | 76 | 48 | 77-79 |
| 3 | Söz, söz birləşməsi, cümlə | Yazı (dil qaydaları) | 77 | 49 | 79-80 |
| 2-ci fəsil. **Hər canlının öz taleyi var** | | | | | |
| 4 | Çirkin ördək balası | Oxu | 78-81 | 50 | 81-82 |
| 5 | İnkubasiya nədir? | Oxuyub-qavrama | 81-82 | 51 | 82-83 |
| 6 | Çil toyuq | Dinləmə | 82 | 52 | 84-86 |
| 7 | Cümlə üzvləri. Mübtəda və xəbər | Yazı (dil qaydaları) | 83 | 53 | 86 |
| 3-cü fəsil. **Memar canlılar** | | | | | |
| 8 | İnşaatçı mühəndislər<br>Hörümçək toru<br>Termitlər<br>Qanadlı memarlar | Oxu | 84-88 | 54-56 | 87-89 |
| 9 | Memar canlılar | Danışma (təqdimat) | 88 | – | 89 |
| 10 | Xəbərin mübtəda ilə uzlaşması | Yazı (dil qaydaları) | 89 | 57 | 89-90 |
| 11 | Ümumiləşdirici təkrar | | 90 | 58-59 | 90-91 |

# 1-ci fəsil
# İNSAN VƏ TƏBİƏT

## 1-ci DƏRS
## Meşələrin dostluğu

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir (st. 3.1.2).
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.2).
• Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin titul səhifəsindəki şəkillərə, bölmənin adına yönəldir.

**Danışma**

Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər əsasında həyata keçirilir.

**Dərslik, səh. 75**

> **1.** 3-cü sinifdə qəribə canlılar (yarasa, sincab və s.) haqqında oxuduqlarınızı xatırlayın. Onların hansı qəribəlikləri var?
> **2.** Başqa hansı canlıların sirli davranışları haqqında öyrənmək istərdiniz?

**Müəllimin nəzərinə!** 3-cü sinifdə şagirdlər "Qəribə canlılar" bölməsində it və pişiklərin eşitmə, iybilmə, yarasanın qaranlıqda görmə, sincabın "bağbanlıq" bacarıqları haqqında məlumat almışlar.

Şagirdlər şəkillərdə gördüklərini təsvir edirlər. Müəllim danışmağa həvəsləndirmək üçün yönəldici suallardan istifadə edir.

1. Qadın nə üçün quş yuvasını əlinə almışdır?

2. Ağac budağını gəmirən heyvan haqqında nə bilirsiniz?

Şagirdlər suallarla bağlı ehtimallarını söyləyirlər.

**Oxu ("Meşələrin dostluğu" mətni)**

**Dərslik, səh. 74-75**

Oxuya hazırlıq üçün verilmiş sual mövzuya maraq oyatmaq məqsədi daşıyır:

> **1.** Quşlar nə ilə qidalanır? Sizcə, quşların təbiətə hansı faydaları var?

**Cavab:** Dənli bitkilər və həşəratlarla. Quşlar həşəratları məhv etməklə təbiətdə bitki örtüyünü ziyanvericilərdən qoruyurlar.

Daha sonra müəllim şagirdlərin diqqətini mətnin başlığına yönəldə bilər:

– Sizcə, mətn nə üçün belə adlandırılıb? Meşələr necə dostluq edə bilər?

**Söz ehtiyatı**

Mətn oxunduqdan sonra ilk növbədə söz ehtiyatı üzərində iş aparılır. Şagirdlər əvvəlcə mətndə rast gəlinən frazeoloji birləşmələrin mənalarını araşdırırlar.

> **2.** Mətndə rast gəldiyiniz ifadələri izahlarla uyğunlaşdırın.

**Cavab:**

1. sinə gərmək – b
2. boya-başa çatmaq – c
3. dünyaya göz açmaq – a

Daha sonra "xətər" sözünün işləndiyi frazeoloji birləşmələrin mənaları açıqlanır.

> **3.** "Xətər" sözünün mətndəki mənasından çıxış edərək aşağıdakı cümlələrdə fərqləndirilmiş ifadələri izah edin.

1. Güclü külək bağdakı ağaclara xeyli ***xətər yetirmişdi***.

2. Narahat olmayın, məndən sizə ***xətər gəlməz***.

> **4.** Nömrələnmiş boşluqların yerinə hansı sözlər uyğun gəlir?

Mətndə bəzi köməkçi nitq hissələri buraxılmışdır. Şagirdlər kontekstdən çıxış edərək uyğun sözləri müəyyən edirlər.

**Cavab:** B

Daha sonra "Söz mücrüsü"ndəki digər sözlərin mənası izah olunur.

**Oxuyub-qavrama**
**Dərslik, səh. 76**

**5.** Sizcə, quş yuvalarını meşədən daşıyanlar kimlər idi? Seçiminizi əsaslandırın.

Bu sualı cavablandırmaq üçün şagirdlər mətndəki hadisə və faktlardan nəticə çıxarmaq bacarıqlarını nümayiş etdirməlidirlər.

**Cavab:** C

**6.** Ağacdələn haqqında bildiklərinizi yada salın və altından xətt çəkilmiş cümləni izah edin. Nə üçün bu quşun gövdəni dimdikləməsi ağaca xoş gəlirdi?

Bu sual da mətndəki sətiraltı informasiyanı oxumaq bacarığı tələb edir.

Mətndə deyilir: "Ağacdələn qoca palıdın gövdəsində oturub ... dimdiyi ilə ağacın qabığını dəlirdi. Qoca palıd ağacdələnin bu hərəkətindən heç vaxt incimirdi, xoşu gəlirdi, sanki canı rahatlanırdı".

**Cavab:** Məlumdur ki, "meşə sanitarı" adlandırılan ağacdələn ağacın qabığını dələrək orada yuva salmış cücüləri məhv edir. Bu isə ağacların sağlam qalmasına imkan verir.

**7.** Cümlələri tamamlayın.

**Cavab:** 1. İnsanların yeni saldıqları meşə məhv olurdu, çünki orada zərərverici həşəratlar çoxalmışdı.

2. İnsanlar quşları yuvaları ilə birlikdə yeni meşəyə apardılar ki, onlar ağacları zərərvericilərdən təmizləsinlər.

**8.** Mətndən hansı elmi məlumatları əldə etdiniz?

"Meşələrin dostluğu" bədii mətn olsa da, elmi məlumatlarla zəngindir. Şagirdlər mətnin müxtəlif hissələrindən palıd ağacı, ağacdələn, quşların faydaları, insanların təbiəti mühafizə etməsi haqqında əldə etdikləri məlumatları söyləyirlər. Məsələn: *palıd – iri, uzunömürlü ağacdır, ağacdələn ağacların qabığını dələrək orada yuva salmış zərərverici həşəratları məhv edir.*

**Oxu. Yazı**
**İş dəftəri, səh. 47**

**1.** "Meşələrin dostluğu" mətninin 2-ci və 3-cü abzaslarına əsasən meşəyə gələn insanların əməllərini təsvir et.

Bu tapşırıq yazı ilə inteqrasiya yaradır. Şagirdlər meşəyə gələn 1) xeyirxah insanların, 2) meşəyə ziyan verənlərin və 3) müşahidəçilərin davranışını öz sözləri ilə yazırlar.

İş dəftərindəki 2-ci tapşırıqda mətnin bitkin hissələri yarımbaşlıqlarla adlandırılıb. Şagirdlər yarımbaşlıqlara görə həmin hissələri müəyyən etməlidirlər. Bu tapşırıq şagirdlərdə mətnin kompozisiyasını müəyyənləşdirmək bacarığını formalaşdırır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tap. 2, 3, 4 (D.) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir. | Tap. 5, 6 (D.) |
| Mətndəki hadisə və faktlar arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 7 (D.) |

# 2-ci DƏRS
# Ana Təbiətin uşaqlara məktubu

**Təlim nəticələri:**
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 2.2.1).
- Dinlədiyi mətnin qısa məzmununu yazır (st. 4.1.3).
- Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub) yazır (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Keçmiş dərsin mövzusu xatırlanır. Müəllim mətnin 2-ci abzasını bir daha oxumağı tapşırır: *Meşəyə cürbəcür adamlar gəlirdilər. Bəziləri xeyirxah idi. Gəlib göbələk, moruq yığır, talada dincəlib gedirdilər. Amma elə adamlar da vardı ki, tonqal qalayır, ağacları sındırır, meşə heyvanlarına güllə atırdılar. Qoca palıd onları sevmirdi.*

Müəllim şagirdlərin diqqətini təbiətə ziyan verən insanların əməllərinə yönəldir. "Təbiətin mühafizəsi" mövzusunda müzakirə keçirilir.

**Dinləmə**

Aşağıdakı mətni səsləndirməzdən əvvəl müəllim bildirir ki, indi **Ana Təbiətin uşaqlara məktubu**nu oxuyacaq.

*Salam, mənim əziz balalarım.*

*Bilin və agah olun ki, Yer üzündə bütün canlılar mənim balalarımdır. Ona görə də mənə Ana Təbiət deyirlər.*

*Siz, yəqin ki, hər səhər güzgüyə baxırsınız və orada özünüzü görürsünüz. Mən də tez-tez güzgüyə baxıram. Bilirsiniz, orada nələr görürəm? Meşədə gəzən heyvanları, göydə qanad çalan quşları, suda üzən balıqları, yer altında yuva quran qarışqaları...*

*Bəli, bunlar hamısı mənəm – Ana Təbiət.*

*Yer üzündəki bütün canlılar böyük bir ailədir. Ancaq son vaxtlar bir çox heyvanlar, quşlar mənə şikayət edirlər. Deyirlər ki, insanlar bizi incidirlər – ağacları kəsir, odlu silahlarla heyvanları öldürür, suları çirkləndirib balıqları məhv edirlər.*

*Ola bilsin, bu insanlar bilmirlər ki, həmin canlılar onların bacı-qardaşlarıdır. Bəlkə də, onlar elə düşünürlər ki, Ana Təbiət çox böyükdür, bir neçə canlını öldürməklə heç nə olmaz. Elə deyil!*

*Baxın, sizin barmağınıza kiçik bir tikan batanda çox ağrıdır, eləmi? Yer üzündə bir insan kiçik qarışqa yuvasını dağıdanda mənim bədənim də elə ağrıyır.*

*İnsanları başa salın. Deyin ki, mən onların eviyəm. Adam yaşadığı evi çirkləndirməz, bacı-qardaşını incitməz. Çünki bu evdən başqası yoxdur və o, həmişə sizin olacaq.*

*Sağlıqla qalın, mənim balalarım. Bir-birinizə və təbiətdəki bacı-qardaşlarınıza qarşı qayğıkeş və xeyirxah olun.*

Dinləmə mətninin qavranıldığını yoxlamaq üçün müəllim dərslikdəki 1-ci sualdan istifadə edə bilər:

**Dərslik, səh. 76**

**1.** Ana Təbiət "Adam yaşadığı evi çirkləndirməz" dedikdə haranı nəzərdə tuturdu?

**Cavab:** Yer kürəsini, təbiəti.

Qavramanı yoxlamaq üçün başqa suallar da verilə bilər:

– Ana Təbiəti narahat edən nədir?

– Onun uşaqlardan xahişi nədən ibarətdir?

Daha sonra mətnin növü müəyyənləşdirilir. Müəllim əlavə məlumatlar və yönəldici suallar vasitəsilə məktub yazı formasının xüsusiyyətləri barədə şagirdlərlə söhbət aparır.

*– Hər bir məktub müəyyən məqsədlə yazılır: məlumat vermək, xəbərdarlıq etmək, təşəkkür etmək, xahiş etmək və s.*

**Dərslik, səh. 76**

**2.** "Ana Təbiətin uşaqlara məktubu"nu dinləyin. O bu məktubu hansı məqsədlə yazmışdır?

**Cavab:** B

Daha sonra şagirdlərə məktubun quruluşu haqqında məlumat verilir:

– Hər bir məktub müraciətdən və salamlaşmadan başlayır. Əgər məktubun müəllifi müraciət etdiyi şəxslə tanış deyilsə, salamlaşmadan sonra özünü təqdim edir. Daha sonra bu məktubun nə üçün yazıldığı izah olunur. Bundan sonra müəllif xahiş və ya təşəkkür edir. Nəhayət, sonda müraciət etdiyi şəxslə sağollaşır.

Bu təlimatdan sonra şagirdlər iş dəftərindəki tapşırığı yerinə yetirirlər.

**İş dəftəri, səh. 48**

**1.** Verilmiş plan əsasında "Ana Təbiətin uşaqlara məktubu"nu öz sözlərinlə yaz.

Bunun üçün müəllim mətni bir daha səsləndirə bilər.

**Danışma**

Növbəti tapşırığa keçməzdən əvvəl müəllim şagirdlərə müraciət edir:

*– Sizcə, Ana Təbiətin xahişinə əməl etmək üçün nə etmək lazımdır?*

Daha sonra şagirdlərin diqqəti 3-cü tapşırıqdakı şəkillərə yönəldilir.

**Dərslik, səh. 76**

**3.** Şəkillərdən istifadə edərək "Təbiətin qorunması" mövzusunda danışın.

Tapşırıq qruplarla iş şəklində də yerinə yetirilə bilər. Hər qrup bir şəkil üzrə mətn hazırlayıb təqdim edir. Bu halda şagirdlərə tapşırmaq lazımdır ki, qurduqları mətn ən azı üç cümlədən ibarət olsun. Məsələn:

**I şəkil.** Yer üzündə bitki örtüyü çox olsa, təbiət daha gözəl olar. Canlıların yaşaması və çoxalması üçün daha yaxşı şərait yaranar. Bunun üçün insanlar çoxlu ağac əkə bilərlər. Ağaclara qulluq etmək, onları sulamaqla biz təbiəti gözəlləşdiririk.

**Yazı**

Müəllim bir daha Ana Təbiətin uşaqlara məktubunu xatırladır: "*İnsanları başa salın. Deyin ki, mən onların eviyəm...*"

**Dərslik, səh. 76**

**4.** Ana Təbiətin xahişini bütün insanlara çatdırmaq üçün məktub yazın.

Dinlənilmiş mətnin təhlilindən sonra şagirdlər artıq məktub yazı formasının strukturu ilə tanışdırlar. Müəllim bir daha bu strukturu xatırladır: 1. Salamlaşma, müraciət. 2. Təqdimetmə. 3. Problemin izahı. 4. Xahiş. 5. Sağollaşma.

Şagirdlər bir-birinin yazısını oxuyur və münasibət bildirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tap. 1, 2 (D.) |
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. 3 (D.) |
| Dinlədiyi mətnin qısa məzmununu yazır. | Tap. 1 (İ.D.) |
| Verilmiş situasiyaya, məqsədə uyğun məktub yazır. | Tap. 4 (D.) |

# 3-cü DƏRS
# Söz. Söz birləşməsi. Cümlə

**Təlim nəticələri:**

- Söz birləşmələrini söz və cümlədən fərqləndirir (st. 4.1.2).
- Söz birləşmələri qurarkən sözləri uyğun qrammatik formada işlədir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 77**

**1.** Ortadakı şəkli elə adlandırın ki, digər iki şəkildən fərqləndirmək mümkün olsun.

Tapşırıqda sarı, qırmızı, yaşıl rənglərdə almalar təsvir olunub. Müəllim sinfin səviyyəsinə uyğun olaraq tapşırığın şərtini bir qədər genişləndirə bilər:

– Şəkillərdə nə təsvir olunub?

– Alma.

– Onlar hansı əlamətə görə fərqlənir: ölçüsünə, formasına, yoxsa rənginə görə?

– Rənginə görə.

Şagirdlər tapşırığı yerinə yetirdikdən sonra yenidən sual verilə bilər:

– "Alma" və "qırmızı alma" ifadələri bir-birindən nə ilə fərqlənir? Onlardan hansı şəkildəki əşyanı daha dəqiq ifadə edir?

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Nəzəri material mənimsədilir. Rubrikadakı cədvəl vasitəsilə şagirdlər dil vahidlərini – sözü, söz birləşməsini, cümləni bir-birindən fərqləndirməyi öyrənirlər.

**Dərslik, səh. 77**

**2.** Verilmiş cümlələrdəki söz birləşmələrini tapıb köçürün.

Tapşırıqda "Meşələrin dostluğu" mətnindən aşağıdakı parça verilmişdir:

*Cavan ağacdələn palıdın gövdəsində oturub quyruq lələklərini gövdəyə dirəmişdi. O, dimdiyi ilə ağacın qabığını dələrdi. Qoca palıd ağacdələnin bu hərəkətindən heç vaxt incimirdi.*

Tapşırığın çətinlik dərəcəsi yüksəkdir.

1. Bu parçada mürəkkəb söz birləşmələri var ki, onları ayrı-ayrı söz birləşmələrinə ayırmaq mümkündür. Məsələn: *palıdın gövdəsində otu-*

*rub – palıdın gövdəsi, gövdəsində oturub.* Bu məsələdə şagirdlərə sərbəstlik vermək lazımdır; onlar mürəkkəb söz birləşmələrini bütöv şəkildə və ya parçalayaraq qeyd edə bilərlər. Əsas məqsəd birləşmələri müəyyən etməkdir.

2. Mətndə qoşmalı söz (dimdiyi ilə) və ayrı yazılan mürəkkəb zərf (heç vaxt) işlənmişdir. Müəllim bildirməlidir ki, bu cür ifadələr söz birləşməsi sayılmır, çünki söz birləşməsinin tərkib hissələri leksik mənası olan sözlərdən, yəni əsas nitq hissələrindən ibarət olur.

**Dərslik, səh. 77**

**3.** Verilmiş sözlərdən söz birləşməsi yaradın.

**Cavab:** quş yuvası, atanın kitabı, filmə baxmaq, köynəyin rəngi, axşam işdən qayıdanda

**Dərslik, səh. 77**

**4. Cütlərlə iş.** Hər şəklə aid 3 söz, 2 söz birləşməsi, 1 cümlə yazın.

Aşağıdakı cavab variantları ola bilər:

**1-ci şəkil.** Sözlər: *oğlan, mişar, taxta*. Söz birləşmələri: *mişarla taxtanı kəsmək, it evciyi*. Cümlə: *Oğlan mişarla taxtanı kəsir*.

**2-ci şəkil.** Sözlər: *qız, cücə, toyuq*. Söz birləşmələri: *sarı cücələr, hirslənən toyuq*. Cümlə: *Qız cücələri əlində tutub*.

İş dəftərindəki tapşırıqlar formativ qiymətləndirmə məqsədilə istifadə oluna bilər.

**İş dəftəri, səh. 49**

**1.** Hansı bənddə söz birləşməsi verilib?

**Cavab:** B

**2.** Uyğunluğu müəyyən edərək söz birləşmələri düzəlt və yaz.

Şagirdlər sözlər arasındakı məna əlaqələrindən çıxış edərək söz birləşmələri yaradırlar: *dəniz sahili, xalq mahnısı, insanın arzusu, topu tutmaq, alma bağı.*

İş dəftərindəki digər tapşırıqlarda tətbiq olunan bacarıq söz birləşmələrinin mahiyyətini daha dərindən anlamağa kömək edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşmələrini söz və cümlədən fərqləndirir. | Tap. 2 (D.), tap. 1 (İ.D.) |
| Söz birləşmələri qurarkən sözləri uyğun qrammatik formada işlədir. | Tap. 3, 4 (D.), tap. 2, 4 (İ.D.) |

# 2-ci fəsil
# HƏR CANLININ ÖZ TALEYİ VAR

## 1-ci DƏRS
## Çirkin ördək balası

**Təlim nəticələri:**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).
• Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur (st. 3.1.1).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).
• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**
**Dərslik, səh. 78**

**1.** Qu quşu və ördək haqqında məlumatları dinləyin. Şəkillərə baxaraq bu quşları və onların balalarını müqayisə edin.

Müəllim şagirdlərin diqqətini dərslikdəki birinci tapşırığa yönəldir. Qu quşu, ördək və onların balalarını şəkillərə baxaraq təsvir etməyi tapşırır. Daha sonra qu quşu və ördək haqqında kiçik məlumat verir.

**Qu quşu.** İri çöl quşudur. Qanadları uzun və enlidir. Açıq vəziyyətdə qanadlarının ucları arasında məsafə 1,5-3 metrə çatır, çəkisi isə 12-15 kq arasında olur. Rəngləri tamam ağ, boz və ya qara olur. Qu quşu çox uzun və nazik boynu vasitəsilə suyun dibində yem axtara bilir. Ayaqları gödək, dimdiyi uzun və bərk olur.

**Ördək.** Geniş yayılmış və çoxlu növləri olan quşdur. Bəzi növləri insanlar tərəfindən əhliləşdirilmişdir. Başqa ev quşları kimi ördəyin də ətindən, yumurtasından və tükündən istifadə olunur. Bədəni enlidir. Boynu çox da uzun deyil, başı isə kiçikdir. Enli və yastı dimdiyi var.

**Oxu ("Çirkin ördək balası" mətni)**
**Dərslik, səh. 78-80**

Mətn böyük olduğu üçün hissəli oxu üsulundan istifadə etmək tövsiyə olunur. Hər bir hissənin oxusundan sonra müəllim yönəldici suallarla şagirdlərin diqqətini həmin hissədə verilmiş vacib məqamlara yönəldir. Məsələn, 1-ci hissənin oxusundan sonra müəllim şagirdlərə bir daha şəkillərə baxaraq və dinlədikləri bilgilərdən çıxış edərək yumurtadan sonuncu çıxan bala ilə digərləri arasında oxşar və fərqli cəhətləri izah etməyi tapşırır.

Müəllim şagirdlərin mətni ifadəli oxumalarına, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrinə diqqət yetirir.

**Söz ehtiyatı**

Mətn oxunduqdan sonra ilk növbədə söz ehtiyatı üzərində iş aparılır. Şagirdlər tapşırıqları yerinə yetirməklə "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 80**

**2.** "Lağ eləmək" ifadəsini hansı sözlə əvəz etmək olar?

**Cavab:** B

**Dərslik, səh. 81**

**3.** "Söz mücrüsü"ndən istifadə etməklə aşağıdakı şəkilləri adlandırın.

**Cavab:** 1 – qamışlıq; 2 – çəllək; 3 – maşa.

**Oxuyub-qavrama**
**Dərslik, səh. 81**

**4.** 80-ci səhifədəki illüstrasiyada təsvir olunan hansı quş əsərin qəhrəmanıdır? Mətnə istinad edərək fikrinizi əsaslandırın.

Mətndə deyilir ki, sonuncu yumurtadan çıxan bala o birilərdən böyük və çirkin idi. Şagirdlər bu məlumata istinad edərək əsərin qəhrəmanını asanlıqla müəyyənləşdirə bilərlər.

**Dərslik, səh. 81**

**5.** Cümlələri mətndəki hadisələrin ardıcıllığına uyğun sıralamaqla oxuyun.

**Cavab:** C, D, Ç, A, B.

**İş dəftəri, səh. 50**

**1.** "Çirkin ördək balası" mətninin hissələrini məzmuna uyğun yarımbaşlıqlarla adlandır.

Şagirdlər mətnin hissələrini təxəyyüllərinə uyğun müxtəlif cür adlandıra bilərlər. *Məsələn*:

1. Qəribə ördək balası.
2. Heç nə bacarmayan ördək balası.
3. Hamıdan qorxan ördək balası.
4. Gözəl qu quşuna çevrilən ördək balası.

**İş dəftəri, səh. 50**

**2.** Mətnin verilmiş şəklə uyğun gələn hissəsini öz sözlərinlə yaz.

Şagirdlər mətnin 3-cü hissəsini xatırlayaraq kiçik mətn yazırlar.

**İş dəftəri, səh. 50**

**3.** Mətnin bu hissəsinə hansı atalar sözləri uyğun gəlir?

B) Göz gördüyündən qorxar. (Hamının incitdiyi ördək balası onunla sadəcə oynamaq istəyən uşaqlardan qorxdu.)

C) Tələsən təndirə düşər. (Ördək balası özünü uşaqların anasından qurtarmaq üçün qaçanda tələsdiyindən yağ qabına, sonra isə un çəlləyinin içinə düşdü.)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. 1 (D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tap. 2, 3 (D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 4 (D.) |

# 2-ci DƏRS
# Çirkin ördək balası

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 2.2.1).
• Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir (st. 3.1.2).
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 81**

**1.** Oxuduğunuz əsərin adına diqqət edin. Sizcə, əsərin qəhrəmanı doğrudanmı ördək balasıdır?

Müəllim yönəldici suallarla şagirdləri müzakirəyə cəlb edir:

1. Əsərin adı nədir?
2. Nə üçün qonşu ördək sonuncu balanın hindtoyuğunun yumurtasından çıxdığını düşünür?
3. Bəs niyə ana ördək onu öz balası kimi qəbul edir?
4. Əsərin sonunda qəhrəmanın gözəl qu quşuna çevrilməsi hansı nəticəyə gəlməyə imkan verir?

Şagirdlər bu nəticəyə gəlirlər ki, "Çirkin ördək balası" adlanan mətnin qəhrəmanı, əslində, qu quşu balasıdır.

**Dərslik, səh. 81**

**2.** Sizcə, necə olub ki, qu quşunun yumurtası ördəyin yuvasına düşüb? Verilmiş şəkillərə uyğun hekayə qurun və mətnin giriş hissəsini genişləndirərək nəql edin.

**Müəllimin nəzərinə!** Bu tapşırıq oxu və danışma təlim xətlərinin inteqrasiyasını ehtiva edir. Şagirdlər tapşırıqda təqdim olunmuş şəkillərə uyğun hekayə qurub danışmaqla oxuduqları mətnin giriş hissəsini genişləndirmiş olurlar.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 82**

**3.** Mətnin 2-ci hissəsində pişik və toyuğun ördək balasına dediklərini yada salın. Sizcə, daxmadakı qarının iti, inəyi olsa idi, onlar ördəyə nə deyərdilər?

Şagirdlər bu sualı ev heyvanları haqqında biliklərinə əsaslanaraq cavablandırırlar.

**Dərslik, səh. 82**

**4.** "Çirkin ördək balası" nağılının girişində deyilir: "Ana ördək baxıb gördü ki, hələ yumurtalardan biri çatlamayıb. Təzədən onun üstündə oturdu. Axır ki, bu böyük yumurta da çatladı".
Sizcə, nə üçün çirkin ördək balası yumurtadan gec çıxdı? Bu haqda fikirlərinizi söyləyin. Sonra isə aşağıdakı mətni oxuyub öz fikirlərinizlə müqayisə edin.

Tapşırıq şagirdlərin təxminetmə bacarığının inkişafına yönəlib.

**Diferensial təlim.** Kifayət qədər çətin olan tapşırığın yerinə yetirilməsi zamanı şagirdlərin mövzu ilə tanışlıq səviyyəsinin nəzərə alınması vacibdir. Kənddə və ya həyətində ev quşları saxlanılan evdə yaşayan uşaqlardan fərqli olaraq şəhərdə yaşayan uşaqların bu barədə təsəvvürlərinin məhdud olması təbiidir. Müəllim onlara yönəldici suallarla kömək edə bilər.

Sonda şagirdlər fikirlərini dərslikdə verilmiş "İnkubasiya nədir?" mətni ilə müqayisə edirlər. Müqayisə nəticəsində aydınlaşdırırlar ki, qu quşları ördəklərdən təxminən 10 gün artıq kürt yatırlar. Elə buna görə də çirkin ördək balası yumurtadan gec çıxdı, axı, əslində, o, qu quşunun balası idi.

İş dəftərində təqdim olunmuş tapşırıqlar bədii mətndəki obrazları təhlil etmək, onların davranışlarına münasibət bildirmək kimi bacarıqların inkişafına yönəldilib.

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 51**

**1.** Çirkin ördək balasına xas olan xüsusiyyəti seç.

**Cavab:** qətiyyətsizdir.

Sonra şagirdlər ördək balasının bu xüsusiyyətini əks etdirən epizodları öz sözləri ilə yazırlar. Məsələn, doğulduğu həyətdə hamıdan çəkindiyini, özünü müdafiə edə bilmədiyini, qarının evində toyuq və pişiyin qarşısında aciz qaldığını, çətinliklə qarşılaşanda qaçıb getməkdən başqa yol tapmadığını qeyd edə bilərlər.

Sonda şagirdlər baş qəhrəmanın bu xüsusiyyətinə münasibət bildirirlər.

**İş dəftəri, səh. 51**

**2.** Nağıldakı obrazlar haqqında fikirlərini yaz.

Şagirdlər nağıldakı obrazların əsas xüsusiyyətlərini yazmaqla bərabər, onların davranışı ilə bağlı epizodları təsvir edir və öz münasibətlərini bildirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa istinad edərək baş qəhrəmanı müəyyənləşdirir. | Tap. 1 (D.) |
| Şəkillər üzrə mətn quraraq oxuduğu mətni genişləndirir. | Tap. 2 (D.) |
| Mövzu ilə bağlı bilgilərindən istifadə etməklə mətnə yeni epizodlar əlavə edir. | Tap. 3 (D.) |
| Oxuduğu mətndəki faktla bağlı mülahizələrini bildirir və təqdim olunmuş versiya ilə müqayisə edir. | Tap. 4 (D.) |
| Bədii əsərin baş qəhrəmanı və digər obrazları xarakterizə edir. Onların davranışlarına münasibət bildirir. | Tap. 1, 2 (İ.D.) |

# 3-cü DƏRS
# Çil toyuq

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 1.1.1).
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.1).
• Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Müəllim frontal sorğu üsulu ilə "Çirkin ördək balası" mətninin məzmununu xatırladaraq şagirdlərə aşağıdakı suallarla müraciət edir.

1. Sizcə, nağıl qəhrəmanının bu hadisələrlə qarşılaşmasının səbəbi nədir?
2. Qu quşunun yumurtası ördək yumurtalarının arasına düşməsəydi, elə öz anasının yuvasında çatlasaydı, qəhrəmanın həyatı necə olardı?
3. Ev və ya çöl quşlarının yumurtalarının dəyişik düşməsi nəticəsində daha nələr baş verə bilər?

**Dinləmə**
**Dərslik, səh. 82**

**1.** "Çil toyuq" mətnini dinləyin. Bu mətni janr, mövzu və ideya baxımından "Çirkin ördək balası" mətni ilə müqayisə edin.

Dinləmə mətni səsləndirilir.

***Çil toyuq***

*Çil toyuğumuz üç gün idi ki, kürt düşmüşdü. Onun altına qoymağa toyuq yumurtası yox idi. Mağazadan alınan yumurtalar isə yaramırdı, çünki soyuducuya qoyulmuşdu. Buna gorə də nənəm qonşudan on beş ördək yumurtası alıb çil toyuğun altına qoydu. "Qoy ördək balası çıxsın, – dedi, – onsuz da ördəyimiz yoxdur".*

*Aradan xeyli keçdi. Bir gün dərsdən qayıdanda gördüm ki, çil toyuq yumşaqtüklü, bapbalaca, sarı ördək balaları ilə həyətdə gəzişir.*

*Ördək balaları o qədər qəşəng idilər ki, onlardan birini tutub əlimdə saxlamaq, oynatmaq istədim. Amma çil toyuq qəzəblə üstümə cumdu, tüklərini qabartdı:*

*– Qırt, qırt!*

*Balaca ördək balaları onun qabarmış tüklərinin arasına girdilər.*

*Günlər bir-bir ötdükcə ördək balaları da sürətlə böyüyürdü. Onların sarı, yumşaq tükləri də get-gedə rəngini dəyişir, bozarırdı.*

*İstirahət günü idi. Həyətimizin yanından keçən balaca çayın kənarında oturub kitab oxuyurdum. Birdən çil toyuqla balaca ördək balaları çayın qırağında göründülər. Çil toyuq onların arasında eşələnir, nəsə tapıb dimdiyi ilə ortaya atır, "qırt, qırt, qırt" deyə ördək balalarını çağırırdı. Onlar da analarının tapdığı hər şeyi balaca dimdikləri ilə didişdirirdilər.*

*Birdən ördək balalarından biri özünü çaya atıb üzməyə başladı. Qalanları da onun ardınca bir-bir suya atıldılar. Çil toyuq başını qaldırıb ördək balalarını suda gördü, qeyri-adi həyəcan və çığırtı ilə qaçıb çayın qırağına gəldi.*

*Amma ördək balaları çil toyuğun çığırtısına qulaq asmayıb suda oynaşırdılar. Çil toyuğun səsi bütün çay qırağını basmışdı. O, həyəcanla sahilboyu oyan-buyana qaçır, qırtıldayırdı.*

*Birdən nə görsəm, yaxşıdır? Çil toyuq suyun qırağına gəldi, narahat-narahat qanadlarını çırpdı, çaya atıldı, amma üzə bilməyib batmağa başladı.*

*Əvvəl bütün bunlara maraqlı bir tamaşa kimi baxırdım, sonra çil toyuğu bu vəziyyətdə görüb elə bil yuxudan ayıldım, qaçıb özümü paltarlı-paltarlı suya atdım.*

*Yaxşı ki, çay dayaz idi. Çil toyuğu götürüb sahilə çıxdım. Mən onu yerə qoydum, islanmış lələklərini sığalladım, ancaq o, ayaqlarını uzatdı, bulanıq gözlərini çaya dikdi və birdən yumdu. Onun sinəsi yavaş-yavaş soyuyurdu, bayaq vuran ürəyi isə indi dayanmışdı.*

*Başımı qaldırıb çaya baxdım. Balaca ördək balaları qayğısız-qayğısız suda oynaşırdılar...*

*Əmir Əyyubzadə*

Mətn dinlənildikdən sonra iş dəftərindəki 1–5-ci tapşırıqların yerinə yetirilməsi şagirdlərin mətnin məzmununu nə dərəcədə qavradıqlarını üzə çıxara bilər.

**İş dəftəri, səh. 52**

**1.** "Çil toyuq" mətni kimin dilindən nəql edilir?

**Cavab:** A

**İş dəftəri, səh. 52**

**2.** Nəyə görə nənə kürt toyuğun altına qoymaq üçün mağazadan yumurta almadı?

**Cavab:** B

**İş dəftəri, səh. 52**

**3.** Çayın qırağında gəzən çil toyuq niyə həyəcanlandı?

**Cavab:** C

**İş dəftəri, səh. 52**

**4.** Mətnin məzmununa uyğun olmayan fikirləri seç.

**Cavab:** *Ördək balası yumurtadan çıxanda boz rəngdə olur.*

*Mətndə hadisələr toyuq fermasında baş verir.*

**İş dəftəri, səh. 52**

**5.** Cümlələrin hansı mətnə aid olduğunu müəyyən et.
"Çirkin ördək balası" – **A**
"Çil toyuq" – **B**

**Cavab:** 2, 3, 4 – A; 1, 5 – B.

Növbəti mərhələdə şagirdlər dərslikdəki 1-ci tapşırığa qayıdıb "Çirkin ördək balası" və "Çil toyuq" mətnlərini janr, mövzu və ideya baxımından müqayisə edirlər.

**Cavab:** "Çirkin ördək balası" nağıl, "Çil toyuq" hekayədir.

Hər iki mətnin mövzusu quşların həyat tərzi ilə bağlıdır. Mətnlərdə hadisələr kürt düşən quşun altında başqa quşun yumurtasının olması ilə başlanır.

"Çirkin ördək balası" nağılının ideyası: "Xarici görkəm vacib deyil. Ən çirkin görkəmin altında gözəl qu quşu gizlənə bilər. Əsas odur ki, ruhdan düşməyəsən və özünə güvənəsən. Bu, həyatda öz yerini tapmağa kömək edəcək".

"Çil toyuq" hekayəsinin ideyası: "İnsanlar əhliləşdirdikləri heyvan və quşlardan öz tələbatlarını ödəmək üçün istifadə edirlər. Lakin onların da bu canlılar qarşısında öhdəlikləri var. İnsan onları öz təbii həyat şəraitindən ayırmaqla faciələrlə üzləşməsinə səbəb ola bilər".

**Dərslik, səh. 82**

**2.** Sizcə, çil toyuğun ölümündə kim günahkardır?

Tapşırığın müzakirə şəklində yerinə yetirilməsi tövsiyə olunur. Çil toyuğun ölümünün səbəbkarı kimi toyuğun özü, ördək balaları, şagird, nənə göstərilə bilər. Hər bir versiya arqumentlərlə əsaslandırılmalıdır. Eyni zamanda əks-arqumentlərin də gətirilməsi vacibdir. Məsələn, "çil toyuq üzə bilmədiyi halda suya atılmaqla özünü məhv edir" fikrinə qarşı əks-arqument olaraq onun fədakar ana kimi hərəkət etdiyi fikri səsləndirilə bilər. Ördək balalarının da günahı yoxdur. Onlar sadəcə öz təbii instinktlərinə uyğun hərəkət edirlər. Axı suda üzmək onların anadangəlmə xüsusiyyətidir. Şagird çil toyuğu xilas etmək üçün ləng tərpənir, amma nəzərə alınmalıdır ki, o həmin gün gölün qırağında olmaya da bilərdi, hadisə isə gec-tez baş verəcəkdi. Qalır nənə. Nənə yaşlıdır, kifayət qədər həyat təcrübəsinə malikdir, toyuqların və ördəklərin həyat tərzinə, onların özəlliklərinə bələddir. Ördək yumurtalarını toyuğun altına qoyarkən bunun hansı fəsadlara səbəb olacağını düşünməli idi. Təbiətin öz qanunauyğunluqları var. Onların pozulması faciələrə səbəb ola bilər.

Sonda müəllim müzakirəni belə yekunlaşdıra bilər: "İnsanlar əhliləşdirdikləri, onlardan asılı olan canlılar üçün məsuliyyət daşıyırlar".

**Dərslik, səh. 82**

**3.** "Çirkin ördək balası" və "Çil toyuq" mətnlərindən verilmiş cümlələri oxuyun və ev quşları haqqında əldə etdiyiniz elmi bilgiləri genişləndirərək şərh edin.

Şagirdlər təxminən belə fikirlər söyləyə bilərlər: "Ördəklər, adətən, yazın sonu, yayın əvvəli kürt düşüb bala çıxarırlar. Ördək suda yaxşı üzür. Hindtoyuğu isə üzə bilmir.

Soyuducuya qoyulmuş yumurtalardan bala çıxması mümkün deyil. Toyuqlar üstündə oturduğu yumurtalardan hansı quşun çıxmasından asılı olmayaraq onu öz balası hesab edir. Ördək balaları lap körpəlikdən üzməyi bacarırlar. Toyuqlar üzə bilmirlər".

**İş dəftəri, səh. 52**

**6.** Cümlələrdəki boşluqlara "toyuq" sözünü uyğun şəkilçilərlə yaz.

Tapşırığı yerinə yetirməklə şagirdlər ismin hal şəkilçilərini düzgün işlətdiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2, 3, 4, 5 (İ.D.) |
| Mətnləri janr, mövzu və ideya baxımından müqayisə edir. | Tap. 1 (D.) |
| Müzakirə zamanı fikrini əsaslandırır. | Tap. 2 (D.) |
| Mətndəki məlumatlara əsaslanmaqla mövzu ilə bağlı biliklərini genişləndirərək şərh edir. | Tap. 3 (D.) |
| Cümlədə isimləri uyğun halda işlədir. | Tap. 6 (İ.D.) |

# 4-cü DƏRS
# Cümlə üzvləri. Mübtəda və xəbər

**Təlim nəticələri:**

- Söz birləşmələri ilə ifadə olunan cümlə üzvlərini müəyyənləşdirir (st. 4.1.2).
- Cümlənin qrammatik əsasını müəyyənləşdirir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 83**

**1.** Cümlələrdə fərqləndirilmiş söz və söz birləşmələri hansı suala cavab verir?

Motivasiya xarakteri daşıyan tapşırıqda şagirdlər fərqləndirilmiş söz və söz birləşmələrinə sual verməklə cümlə üzvləri haqqında ilkin təsəvvür alırlar. Müəllim onların diqqətini **"Bunları bilməliyik!"** rubrikasına yönəldir. Cümlə üzvləri, onların sualları haqqında məlumat verir. Mübtəda və xəbərin cümlədəki əsas fikri ifadə etdiyini nümunələrlə izah edir.

Şagirdlər dərslikdə və iş dəftərindəki tapşırıqları yerinə yetirməklə mövzunu nə dərəcədə qavradıqlarını nümayiş etdirirlər.

**Yazı**

**Dərslik, səh. 83**

**2.** Cümlələrdəki hər bir cümlə üzvünün sualını müəyyən edin.

**Cavab:** 1. kim? haradan? nə qədər? nə etdi?
2. kim? nəyi? harada? nə etdi?
3. kim? harada? kim ilə? nə etdi?

**Dərslik, səh. 83**

**3.** Cümlələrdə mübtəda və xəbəri müəyyən edin.

**Cavab:** uşaqlar (kim?), düzəltdilər (nə etdilər?); şeypurun səsi (nə?), yayıldı (nə etdi?); mən (kim?), gedirdim (nə edirdim?); dostlar (kim?), gəlmişdilər (nə etmişdilər?).

**Dərslik, səh. 83**

**4.** Hansı cümlənin mübtədası söz birləşməsi ilə ifadə olunub?

**Cavab:** B – bal arıları

**Dərslik, səh. 83**

**5.** Hansı cümlə yalnız mübtəda və xəbərdən ibarətdir?

**Cavab:** B

İş dəftərindəki tapşırıqlar mövzunun daha yaxşı mənimsənilməsinə xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlə üzvlərinin suallarını müəyyənləşdirir. | Tap. 1, 2 (D.), tap. 1, 2, 3 (İ.D.) |
| Cümlənin mübtəda və xəbərini müəyyənləşdirir. | Tap. 5 (D.), tap. 5, 6 (İ.D.) |
| Söz birləşməsi ilə ifadə olunmuş cümlə üzvlərini müəyyənləşdirir. | Tap. 3, 4 (D.), tap. 3, 4 (İ.D.) |

# 3-cü fəsil
# MEMAR CANLILAR

## 1-ci DƏRS
## Memar canlılar

**Təlim nəticələri:**
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.2).
• Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.2).
• Verbal informasiyanı qeyri-verbal şəkildə və ya əksinə ifadə edir (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**
**Dərslik, səh. 84**

**1.** Mətnin başlığını oxuyun və şəkillərə baxın. Sizcə, mətndə nədən danışılır?

"Memar canlılar" adlanan mətn bəzi canlılara aid dörd hissədən ibarətdir və hər hissədə mövzuya uyğun illüstrasiya verilmişdir. Şagirdlər, çox güman ki, müxtəlif mənbələrdən**: "**Həyat bilgisi" fənnindən, oxuduqları kitablardan, baxdıqları bədii, cizgi və sənədli filmlərdən bu canlılar, onların həyat tərzi ilə bağlı müəyyən məlumatlar almışlar. Müəllim yönəldici suallarla onları bildiklərini xatırlamağa sövq edə bilər.

**Oxu. Söz ehtiyatı**
**Mətnlə iş**
**Dərslik, səh. 84**

**2. Qruplarla oxu.** "Memar canlılar" mövzusunda mətnləri oxuyun və əldə etdiyiniz məlumatlar əsasında təqdimata hazırlaşın.

Mətn dörd hissədən ibarətdir. Hər hissəyə aid "Söz mücrüsü" və tapşırıqlar təqdim olunmuşdur. Sinif dörd qrupa bölünür. Hər qrupa mətnin bir hissəsi üzərində işləmək tapşırılır. Qruplar mətnin müvafiq hissəsini oxuyur, tapşırıqları yerinə yetirir, şifahi təqdimat hazırlayırlar.

**I qrup – "İnşaatçı mühəndislər"**

**Söz ehtiyatı**
**Dərslik, səh. 85**

**3.** Sözlərlə izahları uyğunlaşdırın.

**Cavab:** 1 – b, 2 – a, 3 – ç, 4 – c.

**Oxu**
**Dərslik, səh. 85**

**4.** Sahildəki ağacları kəsərkən qunduzlar nə üçün küləyin səmtini təyin edirlər?

**5.** Nə üçün qunduz yuvasında temperatur az dəyişir?

Bu tapşırıqlarda qoyulmuş faktoloji sualları şagirdlər mətnin 3-cü və 5-ci abzaslarındakı məlumatlara əsaslanaraq asanlıqla cavablandıra bilərlər.

**Oxuyub-qavrama**
**Dərslik, səh. 85**

**6.** Şəkillərdə qunduzun dişlərinə, quyruğuna, əl, ayaq quruluşuna diqqət yetirin. Bunları qunduzun həyat tərzi ilə əlaqələndirin.

Şagirdlər şəkillərə baxaraq qunduzun uzun və iti dişləri ilə ağac gövdələrini gəmirərək kəsdiyini, barmaqları yaxşı inkişaf etmiş əlləri ilə müxtəlif inşaat işləri gördüyünü söyləyə bilərlər. Ayaq barmaqları arasında pərlərin olması onun yaxşı üzgüçü olduğundan xəbər verir. Avarşəkilli quyruğu isə suda sürətlə üzməyinə kömək edir.

**İş dəftəri, səh. 54**

**1.** Məlumat vərəqi ilə tanış ol və tapşırığı yerinə yetir.

Şagirdlər artıq əvvəlki bölmələrdən məlumat vərəqi ilə tanışdırlar və ondan necə istifadə etməyi bilirlər. Buna görə də dərslikdəki mətndən və iş dəftərindəki məlumat vərəqindən əldə etdikləri bilgiləri tutuşdurmaqla tapşırığı asanlıqla yerinə yetirə bilərlər. Tapşırığın şərtinə əsasən şagirdlər qunduz haqqında əldə etdikləri məlumatları yazmalı və qarşısında mənbəyini qeyd etməlidirlər. Məsələn, məlumat vərəqində qunduzların Avrasiya və Şimali Amerikada məskunlaşdığı qeyd olunub. Dərslikdəki mətndə isə bu

barədə heç nə deyilmir. Deməli, məlumatın qarşısında mənbə kimi yalnız B ("Qunduz haqqında məlumat vərəqi") qeyd olunacaq. Qunduz yuvasının quruluşu haqqında isə yalnız "İnşaatçı mühəndislər" mətnində danışılır. Deməli, bu məlumatın qarşısında mənbə kimi dərslikdəki mətn göstərilməlidir və s.

**II qrup** – **"Hörümçək toru"**

Dərslikdə və iş dəftərində söz ehtiyatı ilə bağlı tapşırıq verilməsə də, şagirdlərə "Söz mücrüsü"ndəki və oxu prosesində rast gəlinən tanış olmayan sözlərin mənası üzərində iş aparılması tövsiyə edilməlidir. Bu tövsiyə III qrupa da aiddir.

**Oxu**

**Dərslik, səh. 86**

**7.** Mətndə hansı suallara cavab var? Mətnə istinad edərək cavabınızı əsaslandırın.

Bu tapşırıqlarda qoyulmuş faktoloji sualları şagirdlər mətnin 2-ci və sonuncu abzaslarındakı məlumatlara əsaslanaraq asanlıqla cavablandıra bilərlər.

**Yazı**

**İş dəftəri, səh. 55**

**1.** Məlumatlara və şəkil-sxemə əsasən hörümçəyin bədən quruluşunu sözlə təsvir et.

Şagirdlər tapşırığın şərtinə uyğun olaraq kiçik informativ mətn yazmalıdırlar.

**III qrup** – **"Termitlər"**

**Oxu**

**Dərslik, səh. 87**

**8.** Hansı xüsusiyyət termit yuvasına aid deyil?

**Cavab:** B

Əslində, termit yuvasında işıqlandırma sisteminin olmaması təbiidir. Çünki termitlərin buna ehtiyacı yoxdur. Axı onlar tamamilə kordurlar.

**Oxu**

**İş dəftəri, səh. 56**

**1.** Hansı cümlələr "Termitlər" mətninin məzmununa uyğun deyil?

**Cavab:** Ən böyük termit yuvaları təxminən insan boyunda olur.

Termitlər qaranlıqda da yaxşı görürlər.

Hər bir termit hücrəsinin bayıra açılan pəncərəsi olur.

**İş dəftəri, səh. 56**

**3.** Məlumatların hansı canlıya aid olduğunu müəyyən et.

Tapşırıq III və IV qruplar üçün müştərək xarakterlidir. Hər qrup öz mövzusu ilə bağlı məlumatları müəyyən etməlidir. Bəzi məlumatlar hər iki mövzuya aid ola bilər.

**Cavab:** 2, 5, 6, 7-ci məlumatlar termitlərə aiddir.

1, 3-cü məlumatlar həm termitlərə, həm də arılara aiddir.

**IV qrup** – **"Qanadlı memarlar"**

**Dərslik, səh. 90**

**9.** Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələn sözləri yazmaqla cümlələri oxuyun.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər "Söz mücrüsü"ndən uyğun sözləri seçərək cümlələri tamamlayırlar. Bununla da yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 56**

**2.** "Qanadlı memarlar" mətninə əsasən qeydlər et.

Mətnin məzmununa uyğundur – 1, 6
Mətnin məzmununa uyğun deyil – 4, 5
Mətndə bu haqda məlumat yoxdur – 2, 3

**İş dəftəri, səh. 56**

**3.** Məlumatların hansı canlıya aid olduğunu müəyyən et.

Tapşırıq III və IV qruplar üçün müştərək xarakterlidir. Hər qrup öz mövzusu ilə bağlı məlumatları müəyyən etməlidir. Bəzi məlumatlar hər iki mövzuya aid ola bilər.

**Cavab:** 4, 8-ci məlumatlar arılara aiddir.

1, 3-cü məlumatlar həm termitlərə, həm də arılara aiddir.

Qrupların nümayəndələri mətnin müvafiq hissəsi ilə bağlı şifahi təqdimatla sinif qarşısında çıxış edirlər. Beləliklə, bütün sinif mətn haqqında tam təsəvvür almış olur.

Dərsin sonunda müəllim şagirdlərə növbəti dərsdə təqdimat etməli olacaqlarını xəbər verərək bununla bağlı təlimatla tanış edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Başlığa və şəkillərə əsasən mətnin mövzusunu müəyyən edir. | Tap. 1 (D.) |
| Sözlərlə izahları uyğunlaşdırır. | Tap. 3 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 9 (D.) |
| Faktoloji sualları cavablandırır. | Tap. 4, 5, 7, 8 (D.), tap. 1, 3 (İ.D.) |
| Mətnin məzmununa uyğun olmayan fikirləri müəyyən edir. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS
# Memar canlılar

**Təlim nəticələri:**

• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdimat edir (st. 2.2.2).
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).

**Dərslik, səh. 88**

**1. Təqdimat.** Oxuduğunuz mətndən və digər mənbələrdən "Memar canlılar" mövzusunda əldə etdiyiniz bilgiləri sinfə təqdim edin.

Şagirdlər keçən dərsdən tanış olduqları təlimata uyğun hazırladıqları təqdimatla sinif qarşısında çıxış edirlər.

**Dərslik, səh. 88**

**2. Müzakirə.** Canlıların memarlıq bacarıqlarını müqayisə edin, onların oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirin.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə bağlı təqdimat edir. | Tap. 1 (D.) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 2 (D.) |

# 3-cü DƏRS
# Xəbərin mübtəda ilə uzlaşması

**Təlim nəticələri:**

• Cümlə qurarkən mübtəda ilə xəbəri şəxsə və kəmiyyətə görə uzlaşdırır (st. 4.1.2).
• Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir (st. 4.1.1).

**Dərslik, səh. 89**

**1.** Nöqtələrin yerinə uyğun şəxs əvəzliyi artırmaqla cümlələri oxuyun.

Motivasiya xarakterli bu tapşırığı yerinə yetirməklə şagirdlər mübtəda ilə xəbəri şəxsə və kəmiyyətə görə uzlaşdıra bildiklərini nümayiş etdirirlər.

Müəllim şagirdlərin diqqətini **"Bunları bilməliyik!"** rubrikasına yönəldir. Bildirdiyi varlıqdan asılı olaraq xəbərin mübtəda ilə uzlaşmasındakı fərqli məqamları izah edir.

**Dərslik, səh. 89**

**2.** Nöqtələrin yerinə elə şəkilçi əlavə edin ki, xəbər mübtəda ilə uzlaşsın.

Şagirdlər xəbərlə mübtədanı şəxsə və kəmiyyətə görə uzlaşdıraraq cümlələri tamamlayırlar.

**Dərslik, səh. 89**

**3.** Hansı cümlədə mübtəda ilə xəbər kəmiyyətə görə uzlaşır?

**Cavab:** B

**İş dəftəri, səh. 57**

**1.** Hansı cümlədə xəbər ilə mübtədanın şəxsə görə uzlaşmasında səhvə yol verilib?

**Cavab:** C – *Siz sabahkı görüşdə çıxış etməlisən.* (olmalıdır: *çıxış etməlisiniz*)

**İş dəftəri, səh. 57**

**2.** Hansı cümlədə "uçurdu" sözünə *-lar* şəkilçisi artırıla bilməz?

**Cavab:** C

**Dərslik, səh. 89**

**4.** Hansı cümlələrdə mübtəda ilə xəbərin uzlaşmasında yanlışlığa yol verilmişdir? Həmin cümlələri düzgün yazmaqla dəftərinizə köçürün.

1. Çiçəklərin üstünə yağış damlaları düşdülər. (olmalıdır: *düşdü*)

3. Mühəndislər bu işin də öhdəsindən gəldi. (olmalıdır: *gəldilər*)

4. Kitabxana açılan kimi oxucular içəri daxil oldu. (olmalıdır: *daxil oldular*)

5. Dənizin coşqun dalğaları qayalara çırpılırdılar. (olmalıdır: *çırpılırdı*)

**İş dəftəri, səh. 57**

**3.** Mətndəki bəzi cümlələrdə xəbərin mübtəda ilə uzlaşmasında səhvə yol verilib. Səhvləri düzəltməklə mətni köçür.

Tapşırıq şagirdlərin mövzunu nə dərəcədə qavradıqlarını müəyyənləşdirməyə imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlə qurarkən mübtəda ilə xəbəri şəxsə və kəmiyyətə görə uzlaşdırır. | Tap. 1, 2, 3, 4 (D.), tap. 1,2 (İ.D.) |
| Mübtəda ilə xəbərin uzlaşmasında yol verilən səhvi müəyyən edərək düzəldir. | Tap. 4 (D.), tap. 4 (İ.D.) |

# 5-ci bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

• Cümlənin qrammatik əsasını müəyyənləşdirir (st. 4.1.2).
• Söz birləşmələrini söz və cümlədən fərqləndirir (st. 4.1.2).
• Cümlə üzvlərinin ifadə vasitələrini müəyyənləşdirir (st. 4.1.2).
• Mübtəda ilə xəbəri şəxsə və kəmiyyətə görə uzlaşdırır (st. 4.1.2).

**Yazı**

**Dərslik, səh. 90**

**1.** Cümlədə altından xətt çəkilmiş söz birləşmələri hansı suallara cavab verir?

**Cavab:** B

**Dərslik, səh. 90**

**2.** Hansı cümlədə mübtəda söz birləşməsi ilə ifadə olunub?

**Cavab:** C

**Dərslik, səh. 90**

**3.** Cümlələrdə söz birləşmələrini müəyyən edin.

**Cavab:** arı ailəsində, iş bölgüsü, şanların divarları, inkubasiya dövrü

**Dərslik, səh. 90**

**4.** Hansı cümlələr yalnız mübtəda və xəbərdən ibarətdir?

**Cavab:** 1, 5

**Dərslik, səh. 90**

**5.** Hansı cümlədə xəbər mübtəda ilə kəmiyyətə görə uzlaşır?

**Cavab:** B

**Dərslik, səh. 90**

**6.** Hansı cümlədə xəbərin mübtəda ilə uzlaşmasında səhvə yol verilib?

**Cavab:** B

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşmələrini söz və cümlədən fərqləndirir. | Tap. 1 (D.) |
| Cümlə üzvlərinin ifadə vasitələrini müəyyənləşdirir. | Tap. 2, 3 (D.) |
| Cümlənin qrammatik əsasını müəyyənləşdirir. | Tap. 4 (D.) |
| Mübtəda ilə xəbəri şəxsə və kəmiyyətə görə uzlaşdırır. | Tap. 5, 6 (D.) |

## 5-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 58-59-cu səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 1, 2 |
| Mətndəki hadisə və faktlar arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 3 |
| Cümlənin qrammatik əsasını müəyyənləşdirir. | Tap. 4, 5, 8, 9 |
| Cümlə üzvlərinin ifadə vasitələrini müəyyənləşdirir. | Tap. 7 |
| Mübtəda ilə xəbəri şəxsə və kəmiyyətə görə uzlaşdırır. | Tap. 10 |

Bölmə **6**

# Tarixdə iz qoyanlar

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Ot kökü üstə bitər** | | | | | |
| 1 | Xatirələrim | Oxu | 92-95 | 60 | 93-95 |
| 2 | Qarabağın dəmir ledisi | Dinləmə<br>Danışma | 95 | 61 | 95-97 |
| 3 | Cümlənin ikinci dərəcəli üzvləri | Yazı (dil qaydaları) | 96 | 62 | 97-99 |
| 2-ci fəsil. **İlkə imza atan qadın** | | | | | |
| 4 | İlk azərbaycanlı şəfqət bacısı | Oxu | 97-98 | 63 | 99-101 |
| 5 | Qızıl Aypara Cəmiyyəti | Dinləmə<br>Danışma | 99 | 64 | 101-103 |
| 6 | Cümlədə söz sırası | Yazı (dil qaydaları) | 100 | 65 | 103-104 |
| 3-cü fəsil. **Təhsil fədaisi** | | | | | |
| 7 | Qori Müəllimlər Seminariyası | Oxu | 101-103 | 66 | 104-107 |
| 8 | Badisəba ana | Dinləmə<br>Danışma | 104 | 67 | 107-108 |
| 9 | Ümumiləşdirici təkrar | Yazı (dil qaydaları) | 105 | 68 | 108-109 |
| 10 | IV sinif üzrə ümumiləşdirici təkrar | | 106-107 | 69-71 | 110-111 |

# 1-ci fəsil
# OT KÖKÜ ÜSTƏ BİTƏR

## 1-ci DƏRS
## Xatirələrim

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
• Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).
• Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 2.2.3).
• Oxuduğu mətnin qısa məzmununu yazır (st. 4.1.3).

**Dərslik, səh. 91**

**1.** "Tarixdə iz qoymaq" ifadəsinin mənasını necə anlayırsınız?
**2.** Tarixdə iz qoyan hansı şəxsiyyətləri tanıyırsınız? Onlar haqqında bildiklərinizi danışın.
**3.** Sizcə, tarixi şəxsiyyətlər haqqında bilgini hansı mənbələrdən əldə etmək mümkündür?

Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş suallar əsasında yerinə yetirilir. Müəllim danışmağa həvəsləndirmək üçün yönəldici suallardan istifadə edir.

**Dərslik, səh. 92**

**1.** Azərbaycanın hansı görkəmli qadınlarını tanıyırsınız? Bildiklərinizi danışın.

Şagirdlər əvvəlki biliklərinə, oxuduqlarına istinad edərək bu sualı cavablandırırlar.

**Söz ehtiyatı**

**Dərslik, səh. 92**

**2.** Mətni oxuyun. "Maarif" sözünün izahına əsasən "maarifçi" sözünün mənasını təxmin edin.

**Cavab:** Maarifçi – xalq arasında maarifi, mədəniyyəti, bilikləri yayan, xalqı savadlandıran.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini *-çı⁴* şəkilçisinə, bu leksik şəkilçinin sözə qatdığı semantikaya cəlb etmək məsləhət görülür.

**Dərslik, səh. 92**

**3.** Qruplara ayrılaraq Həmidə xanım haqqında mətnləri oxuyun. Bu şəxsin maarifçiliyini təsdiq edən faktları qeyd edin.

**Mətnlə iş.** Şagirdlər üç qrupa ayrılır. Hər bir qrup qeydlər götürməklə mətnin müəyyən hissəsini oxuyur. Mətnin yarımbaşlıqlarla ayrılmış hissələri təxminən eyni həcmdədir. Ona görə də qruplara öz hissələrini oxumaq üçün eyni vaxt (8-10 dəq.) verilə bilər. Şagirdlər həmçinin oxuduqları hissədə tanış olmayan sözləri qeyd edir, kontekstdən çıxış edərək onların izahını özləri üçün aydınlaşdırırlar.

**Müəllimin nəzərinə!** Mətnin hissələri eyni mövzunun (Həmidə xanımın xatirələri) müxtəlif aspektlərinə həsr olunub və məzmunca bitkin xarakter daşıyır. Buna görə də qrupların verilmiş məzmunu mənimsəməsində bir-birindən asılılıq yaratmır.

**Söz mücrüsü.** Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

Oxudan sonra qruplar oxuduqları hissənin məzmununu təqdim edirlər. Bunun üçün onlar götürdükləri qeydlərdən istifadə edə bilərlər. Müəllim şagirdlərə bildirir ki, onlar yalnız oxuduqlarını deyil, bütövlükdə mətni dərindən mənimsəməli və bu mətnlə bağlı tapşırıqları yerinə yetirməlidirlər. Buna görə də hər bir üzv digər qrupların təqdimatlarını diqqətlə dinləməli, suallar verməklə başa düşmədiyi məqamlara aydınlıq gətirməlidir. Təqdimat zamanı söz ehtiyatı üzərində də iş gedir.

**Dərslik, səh. 93**

**4.** "Söz mücrüsü"ndən izahlara uyğun sözləri seçib oxuyun.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər "Söz mücrüsü"ndən izahlara uyğun sözləri seçərək yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1. mülk; 2. vəsiyyət; 3. dünyagörüşü, 3. nəticə.

**Dərslik, səh. 93**

**5.** Mətnə əsasən cümlələri tamamlayın.

Şagirdlər tapşırıqda verilmiş cümlələri "Xatirələrim" mətninin məzmununa əsasən tamamlayırlar. Bu tapşırıq şagirdlərin səbəb-nəticə əlaqələrini necə analiz etdiklərini yoxlamağa imkan yaradır.

**Cavab:** 1. Atam yaxşı təhsil almışdı, ona görə də **qardaşımla mənə yaxşı təhsil verməyə çalışırdı.**

2. Mən məktəbə getmirdim, çünki **o dövrdə oğlanlar və qızlar bir məktəbdə oxuya bilməzdilər.**

3. Atam deyirdi ki, çalış hər işi özün gör, çünki **vaxt gələcək, bütün insanlar bərabər olacaq və heç kəs sənə nökərçilik etməyəcək.**

**Dərslik, səh. 93**

**6.** Mətnə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın.

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

**1. Təhsil insanın dünyagörüşünün formalaşmasında böyük rol oynayır.**

Həmidə xanımın atası yaxşı təhsil aldığı üçün geniş dünyagörüşünə sahib idi. Bu səbəbdən öz övladlarının təhsil almasına çalışırdı. Qızının təhsil almasına xüsusi səy göstərirdi.

**2. Oğlanlar və qızlar eynihüquqlu olmalıdırlar.**

Həmin dövrdə qızlarla oğlanlar eyni məktəbdə oxuya bilməzdilər. Bu zaman qızlar məktəbdən qalmalı, təhsildən yayınmalı olurdular. Ona görə də atası Həmidə xanıma kənddə oğlanlar və qızların bir yerdə oxuduğu məktəb açmağı vəsiyyət etmişdi.

**3. Övlad valideynlərinin davamçısıdır.**

1912-ci ildə anadan olduğu Kəhrizli kəndində Həmidə xanım məktəb açır və orada dərs deyir, yeni nəslin savadlı olmasına çalışır.

**Dərslik, səh. 94**

**7.** "Söz mücrüsü"ndən izahlara uyğun sözləri seçin.

**Cavab:**

1. duruxmaq; 2. sifariş etmək;
3. əl-ayağa düşmək; 4. ünsiyyət.

**Dərslik, səh. 94**

**8.** Mətndən çıxış edərək aşağıdakı fikri əsaslandırın:
*Həmidə xanım yurduna, elinin adət-ənənələrinə bağlı bir insan idi.*

**Şagirdlərin cavabı təxminən belə ola bilər:** *Həmidə xanım vətəndən uzaqda yaşayarkən də Azərbaycanı, xalqın adət-ənənələrini tanıtmağa çalışırdı. Məsələn, Brestdə təşkil olunan karnavala Azərbaycan milli geyimi ilə qatılır.*

**Dərslik, səh. 94**

**9.** Sizcə, karnaval iştirakçıları Həmidə xanıma Azərbaycan, Qarabağ haqqında hansı sualları verə bilərdilər? Sualları təxmin edib yazın və cavablandırın.

**Şagirdlərin tərtib etdikləri sualların məzmunu təxminən belə ola bilər:**

1. Qarabağın hansı adət-ənənələri var?
2. Qarabağın milli kişi geyimləri necə görünür?
3. Qarabağ mətbəxinə aid hansı yeməklər var?

**Dərslik, səh. 95**

**10.** "Söz mücrüsü"ndən izahlara uyğun sözləri seçin.

**Cavab:**

1. münasib; 2. şeyxülislam; 3. ruhani.

**Dərslik, səh. 95**

**11.** Həmidə xanımın şeyxülislamla görüşünün səbəbi nə idi?

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

Tiflis Qızlar İnstitutunda müxtəlif millətlərdən olan tələbələr başqa elmlərlə yanaşı, həm də öz ana dillərini öyrənirdilər. Müsəlman qızlarına isə ana dili dərsi keçilmirdi. Həmidə xanım şeyxülislamla görüşür və azərbaycanlı qızlara da ana dili dərsi keçilməsini xahiş edir.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 60**

**1.** Hansı mətn Həmidə xanımın qızı Mina xanımın xatirələrini əks etdirir?

**Cavab:** B

**İş dəftəri, səh. 60**

**2.** Oxuduğun mətnlərin qısa məzmununu yaz.

Şagirdlər Həmidə xanım Cavanşir haqqında oxuduqları mətnlərin qısa məzmununu yazaraq həm onların məzmununu qavradıqlarını, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tap. 2 (D.) |
| İnformasiyadan istifadə etməklə təqdimat edir. | Tap. 3 (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 4, 7 (D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. 6, 8, 11 (D.) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 5, 10 (D.) |
| Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur. | Tap. 9 (D.) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. 1 (İ.D.) |

# 2-ci DƏRS
# Qarabağın dəmir ledisi

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.1).
• Sətiraltı fikir və informasiyanı izah edir (st. 3.1.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
• Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 1.1.2).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 4.1.4).

**Mövzuya yönəltmə.** Müəllim lövhəyə BİBÖ cədvəli çəkir. Şagirdlər bu cədvəlin I sütununda Həmidə xanım haqqında bildiklərini qeyd edirlər. Cədvəlin II sütununda Həmidə xanım haqqında yeni məlumatlar öyrənmək üçün onları maraqlandıran sualları qeyd edirlər.

**Dinləmə**

Müəllim "Qarabağın dəmir ledisi" adlı mətni səsləndirir:

***Qarabağın dəmir ledisi***

***Uşaqlığı.*** *Həmidə xanım Cavanşir 1873-cü ildə Şuşanın Kəhrizli kəndində anadan olmuşdur. Onun atası Əhməd bəy Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəticəsi idi. Görkəmli ziyalı, tarixçi olan Əhməd bəy övladlarının, xüsusilə də qızının mükəmməl təhsil almasına çalışırdı. O deyirdi: "Mənim qızım elə olmalıdır ki, biz kişilər ölüb getsək, bizi şərəflə əvəz edə bilsin". Həmidə xanım atasının sayəsində hələ uşaq yaşlarından rus dilini öyrənmiş, yüksək intellektə, geniş dünyagörüşünə sahib olmuşdu.*

***Qarabağın xeyirxah işığı.*** *Həmidə xanım xeyriyyəçilik fəaliyyəti ilə yaddaşlarda əbədi qalıb. O, Tiflis Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətinin yaradıcılarından olub. Həmidə xanım xeyriyyəçiliyi ilə bütün Qarabağda məşhur olmuşdur. Ona kömək üçün pənah gətirən insanların əlindən tutar, xəstələri müalicə edər, kimsəsizlərə yiyə durardı.*

*O, Novruz bayramında böyük el şənliyi qurar, hər kəsə bayram sovqatı paylayardı. Qurban bayramında da hər bir ailənin payı hökmən veri-*

*lirdi. Hər zaman əhalinin ümid yeri olan Həmidə xanım Cavanşir öz varidatını el-obasının yolunda xərcləyib. Bölgədə xəstəliklər kütləvi yayılanda isə özü şəxsən kəndin körpələrini faytonu ilə mərkəzə aparıb, onlara peyvənd vurduraraq sağalmalarını təmin edib.*

***Təhsilə yol.*** *Həmvətənlərinin təhsildən kənarda qalması onu daim narahat edirdi. O, Azərbaycanda təhsilin inkişafı üçün əlindən gələni etmişdi. Bir çox gəncin təhsil haqqını ödəmişdi. 1912-ci ildə isə Kəhrizlidə öz vəsaiti hesabına məktəb açmış və özü də burada dərs demişdi. Həmidə xanım qadınların savadlanması üçün xüsusi səy göstərmişdi.*

*Həmidə xanım 1955-ci ildə 82 yaşında vəfat etmişdir.*

**Dərslik, səh. 95**

**1.** "Qarabağın dəmir ledisi" mətnini dinləyin və aşağıdakı suallara cavab verin.

**Cavab:**

**1. Həmidə xanım hansı nəsildən idi?**

Həmidə xanım Cavanşirlər nəslindən idi. Onun atası Əhməd bəy Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəticəsi idi.

**2. Həmidə xanım kimdən təhsil almışdı?**

Həmidə xanımın təhsili ilə atası məşğul olmuşdu. Hətta atasının sayəsində hələ uşaq yaşlarında rus dilini öyrənmiş, yüksək intellektə, geniş dünyagörüşünə sahib olmuşdu.

**3. Həmidə xanım hansı xeyriyyə işləri ilə məşğul olmuşdu?**

Bütün bayramlarda hər kəsə bayram sovqatı paylayardı. Bölgədə xəstəliklər kütləvi yayılanda isə özü şəxsən kəndin körpələrini faytonu ilə mərkəzə aparır, onlara peyvənd vurduraraq sağalmalarını təmin edirdi.

**4. Həmidə xanım Azərbaycanda təhsilin inkişafı üçün hansı işləri görmüşdü?**

Bir çox gəncin təhsil haqqını ödəmişdi. 1912-ci ildən isə Kəhrizlidə öz vəsaiti hesabına məktəb açmış və özü də burada dərs demişdi. Həmidə xanım qadınların savadlanması üçün xüsusi səy göstərmişdi.

**Dərslik, səh. 95**

**2.** "Qarabağın dəmir ledisi" mətnindəki hansı faktlar Həmidə xanım haqqında xatirələrdə öz əksini tapmışdır?

Şagirdlər dinlədikləri "Qarabağın dəmir ledisi" və oxuduqları "Xatirələrim" mətnlərinin məzmununu müqayisə edirlər.

**Cavab:** 1. Atası Əhməd bəydən təhsil almışdır.

2. 1912-ci ildə məktəb açmış və özü də burada dərs demişdi.

**Dərslik, səh. 95**

**3.** Sizcə, Həmidə xanımı nə üçün "Qarabağın dəmir ledisi" adlandırırdılar? Oxuduğunuz və dinlədiyiniz mətnlərə istinad edərək fikrinizi əsaslandırın.

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, ilk növbədə şagirdlərin diqqəti "Qarabağın dəmir ledisi" ifadəsindəki "dəmir" sözünə yönəldilsin:

– Sizcə, "Qarabağın dəmir ledisi" ifadəsində "dəmir" sözü hansı mənada işlənib?

– Bu sözlə müəllif nəyi ifadə etmək istəyib?

**Şagirdlər təxminən belə cavab verə bilərlər:**

*Atası Əhməd bəy hələ kiçik yaşlarından Həmidə xanımı güclü xarakterli biri kimi tərbiyə etmişdi. O deyirdi ki, Həmidə xanım elə yetişməlidir ki, bizi şərəflə əvəz edə bilsin. Həmidə xanım həm zərif və gözəl qadın idi, həm də güclü xarakterli, savadlı, xeyirxah, hamının ümid yeri olan biri idi. Atası uşaqkən ona hətta əkin işlərini də öyrədib deyərdi:*

*– Özünü hər cür zəhmətə alışdır. Çalış hər işi özün gör. Vaxt gələcək, bütün insanlar bərabər olacaq və heç kəs sənə nökərçilik etməyəcək.*

**Dərslik, səh. 95**

**4.** Oxuduğunuz və dinlədiyiniz mətnlərə istinad edərək aşağıdakı fikirləri əsaslandırın.

**Cavab:**

- **Həmidə xanım öz nəslinin layiqli davamçısı idi.**

Həmidə xanımın ulu babası Pənahəli xan Qarabağ xanlığının qurucusu olub. Həmidə xanım Cavanşir öz varidatını el-obasının əhalisi yolunda xərcləyib, qurub-yaradıb.

- **Həmidə xanım maarifçi qadın olub.**

Həmidə xanım yaxşı təhsil aldığı üçün qadınların savadlanmasına xüsusi səy göstərmişdi. 1912-ci ildə isə Kəhrizlidə öz vəsaiti hesabına məktəb açmış və özü də burada dərs demişdi.

- **Həmidə xanım vətənpərvər idi.**

Həmidə xanım vətəninə aid adət-ənənələrini yaşadığı yerlərdə tanıtmış, ana dilinin qorunması üçün əlindən gələni etmişdir.

• **Həmidə xanım xeyriyyəçi idi.**

O, Tiflis Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətinin yaradıcılarından olub. Həmidə xanım xeyriyyəçiliyi ilə bütün Qarabağda məşhur olmuşdur.

**Dərslik, səh. 95**

> **5. Təqdimat.** Oxuduğunuz və dinlədiyiniz mətnlərdən əldə etdiyiniz bilgiləri sinfə təqdim edin.

**Müəllimin nəzərinə!** Şagirdlər Həmidə xanım Cavanşir haqqında iki mətnlə, oxu və dinləmə mətni ilə tanış olublar. Bu mətnlərdən aldıqları məlumatları müxtəlif cür təqdim edə bilərlər: məlumat vərəqi hazırlamaqla, kiçikhəcmli yazı yazmaqla və yaxud şifahi nitq söyləməklə.

**Tapşırığın şərtinə əlavə olaraq müəllim şagirdləri təlimatlandıra bilər:**

• Əvvəlcə Həmidə xanım Cavanşir haqqında oxuduğunuz və dinlədiyiniz mətnləri xatırlayın.

• Təqdimatınızın formasını müəyyən edin: məlumat vərəqi, yazı, şifahi nitq, cədvəl.

**İş dəftəri, səh. 61**

> **1.** Aşağıda Həmidə xanım haqqında yanlış fikirlər verilmişdir. "Qarabağın dəmir ledisi" mətninə və əvvəl aldığın məlumatlara əsasən həmin fikirləri düzgün şəkildə yaz.

**Cavab:** 1. Həmidə xanım Şuşanın Kəhrizli kəndində anadan olmuşdur.

2. Onun atası Əhməd bəy Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəticəsi idi.

3. Onun atası Əhməd bəy görkəmli tarixçi idi.

4. 1912-ci ildə Kəhrizli kəndində öz vəsaiti hesabına məktəb tikdirmişdi.

**İş dəftəri, səh. 61**

> **2.** "Qarabağın dəmir ledisi" mətninin məzmununa aid suallar yaz.

**Şagirdlər təxminən aşağıdakı məzmunda suallar tərtib edə bilərlər:**

1. Həmidə xanım kim idi?
2. Həmidə xanım harada anadan olub?
3. Həmidə xanım kimdən təhsil almışdır?
4. Həmidə xanım sonrakı nəslin daha savadlı olması üçün hansı addımları atıb?
5. Nə üçün Həmidə xanımı "Qarabağın xeyirxah işığı" adlandırırdılar?

**İş dəftəri, səh. 61**

> **3.** Həmidə xanım haqqında bildiyin məlumatlara əsasən cədvəli tamamla.

Şagirdlər tapşırığı yerinə yetirməklə Həmidə xanım Cavanşir haqqında bildikləri məlumatları nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1 (D.), tap. 1 (İ.D.) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tap. 2 (D.) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tap. 3 (D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. 4 (D.) |
| Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. 2 (İ.D.) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır. | Tap. 5 (D.), tap. 3 (İ.D.) |

# 3-cü DƏRS
# Cümlənin ikinci dərəcəli üzvləri

**Təlim nəticələri:**

• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 96**

> **1.** Cümlələri oxuyun. İkinci cümlədə birinci ilə müqayisədə hansı yeni bilgilər verilir?

Motivasiya xarakterli bu tapşırıqda cümlələr təqdim edilmişdir. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş cümlələrə yönəldir və bu cümlələr arasındakı fərqi izah edir.

1) *Quşlar uçur*. Bu cümlə iki üzvdən ibarətdir: mübtəda və xəbər. Bu cümlədə yalnız iki məlumat, yəni işi icra edən (*quşlar*) və ona aid hərəkət bildirən söz (*uçur*) verilmişdir.

2) "Payız gələndə köçəri quşlar isti ölkələrə uçur" cümləsində isə daha geniş məlumat verilib:

- Hara uçur?
- Nə vaxt uçur?
- Hansı quşlar?

Müəllim bu izahatla şagirdlərin diqqətini ikinci dərəcəli üzvlərə yönəldir.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim "Bunları bilməliyik!" rubrikasında ikinci dərəcəli üzvlər haqqında verilmiş məlumatları şərh edir. Mübtəda və xəbərə aid olan ikinci dərəcəli üzvləri nümunələr əsasında izah edir.

**Müəllimin nəzərinə!** Cümlə üzvlərini düzgün müəyyənləşdirmək, ikinci dərəcəli üzvün hansı baş üzvə aid olduğunu müəyyənləşdirmək düzgün sual vermək bacarığı ilə başlayır. Müəllim lövhədə yazdığı cümlə nümunələri əsasında bu bacarığı təkmilləşdirməyə çalışmalıdır.

Məsələn: *Dünən güclü yağış yağırdı.*

**Müəllim**: Bu cümlənin qrammatik əsası, mübtəda və xəbəri hansı sözlərdir?

**Şagirdlər**: Yağış yağırdı.

**Müəllim**: Nə vaxt yağırdı?

**Şagirdlər**: Dünən yağırdı.

**Müəllim**: Necə yağış?

**Şagirdlər**: Güclü yağış.

Müəllim ikinci dərəcəli üzvlərin hansı baş üzvə aid olduğunu yönəldici sualların köməyi ilə şagirdlərin diqqətinə çatdırır.

**Dərslik, səh. 96**

**2. Cütlərlə iş.** Cümlələrdə ikinci dərəcəli üzvləri və onların aid olduğu baş üzvləri müəyyən edin.

**Cavab:** 1. Mütaliəli insanlar fikirlərini aydın izah edirlər. *Mütaliəli* sözü *insanlar* sözünə – mübtədaya aiddir; *fikirlərini* və *aydın* sözləri *izah edirlər* sözünə – xəbərə aiddir.

2. Maraqlı kitab ən yaxşı yol yoldaşıdır. *Maraqlı* sözü mübtədaya (*kitab*) aiddir; *ən yaxşı* xəbərə (*yol yoldaşıdır*) aiddir.

**Dərslik, səh. 96**

**3.** Sualları cavablandıraraq cümlələri genişləndirin və oxuyun.

**Cavab:** 1. **Xırda** balıqlar **akvariumda** üzürdü.
2. İradə **indicə** məktəbdən **evə** qayıtdı.
3. Nənə **nəvəsinə nağıl** danışdı.
4. **İstedadlı** müğənni mahnını **gözəl** ifa etdi.

**Dərslik, səh. 96**

**4.** İkinci dərəcəli üzvlər əlavə etməklə cümlələri genişləndirin.

**Cavablar təxminən belə ola bilər:**
1. Müəllim **yeni mövzunu şagirdlərə** izah etdi.
2. **Bahar gələndə bağçalarda rəngbərəng** güllər açdı.
3. **Səhər güclü** yağış yağdı.
4. **Dostum** Əbdül **çalışqan** şagirddir.
5. **Üçrəngli** bayraq **zirvələrdə** dalğalandı.

**Dərslik, səh. 96**

**5.** İkinci dərəcəli üzvləri ixtisar etməklə cümlələri köçürün.

**Cavab:** 1. Vüsalə qazandırdı.
2. Mən istəyirəm.
3. Hava sakitdir.
4. Gülnar yaxınlaşdı.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 62**

**1.** Cümlələrdəki ikinci dərəcəli üzvlərin altından xətt çək.

**Cavab:**

1. <u>Tez-tez əsən</u> <u>güclü</u> küləklər <u>ağacların qurumuş yarpaqlarını</u> tökmüşdü.
2. <u>Bu il</u> mən <u>yay tətilini</u> <u>doğma</u> <u>kəndimizdə</u> keçirəcəyəm.
3. <u>Dərsdən sonra</u> sinfimizin uşaqları <u>akt zalında</u> <u>tədbirə</u> hazırlaşırdılar.

**İş dəftəri, səh. 62**

**2.** Suallara cavab verməklə cümlələri genişləndir.

**Cavab:** 1. **Gecə güclü** qar yağırdı.

2. Rəfiqə **əhvalatı dostuna** danışdı.
3. Uşaqlar **aktyoru hərarətlə** alqışladılar.
4. Nübar sabahkı **imtahana ciddi** hazırlaşıb.

**İş dəftəri, səh. 62**

**3.** İkinci dərəcəli üzvləri ixtisar etməklə cümlələri köçür.

**Cavab:** 1. Kəşfiyyatçılar ayrıldılar.
2. Qızılgül çiçəkləyir.
3. Canavar hücum etdi.
4. Biz içdik.
5. Bağban əkmişdi.

**İş dəftəri, səh. 62**

**4.** İkinci dərəcəli üzvləri əlavə etməklə cümlələri genişləndir.

**Cavablar təxminən belə ola bilər:**
1. **Dünən güclü** külək əsdi.
2. **Bu il** məhsul boldur.
3. Səlimə **şeiri dəftərinə** köçürdü.
4. İdmançılar **yarışa** hazırlaşdılar.
5. Maşın **dayanacaqda** dayandı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir. | Dərslikdə və iş dəftərində təqdim edilən tapşırıqlar. |

# 2-ci fəsil
# İLKƏ İMZA ATAN QADIN

## 1-ci DƏRS
## İlk azərbaycanlı şəfqət bacısı

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir (st. 3.1.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
• Oxuduğu mətnin qısa məzmununu yazır (st. 4.1.3).

**Dərslik, səh. 97**

**1.** “Şəfqət” sözünün izahına əsasən “şəfqət bacısı” və “şəfqət xidməti” ifadələrinin mənasını təxmin edin.

“Şəfqət” sözü oxu mətninin açar sözü olduğu üçün şagirdlərin diqqətini bu sözə cəlb etmək, müzakirə aparmaq məqsədəuyğundur.

**Söz ehtiyatı**

**Dərslik, səh. 97. “Söz mücrüsü” rubrikası**

Söz mücrüsü
- mükəmməl
- valeh olmaq
- artilleriya
- şəfqət bacısı
- dərc olunmaq
- zəmanə

**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. “İlk azərbaycanlı şəfqət bacısı” informativ mətn ol-

duğundan qeyd götürərək oxu tətbiq etmək tövsiyə olunur.

**Söz mücrüsü.** Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 98**

**2.** "Söz mücrüsü"ndən uyğun sözləri yazmaqla cümlələri tamamlayın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir.

**Cavab:** 1. Aydan rəssamlıq sənətini **mükəmməl** öyrənmişdi.

2. General Əliağa Şıxlinski topçuların, yəni **artilleriya** qoşununun generalı idi.

3. Qəzetdə Nigar xanım Şıxlinskaya haqqında bir məqalə **dərc** olunmuşdu.

4. Yazıçılar dövrün, **zəmanənin** tələbinə uyğun olan əsərlər yazırdılar.

**Dərslik, səh. 98**

**3.** Mətnin məzmununa əsasən suallara cavab verin.

Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan verir.

**Şagirdlərin cavabları təxminən aşağıdakı məzmunda ola bilər:**

1. Nigar xanım 1871-ci ildə Tiflisdə anadan olmuşdur.
2. Nigar xanım Zaqafqaziya Qızlar İnstitutunda təhsil almışdır.
3. Nigar xanım ana dili ilə yanaşı, rus, fransız, ərəb, fars dillərini mükəmməl bilirdi.
4. "Rus artilleriyasının atası" adlandırılan general Əliağa Şıxlinski Nigar xanımın həyat yoldaşı idi.

**Dərslik, səh. 98**

**4.** Mətnin birinci və sonuncu abzaslarındakı bilgilərdən istifadə etməklə aşağıdakı suallara cavab verin.

Tapşırıq şagirdlərin mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə etmək bacarığının inkişafına yönəlib.

**Şagirdlərin cavabları təxminən aşağıdakı məzmunda ola bilər:**

• **Nigar xanım Zaqafqaziya Qızlar İnstitutunu neçənci ildə bitirmişdir?**

Mətndə aşağıdakı faktlar var:

Nigar xanım 1871-ci ildə anadan olmuşdu.

O, Zaqafqaziya Qızlar İnstitutunu 18 yaşında bitirmişdir.

Nəticədə deyə bilərik ki, Nigar xanım institutu 1889-cu ildə bitirib.

• **Nigar xanım vəfat edəndə neçə yaşı var idi?**

Mətndə aşağıdakı faktlar var:

Nigar xanım 1871-ci ildə anadan olmuşdu.

O, 1931-ci ildə vəfat etmişdir.

Bu məlumatlara əsasən nəticə çıxarmaq olar ki, Nigar xanım 60 yaşında vəfat edib.

**Dərslik, səh. 98**

**5.** Aşağıdakı məlumatlar mətnin hansı yarımbaşlığını genişləndirə bilər?

General Əliağa Şıxlinski öz xatirələrində yazırdı: "... Nigar həmişə xəstəxanada olurdu. Komitənin sədrliyindən başqa, əsgərlər üçün evlərinə məktub yazırdı. Əsgərlər onu "ana" deyə çağırırdılar".

**Cavab:** Bu məlumatlarla mətnin "İlk şəfqət bacısı" yarımbaşlığını genişləndirmək mümkündür. Çünki məhz bu yarımbaşlıqda Nigar xanımın rəhbərlik etdiyi hospital haqqında danışılır.

**Dərslik, səh. 98**

**6.** Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın.

**Cavab: 1. Nigar xanım poliqlot idi.**

Poliqlot – ana dilindən başqa, bir neçə dili yaxşı bilən şəxsə deyilir. Nigar xanım da ana dili ilə yanaşı, rus, fransız, ərəb, fars dillərini mükəmməl bilirdi.

**2. Nigar xanım peşəsinin vurğunu idi.**

Nigar xanımın həyat yoldaşı general Əliağa Şıxlinski deyirdi ki, Nigar həmişə xəstəxanada olurdu. Əsgərlər üçün evlərinə məktub yazırdı. Əsgərlər onu "ana" deyə çağırırdılar. Təsadüfi deyil ki, onun rəhbərlik etdiyi hospitala "Şıxlinski xəstəxanası" deyirdilər.

**3. Nigar xanım xeyriyyəçi idi.**

Nigar xanım ömrünün sonuna qədər xeyriyyəçilik fəaliyyətini davam etdirir.

**4. Nigar xanım vətənpərvər insan idi.**

Müxtəlif dillərdə mükəmməl danışan Nigar xanım ana dilinin qorunması məsələsinə də diq-

qətlə yanaşırdı. Dilimizdə alınma sözlərin çox olması onu narahat edirdi. Bu mövzuda mətbuatda tez-tez məqalələri dərc olunurdu. Bu məqalələrindən birində Nigar xanım yazırdı: “Alınma sözləri mümkün qədər az işlətmək lazımdır. Çünki öz dilimizdə sözlərimiz çoxdur. Alınma sözləri ancaq o zaman işlətmək olar ki, azərbaycanca əvəzi olmasın”.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin oxuyub-qavrama bacarıqlarının inkişafına yönəldilib.

**İş dəftəri, səh. 63**

**1.** “İlk azərbaycanlı şəfqət bacısı” mətninin məzmununa əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

**Cavab:** 1. yanlış; 2. doğru; 3. yanlış; 4. doğru; 5. doğru.

**İş dəftəri, səh. 63**

**2.** Verilmiş plan əsasında mətnin qısa məzmununu yaz.

Şagirdlər Nigar xanım Şıxlinskaya haqqında oxuduqları mətnin qısa məzmununu yazaraq həm mətnin məzmununu qavradıqlarını, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tap. 1, 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 1 (İ.D.) |
| Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir. | Tap. 4 (D.) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tap. 5 (D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. 6 (D.) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 9 (D.) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS
# Azərbaycan Qızıl Aypara Cəmiyyəti

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 2.2.1).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 4.1.3).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**

Tapşırığın məqsədi şagirdlərin diqqətini vacib bir məqama yönəltməkdir: bəzi bədii mətnlərdən də informasiya əldə etmək mümkündür.

**Dinləmə**

Müəllim “Azərbaycan Qızıl Aypara Cəmiyyəti” adlı mətni səsləndirir:

***Azərbaycan Qızıl Aypara Cəmiyyəti***

*Azərbaycan Qızıl Aypara Cəmiyyəti vətənimizdə fəaliyyət göstərən ən böyük humanitar təşkilatdır. Cəmiyyət dünyanın ən nəhəng humanitar təşkilatı olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının üzvüdür.*

*Azərbaycanın Qızıl Aypara Cəmiyyəti 1920-ci il mart ayının 10-da yaradılmışdır. Cəmiyyət general Əliağa Şıxlinskinin və Fətəli xan Xoyskinin təşəbbüsü ilə yaradılmışdır. Generalın həyat yoldaşı Nigar Şıxlinskaya isə Azərbaycanın ilk tibb bacısı kimi döyüşlərdə yaralanmış əsgər və zabitlərə yardım göstərmişdir.*

*Bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti dünyada baş vermiş fövqəladə halların, yəni zəlzələ, daşqın, sunami kimi təbii fəlakətlər zamanı nəticələrin aradan qaldırılmasında uğurla iştirak edir. İndiyədək 11 nəfər azərbaycanlı öz xidmətlərinə görə beynəlxalq yardım təşkilatının ən yüksək medalını qazanıb.*

**Dərslik, səh. 99**

**1.** Qeydlər götürməklə Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında mətni dinləyin və suallara cavab verin.

**Cavab: 1. Cəmiyyət nə vaxt yaradılıb?**

Azərbaycanın Qızıl Aypara Cəmiyyəti 1920-ci il mart ayının 10-da yaradılmışdır.

**2. Kimin təşəbbüsü ilə yaradılıb?**

Cəmiyyət general Əliağa Şıxlinskinin və Fətəli xan Xoyskinin təşəbbüsü ilə yaradılmışdır.

**3. Təşkilat hansı məqsədlə yaradılıb?**

Humanitar yardım göstərmək məqsədilə yaradılmışdır.

**4. Nigar xanım Şıxlinskaya bu təşkilatda necə fəaliyyət göstərib?**

Generalın həyat yoldaşı Nigar Şıxlinskaya Azərbaycanın ilk tibb bacısı kimi döyüşlərdə yaralanmış əsgər və zabitlərə yardım göstərmişdir.

**Dərslik, səh. 99**

**2.** Dinləmə mətnində hansı məlumat yoxdur?

**Cavab:** Hər il martın 10-u Azərbaycanda Qızıl Aypara Günü kimi qeyd olunur.

**Dərslik, səh. 99**

**3.** Oxuduğunuz və dinlədiyiniz mətnlərə istinad etməklə Nigar xanım Şıxlinskaya haqqında məlumat vərəqi hazırlayın.

Şagirdlər Nigar xanım Şıxlinskaya haqqında oxu və dinləmə mətni ilə tanış olublar. Bu mətnlərdən aldıqları məlumatlara əsasən məlumat vərəqi hazırlayırlar. Hazırladıqları məlumat vərəqini sinfə təqdim edirlər.

**Müəllimin nəzərinə!** Bu tapşırığı qruplarla yerinə yetirmək də olar. Hər bir qrup hazırladığı məlumat vərəqini sinfə təqdim edir. Bütün qrupların qeyd etdikləri eyni və müxtəlif məlumatlar müəyyən edilir.

**Dərslik, səh. 99**

**4.** Təsəvvür edin ki, siz Azərbaycan Qızıl Aypara Cəmiyyətinin üzvüsünüz. Aşağıda təsvir olunan fövqəladə vəziyyətlərlə bağlı kiçik mətn qurub danışın.

Müəllim lövhəyə *daşqın, zəlzələ* sözlərini yazıb şagirdləri müzakirəyə cəlb edir:

1. Sizcə, zəlzələ və ya daşqın olacağını əvvəlcədən bilmək mümkündürmü?

2. Bu hadisələr zamanı insanlar hansı təhlükələrlə üzləşə bilərlər?

3. Başqa hansı hadisələr insan həyatı üçün təhlükəlidir?

4. Necə düşünürsünüz, insanlar bu hadisələrin qarşısını ala bilərlərmi?

**Şagirdlər təxminən bu məzmunda mətnlər qura bilərlər:**

**Zəlzələ**

Mən illərdir ki, Qızıl Aypara Cəmiyyətinin üzvüyəm. Bu illər ərzində həm ölkəmizdə, həm də digər ölkələrdə minlərlə insana yardım göstərmişik. Bu yaxınlarda qardaş ölkə Türkiyə ərazisində güclü zəlzələ baş vermişdi. Biz Azərbaycan Qızıl Aypara Cəmiyyətinin üzvləri qardaş ölkəyə yardıma getdik. Komandamız dost ölkəyə humanitar yardımla yüklənmiş maşınlarla yola çıxdı. Yardıma qida, ev əşyası, gündəlik istifadə, tibb və gigiyena vasitələri, qış geyimi, əlil arabaları, oyuncaq və sairələr daxil idi.

Uçub-dağılmış binaların arasından yaralı insanların xilasetmə əməliyyatında iştirak etdik. Apardığımız humanitar yardımı ev-eşiyi uçmuş insanlara payladıq.

**Daşqın**

Yaz aylarında Kürətrafı rayonlarda tez-tez daşqınlar olur. Axı Kür dağ çayıdır. Yaz gələndə dağlardakı qar əriyib çaya tökülür. Kürün suyu çoxalır, daşqına səbəb olur. Keçən günlərdə evlərini su basmış insanlara yardıma getdik. Onları müvəqqəti yaşamaları üçün sığınacaqlarla təmin etdik. Su basmış evlərin, həyətlərin təmizlənməsində iştirak etdik.

**İş dəftəri, səh. 64**

**1.** Aşağıdakı mövzuda esse yaz.

**Şagirdlər təxminən bu məzmunda esse yaza bilərlər:**

***Humanitar təşkilatların fəaliyyəti vacibdirmi?***

*İnsanlara çətin günlərində yardım etmək, dəstək olmağı bacarmaq vacib xüsusiyyətdir. Dostlar, tanışlar daim bir-birinə yardım etməyə çalışırlar. Bəs humanitar təşkilatların yaranması, fəaliyyəti vacibdirmi? Mən düşünürəm ki, humanitar təşkilatların yaranması və fəaliyyəti çox vacibdir.*

*Humanitar təşkilatlar qərəzsiz, neytral və müstəqil fəaliyyət göstərir. Yəni bu təşkilat tanıdığı və tanımadığı, köməyə ehtiyacı olan hər*

*kasə yardım edir. İnsanlara heç bir milli və ya irqi fərq qoymadan, dini mənsubiyyətindən asılı olmayaraq kömək edir. Humanitar təşkilatlara Azərbaycan Qızıl Aypara Cəmiyyətini nümunə gətirə bilərik. Bu cəmiyyət təbii fəlakətlər zamanı, eyni zamanda müharibədə zərər çəkmiş əhaliyə köməklik göstərir. Ehtiyac olduqda onlara tibbi yardım da edir.*

*Beləliklə, deyə bilərik ki, humanitar təşkilatların fəaliyyəti insanlara güvənc hissi verir.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2 (D.) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır. | Tap. 3 (D.) |
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tap. 1 (İ.D.) |
| Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir. | Tap. 4 (D.) |

# 3-cü DƏRS
# Cümlədə söz sırası

**Təlim nəticələri:**
- Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir (st. 4.1.1).
- Yazarkən cümlədə söz sırasına əməl edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

Şagirdlər aşağı siniflərdən Azərbaycan dilində cümlədə söz sırasının fərqli olduğu haqqında məlumatlıdırlar.

**Dərslik, səh. 100**

**1.** Söz sırasını bərpa etməklə cümlələr yazın.

**Cavab:** 1. Qışda heyvanlar yemi çətinliklə tapırlar.

2. Sərçələr səhər-səhər həyətdə civildəşirdilər.

**Dərslik, səh. 100**

**2.** Hansı cümlədə mübtəda cümlənin ortasında gəlir?

Şagirdlərin cümlə üzvləri haqqında əvvəlcədən məlumatları var. Bu tapşırıq şagirdlərin diqqətini mübtəda və xəbərə yönəldir.

**Cavab:** B

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları izah edir. Qayda izah edilərkən Azərbaycan dilində xəbərin cümlənin sonunda gəldiyi vurğulanır.

**Dərslik, səh. 100**

**3.** Hansı şeir parçasında söz sırası pozulmayıb?

**Cavab:** C

**Dərslik, səh. 100**

**4.** Misralarda söz sırasını bərpa etməklə cümlələri köçürün.

**Cavab:**

Meşə yaşıl köynəyini geyinir. Bənövşə quş kimi yaxama qonur. Qoy qoca təbiət məndən dərs alsın. O da könlüm kimi həmişə gülsün.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin bəzi samitlərin yazılışı haqqında aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 65**

**1.** Söz sırasını bərpa etməklə cümlələr yaz.

**Cavab:**
1. İlk telefon Amerikada kəşf olunmuşdur.
2. Timsah suda-quruda yaşayan heyvandır.
3. Səbirli adam gec-tez öz məqsədinə çatacaq.

**İş dəftəri, səh. 65**

**2.** Hansı cümlədə mübtəda cümlənin ortasında gəlir?

**Cavab:** C. Dəstə ilə uçan **qazlar** bir-birinə qayğı göstərir.

**İş dəftəri, səh. 65**

**3.** Şeirin hansı misralarında söz sırası pozulub? Həmin misralarda söz sırasını bərpa edib cümləni yenidən yaz.

**Cavab:**

**Məktəbə get, dərs oxu**

Ağıllı oğlum, oyan!
Hər zaman qiymətlidir.
Tez ol, dur, məktəbə get.
Elmə, ədəbə sarıl.
Yuxu səhər ziyandır.
Məktəbə get, dərs oxu!

*Abdulla Şaiq*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |
| Yazarkən cümlədə söz sırasına əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 3-cü fəsil
# TƏHSİL FƏDAİSİ

## 1-ci DƏRS
## Qori Müəllimlər Seminariyası

**Təlim nəticələri:**

• Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.3).
• Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 3.1.1).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.2).
• Oxuduğu mətnin qısa məzmununu yazır (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 101**

**1.** Sizcə, ölkədə məktəblər, universitetlər olmasa, nə baş verər? Hər bir xalqın həyatında təhsilin rolu haqqında fikirlərinizi söyləyin.

Müəllim tapşırıqda təqdim edilmiş istiqamətləndirici sualla şagirdləri danışmağa yönəldir.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** "Qori Müəllimlər Seminariyası" mətni informativ mətn olduğundan qeyd götürərək oxu tətbiq etmək tövsiyə olunur.

**Müəllimin nəzərinə!** Şagirdlərin Qori Seminariyası haqqında məlumatlandırılması zəruridir. Növbəti mətnin asanlıqla oxuyub-qavranması üçün Qori Seminariyası haqqında kiçik mətn təqdim edilir. Həmin dövrdə Azərbaycanın təhsil sahəsindəki problemləri təsəvvür etmələri üçün şagirdlər məlumatlandırılır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 101**

**2.** Mətnə əsasən aşağıdakı suallara cavab verin.

**“Nə anladın?” rubrikasında** verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Cavab:**

**1. Qori Müəllimlər Seminariyası harada fəaliyyət göstərirdi?**

Qori Müəllimlər Seminariyası Gürcüstanın Qori şəhərində fəaliyyət göstərirdi.

**2. Bu təhsil ocağının məqsədi nə idi?**

Burada ibtidai məktəblər üçün müəllimlər hazırlanırdı.

**3. Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsi nə vaxt açıldı?**

Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsi 1879-cu ildə açıldı.

**4. Qazax Müəllimlər Seminariyası nə zaman yaradıldı?**

Qazax Müəllimlər Seminariyası bir neçə ildən sonra yaradıldı.

**Dərslik, səh. 102**

**3.** Sizcə, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsinin əhəmiyyəti nə idi?

Motivasiya xarakterli bu sual beyin həmləsi edir. Şagirdlər müxtəlif fikirlər söyləyə bilərlər. Bu zaman fikirlərin əsaslandırılması vacibdir. Yəqin ki, seminariyanın Azərbaycana köçürülməsi ilə təhsilin daha əlçatan olacağı fikri üstünlük təşkil edəcək.

**Oxu. Söz ehtiyatı**

**Dərslik, səh. 102**

**4.** Mətni rollar üzrə oxuyun.

**Mətnlə iş.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində “Tək əldən səs çıxmaz” mətnini səssiz oxuyurlar. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim yeni sözlərin mənasını izah etdikdən sonra mətn yenidən oxunur. Şagirdlər bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etmələrinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

**Dərslik, səh. 102. “Söz mücrüsü” rubrikası**




Müəllim “Söz mücrüsü”ndə verilmiş sözlərin mənasını, bundan əlavə, oxu prosesində tanış olmayan sözləri şagirdlərə izah edir.

**Dərslik, səh. 103**

**5.** “Söz mücrüsü”ndən izahlara uyğun sözləri seçin.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər “Söz mücrüsü”ndən izahlara uyğun sözləri seçərək yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Cavab:** 1. təmkinlə; 2. fağır; 3. nicat; 4. sükut; 5. təəssüflə.

**Dərslik, səh. 103**

**6.** Mətnə əsasən “nicat yolu” ifadəsinin mənasını təxmin edin.

**Cavab:** Yəni Qori Seminariyasının Azərbaycan şöbəsinin açılması ilə hamının övladı təhsil ala biləcək, savadsızlıqdan xilas olacaq.

**Dərslik, səh. 103**

**7.** Obrazların nitqinə əsasən suallara cavab verin.

**Cavab: 1. Hadisələr harada baş verir?**

Hadisələr Qazaxda, Kosalar kəndində baş verir.

**2. Badisəba xanımın kəndin ağsaqqalları ilə görüşməsinə səbəb nə idi?**

Qori Seminariyasının Azərbaycan şöbəsinin Qazaxda fəaliyyət göstərməsi üçün bina lazım idi. Ona görə də Badisəba xanım kəndin ağsaqqalları ilə məsləhətləşmək istəyirdi.

**3. Hansı obrazın nitqində kənd camaatının Badisəba xanıma münasibəti əks olunub?**

Mətndə Məşədi İbrahimin nitqində kənd camaatının Badisəba xanıma münasibəti əks olunub.

**4. Mətndə Badisəba xanımın hansı xeyirxah işləri haqqında danışılır?**

Badisəba xanım uşaqların tərbiyəsi, təhsil alması üçün çox çalışıb. Qazaxda yetim, kimsəsiz uşaqlar üçün uşaq evi yaradıb. Küçələrdə ac-yalavac dolaşan uşaqların həyatını xilas edib.

**Dərslik, səh. 103**

**8.** Mətnin hansı cümlələrində hadisələrin baş verdiyi yer, obrazların hərəkəti, hiss-həyəcanlarının təsviri verilib? Həmin cümlələri seçib oxuyun.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini remarkalara cəlb edərək izahat verilməsi tövsiyə olunur. Pyeslərdə müəllifin hadisənin hansı şəraitdə gedəcəyini, personajların davranışının və xarici görkəminin xüsusiyyətlərini səciyyələndirən sözlər və cümlələr istifadə edilir.

**Cavab:**

• **Qazax. Kosalar kəndi.** Kəndin ağsaqqalları həyətdə yığışıblar. Badisəba xanım onlarla söhbət edir.

• *Məşədi Həsən (**təəssüflə**)*: Bəli, elədir.

• *Məşədi İbrahim (**təmkinlə**)*: Artıq hamımız anlayırıq ki, savadsız camaatı olan bir xalq inkişaf edə bilməz.

• *Badisəba xanım (**fəxrlə**)*: Mən bilirdim ki, millətimizin gələcəyini düşünən xeyirxah insanlarımız var.

**Dərslik, səh. 103**

**9.** Sizcə, həmin dövrdə Azərbaycanda təhsilli insanların sayının azlığı nə ilə əlaqədar idi? Qazax Müəllimlər Seminariyasının açılması bu problemi həll edə biləcəkdimi?

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

*Həmin dövrdə Azərbaycanda məktəblərin sayı olduqca az idi, demək olar ki, yox dərəcəsində idi. Azərbaycanlılar, əsasən, təhsil almaq üçün Gürcüstana, Qori Seminariyasına gedərdilər. Buna hamının maddi imkanı çatmırdı. Bu səbəbdən təhsil almayan şəxslərin sayı çox idi.*

**Dərslik, səh. 103**

**10.** Nəyə görə mətn "Tək əldən səs çıxmaz" adlandırılıb? Bəs siz mətni necə adlandırardınız?

**Şagirdlərin cavabı təxminən belə ola bilər:**

*Mətndə Məşədi İbrahimin nitqinə əsasən anlaşılır ki, Badisəba xanım Azərbaycan xalqının maariflənməsi yolunda əlindən gələni edib, amma, necə deyərlər, tək əldən səs çıxmaz. Bu işdə birlik lazımdır. Yəni mətnin adı əsas fikri ifadə edir. Mətnə "Güc birlikdədir" başlığını da vermək mümkündür.*

**Dərslik, səh. 103**

**11.** Mətndə Badisəba xanımın hansı xüsusiyyətləri ön plana çəkilib? Uyğun epizodları danışmaqla fikrinizi əsaslandırın.

**Cavab:** Maarifpərvər – Badisəba xanım Azərbaycan xalqının maariflənməsi yolunda çalışıb. Qori Seminariyasının Azərbaycan şöbəsinin Qazaxda fəaliyyət göstərməsinə səy göstərib.

Qayğıkeş – Qazaxda yetim, kimsəsiz uşaqlar üçün uşaq evi yaradıb. Küçələrdə ac-yalavac dolaşan uşaqları xilas edib.

**İş dəftəri, səh. 66**

**1.** Qori Müəllimlər Seminariyasına aid fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

**Cavab:** 1. yanlış; 2. yanlış; 3. doğru; 4. yanlış; 5. yanlış.

**İş dəftəri, səh. 66**

**2.** "Tək əldən səs çıxmaz" mətninin qısa məzmununu yaz.

Şagirdlər verilmiş plana uyğun "Tək əldən səs çıxmaz" mətninin qısa məzmununu yazaraq həm mətnin məzmununu qavradıqlarını, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 1, 3, 9 (D.) |
| Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur. | "Tək əldən səs çıxmaz" mətni |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 5, 6 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2, 7 (D.), tap. 1 (İ.D.) |

| | |
|---|---|
| Ssenari mətninin struktur xüsusiyyətlərini (dialoq, remarka və s.) izah edir. | Tap. 8 (D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 10, 11 (D.) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS
# Badisəba ana

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.2).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
• Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 1.1.2).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.3).

**Dinləmə**

Müəllim "Badisəba ana" adlı mətni səsləndirir.

***Badisəba ana***

*Badisəba xanım Azərbaycanın maarifçi qadınlarından biridir. O, böyük ziyalı Firidun bəy Köçərlinin həyat yoldaşı olub. Qardaşları Məmməd ağa və İsmayıl ağa Qori Müəllimlər Seminariyasında şuşalı Firidun bəylə birgə oxuyublar. Tələbə dostları ilə birgə Salahlıya gələn Firidun bəy Badisəba xanımı çox bəyənir. Onlar 1897-ci ildə ailə qururlar. Həyat yoldaşının təhsili ilə Firidun bəy özü məşğul olub və onun maarifçi bir şəxsiyyət kimi yetişməsində böyük zəhmət çəkib.*

*Bir dəfə Badisəba xanım küçədə kimsəsiz, ac-yalavac dolaşan bir uşaq görür. Onu fikir götürür: "Evi-eşiyi olmayan bu uşaqlar harada qalırlar? Nə ilə dolanırlar?" Badisəba xanım Firidun bəyə deyir:*

*– Ay Firidun, çox yerdə, elə Rusiyada sahibsiz uşaqlara sığınacaq yerləri açırlar. Gəl biz də bir xeyirxah iş görək, məktəb açaq.*

*Firidun bəy məktəb üçün ikiotaqlı mənzil alır. Badisəba xanım atasıgilə xəbər göndərir. Oradan bir-iki xalı-xalça gətirtdirir, qab-qacaq aldırır. Üç-dörd günə uşaqlara pal-paltar, corab-ayaqqabı, yorğan-döşək düzəldir. Beləliklə, Azərbaycanda ilk uşaq evi yaranır. Badisəba xanım uşaqlara doğma övladı kimi qayğı göstərir. Uşaqlar isə bu mehriban qadına "ana" deyə müraciət edirdilər.*

**Dərslik, səh. 104**

> **1.** "Badisəba ana" mətnini dinləyin. Aşağıdakı suallara cavab verin.

**Cavab:**

**1. Nəyə görə mətndə Badisəba xanıma "ana" deyilir?**

Badisəba xanım Azərbaycanda ilk uşaq evini açıb. Burada kimsəsiz uşaqlara analıq edib.

**2. Badisəba xanım kimdən təhsil alıb?**

Badisəba xanım böyük ziyalı Firidun bəy Köçərlinin həyat yoldaşı olub. Həyat yoldaşının təhsili ilə Firidun bəy özü məşğul olub və onun maarifçi bir şəxsiyyət kimi yetişməsində böyük zəhmət çəkib.

**3. Nə üçün Badisəba xanım kimsəsiz uşaqlar üçün məktəb açmaq istəyirdi?**

Badisəba xanımı küçədəki kimsəsiz, ac-yalavac uşaqların taleyi daim düşündürürdü. Evi-eşiyi olmayan bu uşaqların harada qaldığı, nə ilə dolandığı haqqında suallar onu narahat edirdi.

**4. Badisəba ana hansı ilkə imza atır?**

Azərbaycanda ilk uşaq evi açır.

**Dərslik, səh. 104**

> **2.** Badisəba xanım haqqında oxuduğunuz və dinlədiyiniz mətnlərə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın.

**Cavab:**

**1. Badisəba xanım xeyirxah insan olub.**

Kimsəsiz uşaqların qayğısına qalıb, onlara ana kimi münasibət bəsləyib.

**2. O, maarifçi qadın kimi tarixdə iz qoyub.**

Qori Seminariyasının Azərbaycan filialının Qazaxda fəaliyyəti üçün çalışıb.

**3. Badisəba xanım ilkə imza atan Azərbaycan qadınıdır.**

Azərbaycanda ilk uşaq evi açmaqla ilkə imza atıb.

**4. O, təhsilin inkişafı uğrunda mübarizə aparıb.**

Azərbaycan xalqının maariflənməsi uğrunda çalışıb, hətta kimsəsiz uşaqlar üçün açdığı uşaq evində yaşayanların təhsili ilə şəxsən özü məşğul olub.

**Dərslik, səh. 104**

> **3.** Məlumat vərəqindən istifadə edərək mətni genişləndirib danışın.

Tapşırıq şagirdləri qrafik informasiyanı verbal informasiyaya çevirmək, yəni məlumatları rabitəli mətn halına salmaq bacarığını inkişaf etdirir.

**Dərslik, səh. 104**

> **4. Qruplarla iş.** Aşağıdakı plana əsasən Azərbaycanın tarixində iz qoymuş qadınlar haqqında informativ xarakterli mətn yazın.

Şagirdlər bu fəsildə Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya və Badisəba xanım Köçərli haqqında məlumat almışlar. İndiyə qədər mütaliə etdikləri kitablardan, baxdıqları filmlərdən də tanıdıqları tarixdə iz qoymuş qadınlar haqqında da təqdimat edə bilərlər. Hətta müasir dövrdə yaşayan, hər hansı bir uğuru, davranışı ilə tarixdə iz qoyacaqlarını düşündükləri qəhrəmanları haqqında da yaza bilərlər.

**İş dəftəri, səh. 67**

> **1.** Badisəba ana haqqında məlumat yaz.

Şagirdlər Badisəba xanım Köçərli haqqında oxuduqları mətnin qısa məzmununu yazaraq həm mətnin məzmununu qavradıqlarını, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 67**

> **2.** "Azərbaycanın maarifçi qadını" mətninin məzmununa aid suallar yaz.

**Şagirdlərin sualları təxminən bu məzmunda ola bilər:**

1. Badisəba xanım kim idi?
2. Badisəba xanım Firidun bəylə necə tanış olmuşdu?
3. Hansı hadisə Badisəba xanımın uşaq evi açmasına səbəb oldu?
4. Badisəba xanım uşaq evinin əşyalarını necə əldə etdi?
5. Badisəba xanım hansı fəaliyyəti ilə tarixdə iz qoyub?

**İş dəftəri, səh. 67**

> **3.** Fikirlərin kimə aid olduğunu müəyyən et.

**Cavab:** 1 – Həmidə xanım Cavanşir
2, 5 – Nigar xanım Şıxlinskaya
3, 6 – Badisəba xanım Köçərli
4 – hər üçü

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1 (D.), tap. 3 (İ.D.) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tap. 2 (D.) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. 3 (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. 4 (D.), tap. 1 (İ.D.) |
| Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. 2 (İ.D.) |

# 3-cü DƏRS
# Ümumiləşdirici təkrar

## Təlim nəticələri:

- Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 105**

> **1.** Verilmiş sözlərdən söz birləşmələri yaradın və cümlədə işlədin.

**Cavab:** evin qapısı, quşun qanadı, ayaqqabının ipi, günəşin şüası, yazıçının əsəri, arabanın təkəri.

**Dərslik, səh. 105**

> **2.** Cümlələrdə mübtəda və xəbəri müəyyən edin.

**Cavab:** 1. **Nənəm** bayram süfrəsi **açmışdı**.

2. Binanın qarşısında üçrəngli **bayrağımız dalğalanırdı**.

3. **Komandanız** yarışa ciddi **hazırlaşmalıdır**.

4. **Polis** sənədləri **yoxlayırdı**.

5. **Xəstənin vəziyyəti** gündən-günə **yaxşılaşırdı**.

**Dərslik, səh. 105**

> **3.** Hansı cümlədə mübtəda və xəbər mütləq uzlaşmalıdır?

**Cavab:** B. **Qızlar** çəmənlikdə çiçək **toplayırdılar**.

**Dərslik, səh. 105**

> **4.** İkinci dərəcəli üzvlər əlavə etməklə cümlələri genişləndirin.

**Cavablar təxminən belə ola bilər:**

1. Xədicə maraqlı hekayə oxuyurdu.
2. Səhər-səhər bağçada quşlar cəh-cəh vururdu.
3. Biz çiçək topladıq.
4. Kiçik qardaşım idmançıdır.
5. Divardan asılmış dördkünc saat işləmirdi.

**Dərslik, səh. 105**

> **5.** Düzgün söz sırası olan cümləni müəyyən edin.

**Cavab:** 3

**Dərslik, səh. 105**

> **6.** Şeirin hansı misralarında söz sırası pozulub. Həmin cümlələri düzgün söz sırası ilə yazın.

**Cavab:**

Çox yatma, a tənbəl, dur.
Yatsan, iş əngəl olar.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin bəzi samitlərin yazılışı haqqında aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 68**

> **1.** Cümlələrdə mübtəda və xəbəri müəyyən et.

**Cavab:**

1. **Kamal** həyəcanla **danışırdı**.
2. Tədbirə gələn **tamaşaçılar** yeni zalda **oturmuşdular**.
3. **Təyyarə** getdikcə yuxarı **qalxırdı**.
4. Biz otaqdan çıxanda **uşaq** beşiyində şirin-şirin **yatırdı**.
5. **Xəstənin vəziyyəti** gündən-günə **yaxşılaşırdı**.

**İş dəftəri, səh. 68**

> **2.** Hansı cümlədə mübtəda ilə xəbərin şəxsə görə uzlaşmasında səhvə yol verilib?

**Cavab:** B. Payız gələndə günlər qısalır.

**İş dəftəri, səh. 68**

> **3.** İkinci dərəcəli üzvləri əlavə etməklə cümləni genişləndir.

**Cavablar təxminən belə ola bilər:**

1. Musiqiçi pianoda məharətlə ifa etdi.
2. Şagirdlər tapşırığın cavabını müəllimdən soruşdular.
3. Bugünkü tapşırıq asan idi.
4. İdmançılar qızıl və gümüş medal qazandılar.
5. Evimizin yaxınlığında yeni kitabxana açılacaq.

**İş dəftəri, səh. 68**

> **4.** Söz sırasını bərpa edərək tapmacaları köçür. Açmasını tap.

**Cavab:** 1. Səhər-səhər bağda uçar, bizə yazdan xəbər verər. (Açması: qaranquş)

2. Bostanda bir arvad var, qatbaqat paltar geyinib. (Açması: kələm)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar. |

# 4-cü sinif üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.1).
• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.1).
• Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir (st. 4.1.1).
• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir (st. 4.1.2).
• Yazarkən cümlədə söz sırasına əməl edir (st. 4.1.2).
• Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur (st.4.1.2).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 106**

**1.** Nöqtələrin yerinə uyğun hərfi yazın.

**Cavab:** effekt, aqressiya, harmoniya, akkord, hokkey, himn.

**Dərslik, səh. 106**

**2.** Sözlərə şəkilçilər artırıb yazın. Hansı şəkilçilər yeni söz yaratdı?

**Cavab:** balıqçı, dostluq, dostlaş(maq), güllü, güldan, bağça, bağban.

**Dərslik, səh. 106**

**3.** Aşağıdakı isimləri müxtəlif hallarda işlədin və mənsubiyyətə görə dəyişin.

*Nümunə*:

Köynək, köynəyin, köynəyə, köynəyi, köynəkdə, köynəkdən.

Mənim köynəyim, sənin köynəyin, onun köynəyi, bizim köynəyimiz, sizin köynəyiniz, onların köynəyi.

**Dərslik, səh. 106**

**4.** Nöqtələrin yerinə uyğun şəkilçiləri əlavə edib söz birləşmələrini cümlədə işlədin.

**Cavab:** mənim əlcəyim; sənin xətkeşin; onun sinfi; bizim yeməyimiz; sizin qonağınız; onların çantası.

**Dərslik, səh. 106**

**5.** Azaltma dərəcəsində olan sifətləri seçib cümlələri tamamlayın.

**Cavab:** 1. Nənəsi körpəyə **kəmşirin** çay verdi.
2. Usta divara **bozumtul** boya vurdu.
3. Ət yaxşı bişməmişdi, **ala-çiy** idi.
4. Biz geniş, **uzunsov** bir zala girdik.

**Dərslik, səh. 106**

**6.** Cümlələrdən feilləri seçib məsdər şəklində yazın.

**Cavab:** 1. dalğalanırdı – dalğalanmaq
2. qaldırıb – qaldırmaq; baxdım – baxmaq
3. keçiriləcək – keçirilmək

**Dərslik, səh. 107**

**7.** Nöqtələrin yerinə müvafiq köməkçi nitq hissəsi yazmaqla cümlələri tamamlayın. Əlavə etdiyiniz sözün cümlədəki qrammatik funksiyasını müəyyənləşdirin.

**Cavab:** 1. Gülarə sinfə hamıdan **əvvəl** daxil oldu. (*qoşma*)

2. Xəyalə büdrədi, **amma** yıxılmadı. (*bağlayıcı*)

3. **Bəs** demişdin bizi teatra aparacaqsan? (*ədat*)

4. **Təəssüf ki**, sizi gözləyə bilməyəcəyəm. (*modal söz*)

**Dərslik, səh. 107**

**8.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər zərf kimi işlənib?

**Cavab:**
1. Gecə yağış yağırdı.
2. Deyəsən, bu adam doğru danışır axı!
3. Gülay gözəl rəqs edir.
4. Bu gün xeyli işləmişəm.

**Dərslik, səh. 107**

**9.** İşarə əvəzliyi işlənmiş cümlələri müəyyən edin. Həmin əvəzlikləri başqa cümlələrdə işlədin.

**Cavablar təxminən belə ola bilər:**
1. Həmin uşaqları parkda gördüm.
2. Bu biletləri mənə verin.
3. Məktub belə yazılmalıdır.
4. Elə qışqırdı ki, hamı ona tərəf çevrildi.
5. Belə kitablardan xoşum gəlir.

**Dərslik, səh. 107**

**10.** Yalnız mübtəda və xəbəri saxlamaqla cümlələri köçürün.

**Cavab:** 1. Tural keçdi.
2. Mən öyrənəydim.
3. Təyyarə gecikir.
4. Biz yaşayırıq.
5. Dəniz dalğalıdır.

**Dərslik, səh. 107**

**11.** Şeir misralarında söz sırasını bərpa etməklə cümlələri köçürün.

**Cavab:** 1. İnsana onun kamalı arxadır. Hər kəsin dövləti, malı ağıldır.

2. Bir sümük atsan, it sənə dost olar. Qurban da olsan, namərd qədir bilməz.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tap. 1, 3, 4, 5 (D.) |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 2, 6 (D.) |
| Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur. | Tap. 7, 8, 9 (D.) |
| Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir. | Tap. 10 (D.) |
| Yazarkən cümlədə söz sırasına əməl edir. | Tap. 11 (D.) |

# 6-cı bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 69-71-ci səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 1 |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 3 |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tap. 4 |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tap. 5, 7, 8 |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 6, 9 |
| Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur. | Tap. 10, 11, 12 |
| Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir. | Tap. 13, 14 |
| Yazarkən cümlədə söz sırasına əməl edir. | Tap. 15 |

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2023-020)*
***metodik vəsaiti***

**Tərtibçi heyət:**

Müəlliflər: **Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Dil-üslub redaktoru: **Dilrübə Cəfərova**
Texniki redaktor: **Rəşad Nəbiyev**
Dizayner: **Nərmin Həsənova**
Korrektor: **Aqşin Məsimov**

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-5-4

Hesab-nəşriyyat həcmi: 11,5. Fiziki çap vərəqi: 13,5.
Səhifə sayı: 112. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 11.5 pt. Ofset kağızı. Ofset çapı.
Bakı – 2023.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 18.07.2023

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Pulsuz